Xalqın qəzeti!

# Xalq qəzeti

№ 175 (30869) 21 avqust 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Regionların tərəqqisi ümummilli hədəfdir

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Gəncə şəhərinə səfəri

*Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə şəhərində olublar.**

Dövlətimizin başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya şəhərdə aparılan tikinti-quruculuq işləri barədə məlumat verdi.

Bildirilib ki, III MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhərində bütün aidiyyəti qurumlar səfərbər olunub, genişmiqyaslı abadlıq-quruculuq, təmir-bərpa və tikinti işləri həyata keçirilir.

Gəncə Şəhər İcra Hakimiyyəti və "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi tərəfindən indiyədək 120-dən çox küçənin asfalt örtüyü yenilənib, əsaslı təmir işləri görülüb. Yenidənqurma işləri şəhərdəki bir neçə parkı da əhatə edib. Bütün bunlarla yanaşı, küçələrin işıqlandırılması, şəhərin müxtəlif yerlərində yeni yaşıllıqların salınması istiqamətində bir sıra işlər görülüb.

"Bakı Abadlıq Xidməti" MMC tərəfindən şəhərin 637 yaşayış və qeyri-yaşayış binasının fasadı təmir edilib, 1159 binanın dam örtüyü və 49 küçədə, prospektdə işıqlandırma sistemləri, 62 ünvanda fasad işıqlandırılması yenilənib, 24 fəvvarədə təmir və bərpa işləri görülüb, 27 min kvadratmetr sahədə piyada yolları bərpa edilib.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu, dəyərli Qardaşım!**

Sizin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqton şəhərində imzaladığınız Birgə Bəyannamə barədə xəbəri böyük məmnuniyyətlə qarşıladım.

Bu sənədi, ilk növbədə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin bərpası, Cənubi Qafqaz regionunda davamlı sülhün və dayanıqlı inkişafın təmin olunması istiqamətində Sizin uzun illər ərzində yorulmaz səylərinizin, qətiyyətli siyasi iradənizin, eləcə də cəsarətli və ədalətli təşəbbüslərinizin aydın nəticəsi kimi qiymətləndirirəm.

Sizin rəhbərliyiniz altında son illərdə Azərbaycan və Ermənistan arasında Sülh Sazişinin imzalanması yolunda əldə olunmuş əhəmiyyətli irəliləyiş xüsusi təqdirə layiqdir.

Bizim üçün həqiqətən qardaş olan Azərbaycan xalqının ciddi sınaqlar və sürətli dəyişikliklər dövründə belə yüksək nailiyyətlər əldə etməsindən sonsuz qürur duyuruq.

**Hörmətli İlham Heydər oğlu!**

Sizin müdrik və uzaqgörən siyasətiniz təkcə qardaş Azərbaycan xalqının uzun illərdən bəri bəslədiyi ümidlərin tam gerçəkləşməsinə, beynəlxalq arenada nüfuz və hörmətinin artmasına deyil, həm də regionda davamlı sülhün və tərəqqinin möhkəmlənməsinə etibarlı əsas yaradır.

Fürsətdən istifadə edərək, Sizi bu tarixi uğur münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, məsuliyyətli dövlət fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh və rifah arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Parisin yanlış yoldan dönməkliyi

*Cənubi Qafqazda strateji manevr, yaxud Fransa–Azərbaycan münasibətlərində yeni dövr*



**Cənubi Qafqazın geosiyasi mənzərəsi sürətlə dəyişir və Parisin diqqəti Bakıya yönəlir. Sofi Laqutun yeni səfir olaraq təyinatı Fransa üçün strateji bir siqnaldır, regiondakı nüfuzunu möhkəmləndirmək və Azərbaycanın Avropadakı rolunu önə çıxarmaq məqsədi daşıyır. Buradan həm də görünür ki, Paris Cənubi Qafqazın diplomatik oyun sahəsində fəal iştirak etməyə hazırdır və regiondakı balansı öz xeyrinə yönləndirmək niyyətindədir.**

*(ardı 4-cü səhifədə)*

## Türk Dövlətləri Təşkilatı – qardaş müttəfiqliyindən strateji tərəfdaşlığa



**2009-cu il oktyabrın 3-də imzalanan "Naxçıvan müqaviləsi" əsasında yaradılan Türk Dövlətləri Təşkilatı (TDT) qısa müddətdə regionun ən mühüm siyasi və iqtisadi platformalarından birinə çevrilib. Təşkilatın təməlində siyasi maraqlarla bərabər həm də ortaq tarix, mədəniyyət, dil və ənənələr dayanır. Bu qurumun fəaliyyəti təbii müttəfiqliyə əsaslanır, inkişafı isə xalqlarımızın əsrlər boyu formalaşan dəyərlərinin müasir dövrə uğurlu uyğunlaşdırılması ilə bağlıdır.**

*(ardı 7-ci səhifədə)*

## İlham Əliyev liderliyi və Trampın Avropa rəhbərlərinə "dərsi"

*Yaxud Azərbaycan amili və "köhnə qitə"nin böhranı*



**Dahi Aristotel özünün "Politiko" əsərində bildirmişdi ki, insan təbiətən ictimai varlıqdır, rəhbərlik edən olmasa birlik pozular, xaos yaranar. İngilis filosofu Tomas Hobbes isə siyasi hakimiyyətin mövcudsuzluğu şəraitində insan həyatının tənhalığını və kasıblığını, iyrənc, qəddar və qısalığını vurğulamışdı. Bu mənada böyük dövlət xadimi Uinston Çörçilin baxışı maraqlı və spesifikdir. O deyirdi ki, ingilislərin ən böyük qorxusu düşmən deyildi, rəhbərsiz qalmaq idi.**

Bir neçə gün əvvəl ABŞ Prezidenti Donald Trampın Avropa liderləri ilə keçirdiyi görüşə nəzərən yuxarıdakı deyimlərin sayını çoxaltmaq da mümkündür. Həmin görüşün mənzərəsi "köhnə qitə"də güclü lider anlayışının olmadığı qənaətini doldurlaşdırır. İş o yerə çatıb ki, Tramp özü, necə deyərlər, danışmağa, söhbətləşməyə adam axtarır. Baxın, o, Almaniyanın Kansleri Fridrix Mertzi güclü lider kimi təqdim edir. Əslində, bu təqdimat, böyük ölçüdə, məzələnməkdən başqa bir şey deyil. Çünki Birləşmiş Ştatlar lideri Kanslerin dəri rənginə diqqət yetirir və onun çimərlikdə günəşləndiyinə eyham vurur. Liderin günəşlənməyə vaxtı varsa, deməli, durum, həqiqətən acınacaqlıdır.

*(ardı 5-ci səhifədə)*

## Ter-Petrosyan revanşistlərin yarğanına yuvarlanıb



Səhifə ⇨ 4

## Təzad və narahatlıq



Səhifə ⇨ 5

## Rusiyada xaricilərə taksi sürməyi də etibar etmirlər




Səhifə ⇨ 6

# Gəncədə bazalt məhsullarının istehsalı müəssisəsinin təməli qoyulub






**Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində "Azerbazalt" MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər.**

"Azerbazalt" MMC-nin təsisçisi Rafət Əliyev dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, burada bazalt tozu və onun əsasında orqanik gübrə istehsalı həyata keçiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Birinci mərhələnin investisiya dəyəri 27 milyon manat təşkil edəcək.

İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu layihədə 30 faiz paya malikdir. Ümumi sahəsi 4 hektar olan zavodda ildə 360 min ton orqanik gübrənin istehsalı planlaşdırılır. İsveç və Türkiyə texnologiyaları əsasında qurulacaq müəssisədə əsas xammal kimi Göygöl rayonunun "Çaykənd" yatağından çıxarılan yüksəkkeyfiyyətli bazaltdan istifadə ediləcək. Layihənin birinci mərhələsində 200 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Layihənin ikinci mərhələsində isə bazalt əsasında yüksək texnoloji innovativ məhsulların – bazalt lifi, 3D printer üçün xammal olan filamenin və digər sənaye materiallarının istehsalı həyata keçiriləcək. Bu isə öz növbəsində layihəyə əlavə strateji dəyər verməklə yanaşı, müdafiə, tikinti və yüksək texnologiyalar sektorlarının müasir və davamlı məhsullarla təmin olunmasına töhfə verəcək. Layihənin ikinci mərhələsi çərçivəsində 300 nəfər işlə təmin olunacaq. Məhsullar həm daxili tələbatı ödəyəcək, həm də xarici bazarlara ixrac olunacaq.

Qeyd edək ki, xüsusilə yüksək texnoloji bazalt məhsullarına beynəlxalq bazarlarda böyük tələbat var. Bazalt mənşəli məhsullar kənd təsərrüfatı və sənaye sahələri üçün yüksək dəyərə malik, ekoloji cəhətdən təhlükəsiz və çoxfunksiyalı materiallardır. Vulkanik mənşəli və yüksək mineral tərkibli bazalt tozu torpağın qida balansını bərpa edir, strukturunu yaxşılaşdırır və məhsuldarlığı artırır, su hövzələrinin turşulaşmasının qarşısını alır. Bazalt liflərindən isə filtrasiya, səsboğucu, istilik buraxmayan, korroziyaya davamlı örtüklər, beton üçün qatqı və tikinti sahəsində istifadə olunan digər yüksək dayanıqlı materiallar istehsal edilir. Bu materiallar yüksək istilik müqaviməti, dayanıqlılığı və ekoloji təmizliyi ilə seçilir. Həmin xüsusiyyətlərinə görə bazalt lifləri aviasiya, raket texnikası, müdafiə və avtomobil sənayesi kimi yüksək texnoloji sahələrdə geniş istifadə olunur.

Bu müəssisənin yaradılması yerli resursların əlavə dəyərə çevrilməsi, ekoloji və dayanıqlı istehsal modeli ilə Azərbaycanın qeyri-neft sənayesinin inkişafına xidmət edəcək, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalını artıracaq. Müəssisədə xammal kimi yerli bazaltdan istifadə isə daxili təbii ehtiyatların səmərəli dəyərləndirilməsini təmin etməklə, istehsal zəncirini möhkəmləndirəcək.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhər stadionunda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə şəhər stadionunda aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.**

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1959–1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından bu idman qurğusunun fəaliyyəti qismən həyata keçirilirdi.

Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı Sərəncama əsasən, Gəncə şəhər stadionunun yenidənqurma işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb.

Ötən il aprelin 9-da dövlətimizin başçısı stadionun təməlini qoyub.



Qeyd edək ki, bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycan növbəti böyük idman yarışına - III MDB Oyunlarına ev sahibliyi edəcək. Bunun üçün bir neçə şəhər və rayon seçilsə də, MDB Oyunlarının açılış və bağlanış mərasimləri, həmçinin əsas oyunlar Gəncədə keçiriləcək. Bütün bunlar nəzərə alınaraq şəhər stadionunun tikintisində işlər sürətləndirilib. Stadionun ərazisində köməkçi məşq meydançaları və Futbol Akademiyası binası tikilib. Yeni layihəyə görə stadionun ərazisi genişləndirilərək 10,4 hektara çatdırılıb. Nəqliyyat vasitələrinin təhlükəsiz giriş-çıxışı və parklanması ilə birlikdə idman arenasının ümumi sahəsi 12 hektardan çoxdur.

UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 343 yerlikdir. Stadionda fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaqlar, media və VIP zonalar mövcud olacaq. Burada, həmçinin futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və digər zəruri sahələr də müasir səviyyədə qurulur. Stadionun daxilində bilet satışı, müxtəlif ictimai iaşə obyektləri, avtodayanacaqlar və nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, havalandırma, təhlükəsizlik və digər zəruri sistemlər ilə təchiz olunur. İdman qurğusunun ərazisində də geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilir.



Müxtəlif idman yarışlarının keçiriləcəyi Gəncə şəhər stadionunun inşası, ilk növbədə, uşaqlar və yeniyetmələr arasında futbola olan marağı daha da artıracaq, futbolla məşğul olmaq istəyənlərə geniş imkanlar yaradacaq. Bölgələrimizdə yeni idman komplekslərinin yaradılması, köhnələrinin əvəzinə müasir idman qurğularının inşası ümumilikdə ölkəmizdə idmanın kütləviliyini təmin etməklə yanaşı, gənc nəslin sağlam yetişməsi baxımından da böyük rol oynayır. Bu layihə, eyni zamanda, ölkəmizin III MDB Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün gördüyü işlərdən biridir.

## Gəncə Memorial Kompleksində görülən işlərlə tanışlıq




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə Memorial Kompleksində görülən işlərlə tanış olublar.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma burada həyata keçirilən işlər barədə məlumat verib.



Qeyd edək ki, Gəncə Memorial Kompleksinin təməlini Prezident İlham Əliyev 2022-ci ilin yanvarında qoyub. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunun mülki əhaliyə qarşı törətdiyi cinayətləri özündə əks etdirəcək Kompleks raket zərbələrinə məruz qalmış yaşayış binalarının və keçmiş parkın yerləşdiyi ərazidə yaradılır. Ümumi sahəsi 4 hektar təşkil edəcək Kompleksdə ikimərtəbəli muzey binası və sərgi zalı olacaq. Burada mülki əhaliyə qarşı törədilmiş cinayətlərlə bağlı ekspozisiya, həmçinin dağıdılmış binaların yerləri ziyarətçilərə nümayiş etdiriləcək. Kompleksdə, həmçinin konfrans zalı da yaradılacaq. Ərazidəki parkda yaşıllaşdırma işləri aparılacaq, 700-ə yaxın ağac, 12 mindən çox dekorativ kol və güllər əkiləcək. Ermənistan ordusu tərəfindən atılmış raketin izini simvolizə edən spiralvari kraterin dərinliyi 13 metrdir. Hazırda muzey binasının tikintisi ilə bağlı son tamamlanma, həmçinin ekspozisiyanın təşkili və ərazinin abadlaşdırılması işləri həyata keçirilir.

Azərbaycan müharibədən dərhal sonra sülh təşəbbüsləri ilə çıxış edib, sülh gündəliyinin reallaşması üçün ardıcıl iş aparıb və artıq sülh müqaviləsi tərəflər arasında paraflanıb. Buna baxmayaraq, xalqımıza qarşı törədilmiş müharibə cinayətlərinin unudulmaması, tariximizin gələcək nəsillərə çatdırılması baxımından bu cür komplekslər mühüm rola malikdir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Hacıkənd” İstirahət Kompleksinin tikintisi ilə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də “Hacıkənd” İstirahət Kompleksinin tikintisi ilə tanış olublar.**

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən, həmçinin həyata keçiriləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Gəncə şəhərinin Hacıkənd qəsəbəsi və Göygöl rayonunun Bənövşəli kəndinin ərazisini əhatə edən Kompleksin ümumi sahəsi 23 hektara yaxındır.

Eyni vaxtda 452 qonağın qəbulu üçün nəzərdə tutulan Kompleks müxtəlif kateqoriyalı 133 nömrədən, 19 birmərtəbəli standart və 10 ikimərtəbəli VIP kottecdən ibarət olacaq. Füsunkar təbiət mənzərələri ilə zəngin bu məkanda milli və beynəlxalq mətbəxin ləziz təamlarının təqdim olunacağı restoran və kafelər fəaliyyət göstərəcək. Burada qonaqlara istirahətlə yanaşı, sağlamlıqlarını təmin etmək məqsədilə də zəruri şərait yaradılacaq. Onların qapalı hovuzda istirahət etməsi, ənənəvi SPA xidmətlərindən istifadəsi, müasir idman avadanlıqları ilə təchiz olunmuş fitnes zalından faydalanması nəzərdə tutulur.

Kompleksdə istirahətin daha əyləncəli keçməsi üçün karaoke, masaüstü oyunlar otağı və uşaqlar üçün unudulmaz anlar vəd edən rəngarəng xüsusi zonaların fəaliyyət göstərməsi planlaşdırılır. Ərazidə yerləşəcək futbol və basketbol meydançaları, yürüş zolaqları qonaqlara dağ mənzərələri fonunda fəal istirahət imkanı təqdim edəcək.

Eyni zamanda, Kompleksdə işgüzar görüşlər, konfranslar və müxtəlif təyinatlı tədbirlərin təşkili üçün müasir texniki avadanlıqla təchiz ediləcək teatral üslubda 90 nəfərlik konfrans zalı yaradılacaq.



Kompleks fəaliyyətə başladıqdan sonra burada ümumilikdə 300-ə yaxın iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edək ki, bu istirahət mərkəzinin istifadəyə verilməsi bölgədə turizm potensialının möhkəmləndirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına, ümumilikdə sosial-iqtisadi inkişafa böyük töhfə verəcək. Beləliklə, Qafqaz dağlarının ətəyində, sıx meşələrlə əhatələnmiş “Hacıkənd” İstirahət Kompleksi qonaqlara təbiət qoynunda istirahət imkanları təqdim etməklə regionun turizm xəritəsində mühüm yer tutacaq.

***AZƏRTAC***

# Azərbaycan qazı Suriyada təhlükəsizliyə töhfədir

**Azərbaycan qazı ilə istehsal edilən elektrik enerjisi sayəsində Suriya xalqı uzun müddət gözlədiyi işığı əldə edəcək. Nəhayət ki, uzun illər Bəşər Əsəd rejiminin zülmü altında olan suriyalılar öz problemlərini həll edə biləcəklər. Bu kontekstdə hesab edirəm ki, Azərbaycan qazının Suriyaya tədarükü mühüm humanitar addım və regionun enerji təhlükəsizliyinə töhfədir.**



Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz bu bəyanatla avqustun 20-də “SOCAR Türkiye” şirkəti və Yaxın Şərq Universitetinin (ODTÜ) səyləri ilə həyata keçirilən “Cib kitabları” sosial layihəsinin Ankarada təşkil edilən təqdimat mərasimində çıxış edib.

C.Yılmazın sözlərinə görə, Azərbaycan qazının Suriyaya nəqlinin başlanması Ankara ilə Bakının sıx əməkdaşlığı və koordinasiyası sayəsində mümkün olub. O, Türkiyə və Azərbaycanın, habelə bütün regionun tərəqqisində əhəmiyyətli rola malik olan iki qardaş ölkənin əməkdaşlığını enerji təhlükəsizliyinin təmin edilməsində “kritik əlamətdar amil” adlandırıb.

Türkiyənin vitse-prezidenti Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Trans–Anadolu (TANAP) kimi layihələrin əhəmiyyətini də vurğulayıb.

C.Yılmaz diqqətə çatdırıb ki, SOCAR-ın Türkiyəyə investisiyalarının həcmi 18 milyard dollardan çoxdur. Bu, Azərbaycan şirkətinə Türkiyə iqtisadiyyatına sərmayə qoyan xarici investorlar arasında lider mövqeyinə çıxmaq imkanı verib.

C.Yılmaz bildirib ki, “SOCAR Türkiye” şirkəti Türkiyənin neft-kimya kompleksinə əlavə 7 milyard dollar sərmayə qoymaq imkanlarını nəzərdən keçirir. “Ümidvaram ki, bu layihə mümkün qədər tez həyata keçiriləcək. Bu cür təşəbbüslər xarici ticarət kəsirinin azaldılması və ölkəmizin makroiqtisadi sabitliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir”, – deyə C.Yılmaz bildirib.

Türkiyənin vitse-prezidenti bəyan edib ki, “SOCAR Türkiye”nin inkişafı Türkiyə hökumətinin 2053-cü ilə qədər atmosferə zərərli qaz emissiyalarını sıfıra endirmək planlarına uyğundur.

O, elektrik enerjisi nəqlinin artırılmasını Ankara ilə Bakı arasında əməkdaşlığa doğru daha bir strateji addım adlandırıb.

Türkiyəli siyasətçi “SOCAR Türkiye” və ODTÜ-nün sosialyönümlü yeni layihəsini alqışlayıb və bu təşəbbüsü Türkiyədə mədəniyyət və savadlılığın artırılmasına mühüm töhfə kimi xarakterizə edib.

Təqdimat mərasimində “SOCAR Türkiye” şirkətinin baş direktoru Elçin İbadov və ODTÜ-nün rektoru Ahmet Yozqatlıgil da çıxış ediblər.

***XQ***

# XİN məlumat verir







**Avqustun 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İspaniya Krallığının xarici işlər, Avropa İttifaqı və əməkdaşlıq naziri Xose Manuel Albares Bueno arasında telefon danışığı aparılıb.**

İspaniyanın xarici işlər naziri Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Telefon danışığı zamanı, Azərbaycan-İspaniya və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin cari vəziyyəti və perspektivləri müzakirə olunub. İqtisadi-ticarət, energetika, turizm, humanitar və təhsil sahələrində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. İspaniyanın Baş nazirinin COP29 çərçivəsində Azərbaycana səfəri məmnunluqla xatırlanıb.

2024-cü ildə Xarici İşlər nazirlikləri arasında təşkil olunmuş siyasi məsləhətləşmələrin davamı olaraq, yaxın vaxtlarda Bakıda keçiriləcək növbəti siyasi məsləhətləşmələrə hazırlıq işləri görüldüyü bildirilib.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ilə kiprli həmkarı Konstantinos Kombos arasında da telefon danışığı aparılıb.**

Kiprin xarici işlər naziri Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Telefon danışığı zamanı Kiprin 2026-cı ilin ilk yarısında Avropa İttifaqı Şurasına Prezidentliyi çərçivəsində planlar, habelə regional məsələlər müzakirə olunub. Kiprin Aİ sədrliyi dövründə bölgəmizdə sülh prosesinə töhfə verməyə hazır olduğu bildirilib.

***XQ***

# Zəngəzur dəhlizinin dünya üçün önəmi

**Zəngəzur dəhlizinin açılması Türkiyə, Türk dünyası və bütün dünya birliyi üçün xüsusi əhəmiyyət kəsb edir. İndiki mərhələdə ayrı-ayrı şirkətlər və ümumilikdə dövlətlərin gələcəkdə bu marşrutdan istifadə etmək istədikləri zaman seçici yanaşma ilə qarşılaşmaması üçün bu marşrutun işləmə mexanizminin bütün detallarının işlənib hazırlanması çox vacibdir.**

Bu sözləri AZƏRTAC-ın müxbirinin sualını cavablandıran Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Destici deyib.

Siyasətçi deyib: “Bəs dəhlizi idarə edəcək şirkət nə vaxtsa hər hansı ölkədən gələn yükləri məhdudlaşdırmağa və ya tamamilə bloklamağa çalışsa necə olacaq? Məhz bu səbəbdən Bakı, Ankara və ya hər hansı digər tərəfin maraqlarının tam təmin edilməsi üçün Zəngəzur dəhlizinin iş rejimi ilə bağlı bütün detalları əvvəlcədən razılaşdırmaq vacibdir”.



BBP rəhbəri ABŞ Prezidenti Donald Trampın administrasiyasının Azərbaycanla bağlı məhdudiyyətləri aradan qaldırmaq qərarına da münasibət bildirib və onu alqışlayıb: “Türkiyə və Azərbaycan iki müstəqil dövlət olsalar da, biz vahid xalqın parçasıyıq. Azərbaycanın sevinci bizim də qəlbimizdə əks-səda verir”.

Destici Ermənistan və onun havadarları tərəfindən Azərbaycan torpaqlarının uzunmüddətli işğalı illərində törədilmiş cinayətləri unutmamağa çağıraraq bildirib ki, cəmi bir neçə milyon əhalisi olan kiçik dövlət qonşu ölkənin bir hissəsini ələ keçirə bilməyəcək.

“Nəhayət, İrəvanın hazırkı rəhbərliyi qonşu dövlətlərə qarşı təxribat xarakterli addımlardan və aqressiv ritorikadan əl çəkərək Azərbaycan və Türkiyənin gücünü dərk edir. Bu, həmçinin 1915-ci il hadisələri, Türkiyə və Azərbaycan bayraqlarının yandırılması ilə bağlı hərəkətlərə aiddir”, - deyə siyasətçi bildirib. O, Cənubi Qafqazın gündəmində olan bütün məsələlərin regiondankənar aktorların iştirakı olmadan həll edilməsini ideal variant adlandırıb.

# Hərbi Prokurorluqda “962” Etimad xətti yaradılıb

**Baş prokurorun tapşırıq və tövsiyələri əsasında Hərbi prokurorun təşəbbüsü və rəhbərliyi ilə Hərbi Prokurorluqda aparılan köklü və intensiv islahatlar çərçivəsində "962" Etimad xətti yaradılıb.**



Məqsəd Silahlı Qüvvələrdə korrupsiyaya qarşı mübarizə və ona şərait yaradan halların aradan qaldırılmasını, şəffaflığın artırılmasını, eləcə də müraciət imkanının asanlaşdırılmasını təmin etməkdir.

Hərbi Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, operativliyin təmin edilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə səs yazıları qeydə alınacaq və xətt fasiləsiz fəaliyyət göstərəcək. Müraciətlərin qeydə alınması və cavablandırılması respublikanın istənilən regionundan stasionar telefonlar, eləcə də mobil operatorlar vasitəsilə ödənişsiz həyata keçiriləcək.

***XQ***

# Parisin yanlış yoldan dönməkliyi

(əvvəli 1-ci səhifədə)

Azərbaycan enerji resursları baxımından Avropanın strateji tərəfdaşı olaraq Cənubi Qafqazın və Xəzər regionunun geosiyasi mərkəzlərindən birinə çevrilib. Xüsusilə, son illər Avropa İttifaqı Rusiyadan enerji asılılığını azaltmaq üçün regiona xüsusi diqqət ayırır. Bakıdan Avropaya yönələn qaz tranziti TANAP və TAP layihələri vasitəsilə həyata keçirilir və bu layihələr Avropanın enerji marşrutlarını diversifikasiya etməsində əsas sütunlardan birinə çevrilib.

Fransanın Bakıya diplomatik fəallığını artırması ilə Paris açıq şəkildə Avropaya siqnal verir: “Biz enerji təhlükəsizliyində, strateji tərəfdaşlıqda və regiondakı balansın qorunmasında daha aktiv rol oynayacağıq”. Azərbaycan nefti və qazının idxalının bərpası Avropanın enerji şəbəkəsində strateji mövqeyin möhkəmləndirilməsi və diversifikasiya siyasətinin real həyatda tətbiqidir.

Fransanın bu addımı, eyni zamanda, Aİ-nin Rusiyaya tətbiq etdiyi sanksiyaların effektivliyini gücləndirir. Əgər Avropa Rusiyadan asılılığı azaldaraq alternativ enerji mənbələrinə yönəlirsə, Azərbaycan burada əsas tədarükçü və tranzit ölkə rolunu oynayır. Fransa üçün isə bu, Avropa siyasətində strateji oyunçu mövqeyini gücləndirmək, regionda nüfuzunu artırmaq və enerji diplomatiyasından siyasi alət kimi istifadə etmək deməkdir.

Burada əsas sual yaranır: Azərbaycan bu strateji mövqeyini maksimum faydaya necə çevirə bilər? Bakı enerji tranzitini həm iqtisadi, həm də diplomatik üstünlük üçün istifadə edərək Avropa siyasətində və qlobal enerji arenasında öz təsirini artırmaq imkanına malikdir. Eyni zamanda, Fransanın fəallığı Azərbaycan üçün digər regional oyunçularla –Rusiya, Türkiyə, Ermənistan – münasibətləri balanslaşdırmaq və diplomatik manevr imkanlarını genişləndirmək üçün əlavə imkanlar yaradır.

Məhz bu baxımdan, Aİ kontekstində Fransa–Azərbaycan əməkdaşlığı yalnız enerji məsələsi ilə məhdudlaşmır; o, həm də geosiyasi strategiya, regional balans və qlobal diplomatik manevr alətidir. Burada görünən mənzərə onu göstərir ki, Bakı yalnız enerji resursları ilə Avropaya xidmət etmir, eyni zamanda, Avropanın strateji maraqlarında aktiv iştirak edərək regional və qlobal təsir imkanlarını genişləndirir.

***

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanan üçtərəfli bəyannamə Cənubi Qafqazın geosiyasi mənzərəsini yenidən tərtib etdi. Sülh sənədinin sürətli paraflanması Tramp administrasiyasının təşəbbüskarlığı sayəsində mümkün oldu və ABŞ-ın regiondakı rolunu gücləndirdi. Eyni zamanda, bu yeni diplomatik dinamika Fransa üçün uzun illər ərzində qoruduğu nüfuzun geriləməsi ilə nəticələndi. ATƏT-in Minsk qrupunun fəaliyyətsizləşməsi Parisin Cənubi Qafqazdakı təsir dairəsinin azaldığını açıq şəkildə göstərdi və Fransa üçün yeni strategiyaların formalaşdırılmasını labüd etdi.

Vəziyyət bir neçə əsas aspekti ortaya qoyur. İlk növbədə, ABŞ-ın vasitəçiliyi ilə sürətlə irəliləyən proses Parisin sülh və danışıqlar üzərindəki əvvəllər mövcud olan üstünlüyünü zəiflətdi. Tramp administrasiyasının sülhə praqmatik yanaşması və sürətli diplomatik manevrləri Fransa üçün regiondakı mövqeyin bərpasını çətinləşdirən bir faktordur. Burada yeni sual yaranır: Fransa ABŞ vasitəçiliyi fonunda öz strateji maraqlarını necə qoruyacaq? Cavab Parisin diplomatik çevikliyindən, regiondakı oyunçularla balanslı münasibətlər qurmaq qabiliyyətindən və Azərbaycanın maraqları ilə sinxron hərəkət etmək bacarığından asılıdır.






Fransa üçün ikinci strateji çağırış Avropa prioritetlərini Cənubi Qafqazda qorumaqdır. Enerji təhlükəsizliyi, ticarət və investisiya imkanları, həmçinin Avropanın regional geosiyasi təsiri Parisin siyasətində əsas elementlər olaraq qalır. Bakı ilə əməkdaşlıq Fransanın Avropadakı mövqeyini gücləndirmək və enerji tranzitini strateji alət kimi istifadə etmək üçün imkanlara yol açır. Bu isə, eyni zamanda, ABŞ-ın təşəbbüskarlığı ilə sinxron hərəkət edərkən Parisin maraqlarını qorumağa xidmət edir.

Regiondakı digər oyunçuların davranışı da strateji təhlilin ayrılmaz hissəsidir. Rusiya üçün bu yeni dinamika diqqətlə izlənilməli bir çağırışdır. Minsk qrupunun fəaliyyətsizliyi və ABŞ-ın vasitəçilik təşəbbüsləri Moskva üçün strateji mənfi təsir yaratdı. Uzun illər boyu Cənubi Qafqazda dominant rola malik olan Rusiya indi Parisin fəallaşmasını və Azərbaycanın Avropa aktorları ilə əməkdaşlıq perspektivlərini ciddi şəkildə qiymətləndirməlidir. Vəziyyət Moskvanın regiondakı diplomatik manevrlərini daha ehtiyatlı və hədəfli etməsini tələb edir. ABŞ-ın vasitəçiliyi, xüsusən də Vaşinqton bəyannaməsi Rusiyanın Qarabağ və regionda təsir dairəsini balanslaşdırmaq imkanlarını məhdudlaşdırdı.

Türkiyə və Azərbaycan arasındakı möhkəm enerji və hərbi əlaqələr Parisin diplomatik planlarını mürəkkəbləşdirsə də, eyni zamanda, Fransa üçün əlavə manevr və strateji əməkdaşlıq imkanları yaradır. Ermənistan isə bu yeni fəallıq fonunda daha həssas vəziyyətlə üzləşir. Fransa uzun illər ərzində tarixi və diaspor təzyiqləri nəticəsində açıq şəkildə ermənipərəst mövqe nümayiş etdirib. Bu isə Azərbaycana qarşı qərəzli siyasətin formalaşmasına səbəb olub. İndi Parisin Bakı ilə diplomatik fəallığı İrəvan üçün əlavə təzyiq və manevr məhdudiyyəti deməkdir. Ermənistanın mövqeyi ABŞ-ın vasitəçiliyi və Fransa–Azərbaycan əməkdaşlığının genişlənməsi fonunda balanssızlaşır ki, bu da diplomatik reaksiyaları daha həssas və strateji planlaşdırmaya bağlı edir.

Məhz bu kontekstdə Fransa üçün əsas strateji hədəf belə formalaşır: ABŞ ilə sinxronlaşaraq regionda nüfuzunu bərpa etmək, Azərbaycanın strateji maraqları ilə uyğun diplomatik platforma qurmaq və regional balansı qoruyaraq hər bir oyunçunun reaksiyasını öz xeyrinə yönləndirmək. Bakı üçün əsas vəzifə Fransanın fəallaşmasından maksimum strateji fayda əldə etmək, enerji tranzitini diplomatik alət kimi istifadə etmək və regional manevr imkanlarını genişləndirməkdir.

Hərtərəfli təhlil göstərir ki, Vaşinqton razılaşması yalnız sülh prosesinin sürətlənməsi ilə deyil, həm də Cənubi Qafqazdakı geosiyasi balansın yenidən qurulması ilə bağlıdır. Əsas sual belə formalaşır: Fransa və Azərbaycan bu yeni diplomatiyanın açdığı imkanları strateji üstünlüyə çevirə, regional təsir dairəsini uzunmüddətli perspektivdə möhkəmləndirə biləcəklərmi? Cavab yalnız diplomatik çevikliyə deyil, həm də uzunmüddətli geosiyasi planlaşdırma və regiondakı dinamikanın dəqiq analizinə bağlıdır.

***.

Fransa–Azərbaycan əməkdaşlığının fəallaşması Parisin Avropada enerji təminatındakı mövqeyini gücləndirməklə yanaşı, Azərbaycan üçün də strateji seçimləri genişləndirir. Bakı bu yeni reallıqdan istifadə edərək, Aİ və ABŞ ilə əlaqələrini balanslı şəkildə inkişaf etdirə, enerji tranzitini diplomatik və iqtisadi üstünlük kimi yönləndirə, eləcə də regional rəqiblərin siyasətini nəzərə almaqla çevik manevr edə bilər.

Görünən odur ki, Paris Cənubi Qafqazda aktiv iştirakını artırır və regiondakı maraqlarını yenidən formalaşdırır. Tarixi dönüş həm Paris, həm də Bakı üçün yeni diplomatik oyun meydanı açır. Azərbaycan üçün əsas çağırış bu imkanları yalnız mövcud əməkdaşlıq çərçivəsində deyil, uzunmüddətli strateji baxışla istifadə etməkdir.

Buradan çıxan əsas nəticə belədir: Azərbaycanın diplomatik uğuru enerji və siyasi resurslarını bir–birinə inteqrasiya etməsindən, regional və qlobal aktorların davranışlarını dəqiq proqnozlaşdırmasından və strateji planlaşdırmanı davamlı şəkildə həyata keçirməsindən asılı olacaq. Yaranmış yeni geosiyasi reallıq Bakıya yalnız iqtisadi fayda deyil, həm də regionda dayanıqlı nüfuz və Avropa ilə balanslı, çevik diplomatiya aparmaq imkanı verir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Ter-Petrosyan revanşistlərin yarğanına yuvarlanıb

## *Sabiq prezidentin yeni iddiaları bunun aşkar göstəricisidir*

**Ermənistanın birinci prezidenti, uzun illər özünü Qarabağ məsələsinin həllində Azərbaycanla dil tapmağa çalışan, habelə Türkiyə ilə münasibətləri yaxşılaşdırmağa cəhd edən siyasətçi kimi göstərən Levon Ter-Petrosyan son illərdə əsl simasını nümayiş etdirir. Onun son açıqlamaları əvvəlki ritorikası ilə kəskin ziddiyyət təşkil edir. Əvvəllər kompromis tərəfdarı kimi çıxış edən, daha doğrusu, bunun imitasiyası ilə məşğul olan Ter-Petrosyan hazırda daha çox revanşist dairələrin mövqeyinə yaxın mövqe sərgiləyir. Bir vaxtlar “sülh tərəfdarı” imici ilə tanınan sabiq prezident indi populist çağırışlarla gündəmdə qalmağa çalışır. Nəticədə onun sözlərinin real siyasi çəkisi azalır və verdiyi bəyanatlar yalnız radikal qrupların rəğbətini qazanır.**



Bugünlərdə “İlur.am” saytında Ter-Petrosyanın “Nikol Paşinyan Ermənistanın daxili siyasi həyatında sabitliyi pozan əsas amildir” sərlövhəli məqaləsi yerləşdirilib. O, məqalədə bildirib ki, N.Paşinyan daxili siyasi həyatın sabitliyini pozan əsas amildir. Xalqı konsolidasiyaya deyil, cəmiyyəti parçalamağa yönəlmiş siyasət yürüdür: “Dəli olmayan istənilən dövlətin başçısı ilk növbədə öz ölkəsində sabitlik yaratmağa çalışır. Təbii ki, həqiqətən də dəli liderlər (Qəddafi, Səddam Hüseyn və başqaları) var ki, onlar istəmədən və ya bilərəkdən bu imperativin əksinə olaraq, özləri qeyri-sabitlik yaradırlar. Bəs ölkəmizdə nə baş verir? Son vaxtlar Nikol Paşinyan Ermənistanda sığınacaq tapmış yüz mindən çox (?) “Artsax” sakininin ədalətli tələblərinə məzəmmət, təhqir və bəzən vulqar ifadələrlə cavab verir. Sonuncular ümidsizcəsinə yüzlərlə qapını döyürlər, lakin istək və tələblərinə layiqli cavab tapmayıb etirazlarını kütləvi nümayişlər, oturaq aksiyalar, mitinqlər, küçələrin bağlanması və sair üsullarla bildirməyə məcbur olurlar”.

Sabiq prezident xatırladıb ki, oxşar vəziyyət 1990-cı illərdə Sumqayıt, Gəncə (Ter-Petrosyan “Kirovabad” yazır–S.H.) və xüsusilə Bakıdakı “talanlardan” sonra “Ermənistana pənah gətirmiş yüz minlərlə erməni qaçqının” məsələsində də yaranıbmış. Onun sözlərinə görə, həmin vaxt hakimiyyət Vladimir Movsisyanın rəhbərlik etdiyi “Ermənistan Respublikasının xüsusi proqramlar üzrə Dövlət İdarəsi”ni yaratmaqla həll yolu tapıb: “Yeri gəlmişkən, 2023-cü ildən sonra Samvel Babayan belə bir struktur yaratmaq təklifi ilə Paşinyana müraciət etsə də, sonuncu bu təklifi rədd edib. Beləliklə, Paşinyan və onun komanda yoldaşları bu cür işlək strukturun yaradılması ideyasından imtina edərək, atdıqları addımların səmərəsizliyini aqressiv ritorika ilə ört-basdır etməyə məcbur olurlar. Halbuki bu aktual problemlərin həllini peşəkar məmurlardan ibarət xüsusi quruma həvalə etmək olar ki, onun da müstəsna məsuliyyəti koordinasiyalı fəaliyyət və “Artsax” ermənilərinin ədalətli tələblərinin təmin edilməsi olacaq”.

Ter-Petrosyan yazıb ki, bununla o, mahiyyət etibarilə, “Artsax” erməniləri ni sakitləşdirmir, əksinə, onları etirazları davam etdirməyə və gücləndirməyə sövq edir, qeyri-stabilliyi daha da dərinləşdirir: “Yada salmaq yerinə düşər ki, bu, Paşinyanın yeganə bədbəxtliyi deyil. O, həmçinin erməni kilsəsinə qarşı oxşar bağışlanmaz və təhlükəli avantüra nümayiş etdirdi, lakin bu, güclü milli müxalifətə görə dayandırıldı. Nəticədə, o, ən azı müvəqqəti olaraq kilsəyə qarşı bölücü kampaniyasını dayandırmağa məcbur oldu. Paşinyanın növbəti təxribatçı addımı “Ermənistan Elektrik Şəbəkəsi”nin milliləşdirilməsi üzrə konstitusiyaya zidd təşəbbüs və Samvel Karapetyana qarşı qanunsuz cəza tədbiri olub ki, bu da ölkəmizin son dərəcə ehtiyac duyduğu sabitliyin bərqərar olmasına xələl gətirən amillərdən biridir. Bir sözlə, Paşinyanın qəbul etdiyi təkəbbürlü iş üslubu həqiqətən də millətimizin çox ehtiyac duyduğu birləşməyə deyil, yalnız parçalanmağa yönəlib”.

***

Qeyd edək ki, Ter-Petrosyan hələ 1990-cı illərdə siyasətə qədəm qoyduğu vaxtdan ölkədə ziddiyyətli fiqur olub. O, bir tərəfdən, beynəlxalq ictimaiyyətə özünü Azərbaycanla kompromis axtarışında olan lider kimi təqdim edir, digər tərəfdən isə, cəmiyyətin həssas mövzularından bəhrələnərək siyasi mübarizədə üstünlük qazanmağa çalışırdı. 1997-ci ilin sentyabrında İrəvanda keçirdiyi nadir mətbuat konfranslarından birində Qarabağ məsələsində Azərbaycanla razılığa gəlməyin vacibliyi barədə səsləndirdiyi fikirlər onun barış tərəfdarı kimi tanınmasına gətirib çıxarmışdı. Habelə Türkiyə ilə münasibətlərin normallaşdırılması yönündə də müəyyən təşəbbüslərlə çıxış etmişdi. Onun həmin mətbuat konfransında açıq və səmimi danışması, Qarabağ separatçılarının münaqişənin paket həll variantını rədd edəcəyi halda Ermənistanın mərhələli həll yoluna meyilli ola biləcəyinə dair eyhamı 1998-ci ilin fevral ayının əvvəlində Ter-Petrosyanın istefası ilə yekunlaşan siyasi böhrana davamlı sürüşmənin əlaməti oldu. O zaman Ter-Petrosyan Cənubi Qafqazdakı siyasi və iqtisadi tendensiyalara ayıq realist baxış sərgiləmişdi. Demişdi ki, kasıb Ermənistan gec-tez neft-qaz ehtiyatları ilə zəngin Azərbaycanla toqquşmalı olacaq. Bildirmişdi ki, müharibədəki (Birinci Qarabağ müharibəsindən söhbət gedir–S.H.) qələbə İrəvana həm Qarabağın təhlükəsizliyini, həm də Ermənistanın siyasi və iqtisadi rifahını təmin edəcək sövdələşmə bağlamaq imkanı verib. Ermənistan qoşunlarının Qarabağdan kənarda işğal olunmuş ərazilərdən çıxarılması ilə başlayan addım-addım yanaşma uzunmüddətli həllə gətirib çıxara biləcək qarşılıqlı etimad yaradar. Mahiyyət etibarı ilə o, ermənilərə bildirdi ki, onlar Qarabağın de-yure Azərbaycanın tərkibində olacağını, azərbaycanlılar isə Qarabağ ermənilərinin faktiki olaraq tam özünüidarəyə malik olacağını qəbul etməli olacaqlar. Ter-Petrosyanın Azərbaycan üçün də böyük ölçüdə məqbul olan kompromisə doğru addımını Qarabağın Bakıya “şaquli tabeçiliyi” kimi şərh edən separatçı hökumətlə rəsmi İrəvan arasında münasibətlərdə fasilə yarandı. Ermənistanda 1997-ci ilin sonu və 1998-ci ilin əvvəllərində gərgin hökumətdaxili mübarizə gedirdi. Separatçı rejim Ter-Petrosyanın təkliflərini rədd etdikdən sonra hökumət və parlamentdəki bir çox əsas müttəfiqləri onu tərk etdilər. Ter-Petrosyan güclü müdafiə və daxili təhlükəsizlik nazirləri ilə qarşıdurma riskinə düşməkdənsə, istefa vermək qərarına gəldi. Bir neçə həftə sonra Ermənistanın prezidenti seçilən separatçı rejimin keçmiş başçısı (Ermənistanın o vaxtkı baş naziri) Robert Koçaryanın rəhbərliyi altında yeni hökumət quruldu. Demək olar ki, Ermənistan hökuməti dərhal Qarabağ məsələsində daha sərt mövqe tutdu.

Həmin dövrdən etibarən Ter-Petrosyanın Qarabağ klanı ilə münasibətləri gərgin olaraq qalırdı. Bu gərginlikdə 2008-ci il prezident seçkilərində Levonun qələbəsinin oğurlanmasının da böyük payı var idi. Lakin son illərdə onun çıxışlarında tamamilə başqa bir mənzərə müşahidə olunur. Ter-Petrosyan artıq özünü “sülhün tərəfdarı” kimi yox, daxili narazılıqları körükləyən, revanşist dairələrə yaxınlaşan siyasətçi kimi təqdim edir. Onun yazmış olduğu məqalə bunun bariz nümunəsidir. O, Paşinyanı Ermənistanın daxili sabitliyini pozan əsas amil adlandırır və hökumətin “qaçqınlar”la bağlı siyasətini sərt tənqid edir. 1990-cı illərdə Azərbaycandan Ermənistana köçmüş ermənilərlə bağlı təcrübəni misal gətirir və guya, bu gün də eyni model tətbiq edilməlidir deyir. Amma həmin dövrdəki şərtlər, regionun geosiyasi vəziyyəti və Ermənistanın daxili imkanları ilə indiki şərait arasında ciddi fərqlər var. Əgər 30 il əvvəlki model bugünkü reallığa cavab versəydi, Ermənistan artıq sosial böhranlardan çıxış yolu tapmış olardı.

Ter-Petrosyanın Paşinyanı “xalqı parçalamaqda” ittiham etməsi də siyasi obyektivlikdən uzaqdır. Ermənistanda cəmiyyətin parçalanmasının səbəbi yalnız hazırkı hökumətin mövqeyi deyil, həm də illər boyu formalaşdırılmış yanlış ideoloji təməllərdir. Bu təməllərin yaradıcılarından biri Ter-Petrosyanın özüdür. O, 1990-cı illərdə hakimiyyətə gəldiyi vaxt “Artsax məsələsini” Ermənistanın daxili siyasətinin mərkəzinə çevirdi, bununla da sonrakı bütün siyasi prosesləri gərginlik üzərində qurdu. İndi isə öz səhvlərini unudaraq, məsuliyyəti hazırkı iqtidarın üzərinə atması heç də ciddi siyasətçi mövqeyinə uyğun gəlmir.

Bütün bu arqumentlər göstərir ki, Ter-Petrosyan bu gün artıq konstruktiv siyasətçi kimi çıxış etmir. Onun son açıqlamaları daha çox emosional reaksiya doğurmaq, cəmiyyətdə mövcud narazılıqları dərinləşdirmək və revanşist qüvvələrin mövqeyini gücləndirmək məqsədi daşıyır. Əgər 80 yaşlı siyasətçi doğrudan da Ermənistanın sabitliyini istəyirsə, çıxışlarını təcrübə və bilik üzərində qurmalı, real həll yolları göstərməlidir. Lakin bu baş vermədiyi üçün bir vaxtların “sülh tərəfdarı” hazırda daxili qarşıdurmaları qızışdıran siyasətçi imicini qazanmaqdadır.

**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Levon Ter-Petrosyan məqaləsindən aydın görünür ki, sabiq prezident daha çox şəxsi ambisiyalarını ön plana çıxarır: “O, Paşinyanı “əsas təxribatçı” kimi göstərsə də, əslində, öz dövründə Ermənistanı böhrana sürükləyən qərarlarını xatırlamaq istəmir. 1990-cı illərdə Qarabağ məsələsini həddindən artıq şişirtməsi, Ermənistan iqtisadiyyatını təcridə aparması və cəmiyyəti yanlış gözləntilərə alışdırması bu günün böhranının təməlini qoyub. İndi isə hansısa “qaçqınlar”ın problemlərindən danışaraq məsuliyyəti yalnız hazırkı hakimiyyətin üzərinə yükləməyə çalışır”.



Politoloq dedi ki, Ter-Petrosyan öz səhvlərini etiraf etmək əvəzinə, Paşinyanı günahlandıraraq cəmiyyətdə saxta müqayisələr yaradır. Bu mövqeyi onun səmimiliyini şübhə altına alır və Ermənistanın gələcəyinə dair real baxışının olmadığını göstərir.

*Səxavət HƏMİD*
*XQ*

# İlham Əliyev liderliyi və Trampın Avropa rəhbərlərinə “dərsi”

(əvvəli 1-ci səhifədə)

Bu fikirlərlə mühafizəkar mövqe tutmaq niyyətindən uzağıq. Onu da düşünürük ki, siyasi lider də insandır, onun asudə vaxt keçirmək ixtiyarı, istirahət hüququ var. Amma cənab Tramp da nə dediyinin fərqindədir. Ukraynada müharibə kimi birbaşa Avropaya aidiyyatı olan bir məsələ, böyük təhlükə varkən, Almaniya Kansleri və ya “köhnə qitə”nin hansısa digər lideri çimərlikdə günəşlənmək üçün vaxt tapırsa, deməli, adamın, loru dildə desək, dünya-aləm vecinə deyil və bu, artıq deqredasiyadır. Tam əminliklə vurğulaya bilərik ki, Avropanın hazırkı durumunu xarakterizə etmək üçün ən düzgün ifadə də məhz deqredasiyadır.

Belə bir vəziyyətdə yada Edvard Gibsonun “Roma İmperiyasının tənəzzülü və süqutu” əsərindəki fikirlər düşür. Müəllif bildirirdi ki, Roma öz əxlaqını itirəndə süqut etdi və əxlaqını itirən hər sivilizasiya bu aqibətə məhkumdur. İstər-istəməz Siseronun “xalqlar öz azadlıqlarını xarici düşmənə deyil, daxili əxlaqsızlığa uduzurlar” deyimi də yada düşür, Osvald Şpenqlerin “Qərb artıq qocalıq çağındadır” kəlamı da, Fridrix Nitşeinin “Avropa artıq yorulmuş qocadır, onun dəyərləri çürüyür” düşüncəsi də. Amma daha təsirli fikir yenə Çörçilə məxsusdur. Onun fikrincə, Avropanın faciəsi ondadır ki, qitənin müdrikliyi çox vaxt zəif, ehtirasları isə güclü olub.

Məsələyə mövcud prizmadan yanaşsaq, ənənəvi dəyərlərin daşıyıcısı olan Donald Trampın Ukrayna böhranının müzakirəsi üçün ətrafına topladığı kəsim də ehtirasın müdrikliyə qurban verildiyinin əyani mənzərəsidir. Axı Birləşmiş Ştatlar lideri Fransa prezidenti Emmanuel Makrona necə hörmətlə yanaşsın? İkincini idarə edən avantürizmidir və hər zaman belə olub. Fransa cəmiyyətinin deqredasiyası isə belə avantüristə səs verib onu hakimiyyətə gətirməsidir. Özü də məsələ təkcə Fransa ilə məhdudlaşmır, Avropanın bir çox ölkəsi üçün analoji durumun xarakterik səciyyə daşıdığını söyləmək olar.

***



Elə isə Prezident İlham Əliyevin Prezident Trampın dəvəti ilə avqustun 8-də ABŞ-a işgüzar səfəri fonunda yaşananlara diqqət yetirək. Tam əminliklə deyə bilərik ki, səfər Birləşmiş Ştatlarda Azərbaycan təntənəsinin yaşanması idi. Bu təntənənin müəllifi isə Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı özünün hərəkət və davranışları, mimika və jestikulyasiyaları, dilə gətirdiyi fikirlərin korrektliyi ilə əsl lider olduğunu bir daha sübuta yetirdi. Nəinki sübuta yetirdi, Azərbaycan rəhbəri, eyni zamanda, göstərdi ki, əsl siyasi liderlik dünyanın istənilən gücü qarşısında öz dövlətinin və xalqının maraq və mənafelərini qorumağa imkan verən müstəsna bacarıqdan asılıdır. İlham Əliyev şəxsiyyəti bu mənada varislik örnəyidir. Yada salaq ki, ulu öndər Heydər Əliyev də Prezidentliyi müddətində dünyanın aparıcı gücləri qarşısında ölkəmizin mövqeyini cəsarətlə müdafiə etməyi bacarmışdı. Tam əminliklə vurğulamaq mümkündür ki, bu bacarığın nəticələri bugünkü qüdrətli Azərbaycan modelinin bünövrəsini təşkil edir.

...Təsəvvür edin, D.Tramp Avropa liderlərini ətrafına yığıb onlara sanki dərs keçir. Həmin Tramp Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında hər iki ölkənin hökuməti arasında Anlaşma Memorandumunun imzalanması zamanı qarşısında deyil, yanında əyləşdiyi Prezident İlham Əliyevə xitabən “Xalqınız böyük xalqdır”, “Siz böyük lidersiniz” deyir. Birləşmiş Ştatlar Prezidentinin ölkəmizin başçısına münasibətinin daha parlaq təzahürünə nəzər salaq: “Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm”.

Cənab Trampın xoş sözləri Prezident İlham Əliyevin şəxsində, ümumən, Azərbaycan xalqına ünvanlanıb. Çünki Ağ Ev rəhbəri xalqımızın keçdiyi ağır məşəqqətlərdən agahdır. Məşəqqətlərdən və çətinliklərə sinə gərmək, düşdüyü ağır durumla, işğalla barışmamaq əzmindən də həmçinin. Xalqı formalaşdıran, onu cilalayan, mübarizliyə səsləyən, acı reallıqla barışmasına imkan tanımayan isə liderdir. Hər halda, Tramp bütün bunları bildiyi kimi, Almaniya Kansleri Mertzin günəşlənmə keyfindən də xəbərdardır.

Prezident Tramp Ağ Evdə Prezident İlham Əliyevin yanındaca “Azadlığı Müdafiə Aktı”na 907 saylı düzəlişi ləğv etdi. Bu düzəlişin 1992-ci ildə torpaqlarımızın işğalının yaşandığı bir vaxtda qəbul edildiyi məlumdur. O da məlumdur ki, sənədin ölkəmizə qarşı görünməmiş ədalətsizlik payı var. Dövlətimizin başçısı isə Vaşinqtonda ölkəmizin media nümayəndələrinə müsahibəsində bildirmişdi: “Əlbəttə, eyni zamanda, bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunun məhz öz ofisində mənim iştirakım ilə etmək çox bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi”.

Sonda onu da deyək ki, Prezident İlham Əliyevin diqqətə çatdırdığımız iqtibasdakı fikirləri “907”nin nümayişkəranə ləğvinin böyük siyasi jest mahiyyətini açıqlayır. O jest ki, hazırkı Avropa liderlərinin onu görmək üçün dəridən-qabıqdan çıxdıqları, amma heç nəyə müvəffəq ola bilmədikləri aşkardır. Halbuki, zamanında “köhnə qitə”də Helmut Kohl (Almaniya Kansleri), Fransua Mitteran, Jak Şirak (hər ikisi Fransa Prezidenti) və digər tanınmış liderləri olub. Belə liderlər hazırda yoxdur və ona görə də dünya düşdüyü girdabdan qurtula bilmir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Təzad və narahatlıq

## *İran Prezidentinin Ermənistana səfəri belə təəssürat yaradır*

**İran Prezidenti Məsud Pezeşkianın Ermənistana ilk rəsmi səfəri davam edir. Avqustun 19-da İran–Ermənistan Biznes Forumunun açılış mərasimində iştirak edən M.Pezeşkian Baş nazir Nikol Paşinyan başda olmaqla bir sıra rəsmilərlə görüşüb. Baş nazirin aparatının yaydığı məlumata görə, Nikol Paşinyan Məsud Pezeşkianı öz iqamətgahında qarşılamağa üstünlük verib. Rəsmi mənbələrin verdiyi xəbərlərdə İran Prezidentinin Ermənistana ilk səfərinin avqustun 21-dək davam edəcəyi qeyd olunur.**

Səfər əsnasında Ermənistan və İran əməkdaşlığına dair bir sıra sənədlər – o cümlədən, Ermənistan və İran Xarici İşlər Nazirlikləri arasında 2025-2027-ci illər üçün siyasi məsləhətləşmələr haqqında anlaşma memorandumu, Ermənistan İqtisadiyyat Nazirliyi ilə İranın Standartlaşdırma üzrə Milli Təşkilatı arasında standartlaşdırma, akkreditasiya, uyğunluğun qiymətləndirilməsi və texniki tənzimləmə sahələrində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Oxuculara xatırladaq ki, hələ İrəvana səfərdən öncə Məsud Pezeşkian qonşularla, o cümlədən Türkiyə, Türkmənistan, Azərbaycan, Əfqanıstan, Pakistan və Körfəz ölkələrilə əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışdı. Bu barədə “Mehr” agentliyinin məlumatında bildirilirdi ki, qonşu ölkələrlə münasibətlərin yaxşılaşdırılması daha böyük nailiyyətlərə gətirib çıxara bilər. İran Prezidenti diplomatları bu istiqamətdə daha fəal olmağa çağırıb.

Aydın məsələdir ki, İran Prezidenti Məsud Pezeşkian bu il Bakıya iki səfərində dilə gətirdiklərinin eynisini İrəvanda hayların qarşısında söyləyə, Azərbaycan dilində “Heydərbabaya salam” şeirini səsləndirə bilməzdi. Onun İrəvanda Bakıda verdiyi siyasi bəyanatlardan fərqli, hətta bəzi hallarda burada dediklərinə tərs mütənasib, İranla Ermənistanın mehriban qonşuluq münasibətlərindən, iqtisadi əlaqələrin inkişafından danışması təbii qarşılandı və hamı tərəfindən normal qəbul olundu. Yəni təzad və narahatlıq çalarlarının aşkar sezildiyi İrəvan səfərinin Pezeşkiana heç də zövq və rahatlıq bəxş eləmədiyini deyə bilərik. Amma bu zaman İİR Prezidenti çox güman ki, Ermənistandan dünyaya bəyan etdiklərinin təkcə Bakıda deyil, eyni zamanda, Təbriz və Ərdəbildə də diqqətlə izlənildiyini nəzərə alırdı.

### “Bir nömrəli prioritet sülhdür”

Bəli, İrəvan və Tehran bir sıra sahələrdə əməkdaşlığı dərinləşdirmək niyyətindədir. Ermənistan və İran arasında Prezident Məsud Pezeşkianın başçılıq etdiyi nümayəndə heyətinin İrəvana səfəri çərçivəsində siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair 10 anlaşma memorandumunun imzalanması məhz bu niyyətin reallaşması üçün atılan addımların göstəricisidir. Bu sənədlərin arasında Ermənistan və İranın xarici işlər nazirləri




Ararat Mirzoyan və Abbas Əraqçinin imzaladıqları “2025-2027-ci illər üçün xarici işlər nazirlikləri arasında məsləhətləşmələr planını”, “Standartlaşdırma, yoxlama, uyğunluğun qiymətləndirilməsi, metrologiya və texniki tənzimləmə sahəsində əməkdaşlıq haqqında memorandum”u xüsusi qeyd edilməlidir.

Geniş tərkibdə keçirilən görüşdən sonra Ermənistan Baş naziri və İran Prezidenti mətbuata bəyanatlarla çıxış ediblər..

“Cənubi Qafqazda sülh İran üçün bir nömrəli prioritetdir”. Bunu İran Prezidenti Məsud Pezeşkian mətbuat üçün verdiyi bəyanatında dedi. Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının nəticələrini dəstəklədiyini vurğulayan İran Prezidentinin sözlərinə görə, bölgədə sərhədlərin dəyişməzliyi gözlənilməli, dəyişikliklər isə geosiyasi rəqabətə səbəb ola bilər. Tehranın regionda istənilən gücdən istifadənin əleyhinə olduğunu bildirən Pezeşkian problemlərin həllinə bölgədən kənardakı qüvvələrin cəlb edilməsinin vəziyyəti daha da çətinləşdirəcəyi ilə bağlı mövqeyini təkrarlayıb. Tranzit dəmir yolu, avtomobil və dəniz yollarının inkişafı, ticarətin inkişafı və ümumi azad iqtisadi zonaların yaradılması, bu məqsədlə hər iki ölkənin potensialından istifadə İran və Ermənistan arasında əməkdaşlıq sahələridir və tərəflər bu istiqamətdə konstruktiv dialoq aparırlar. M.Pezeşkian sözlərinə onu da əlavə edib ki, İran Ermənistanla bütün sahələrdə əlaqələri inkişaf etdirməyə və strateji səviyyəyə çatdırmağa çalışır. O, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, energetika, mühəndislik xidmətləri, mədəniyyət və tibb sahələrində yaxşı inkişaf etdiyini bildirib: “Ermənistan baş naziri ilə mənalı danışıqlar apardıq və bu gün sənədlər imzalandı, nəticədə qarşılıqlı səfərlərin əhəmiyyəti də vurğulandı. Biz sərhəd təhlükəsizliyi və turizmin inkişafı məsələlərini də müzakirə etdik. Münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsinin vacibliyini vurğulayaraq və mövcud etimad mühitinə arxalanaraq, xüsusilə iqtisadi sahədə əməkdaşlığın inkişafına çalışırıq”.

“Hər ikimiz razılaşdıq ki, ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək üçün işləməyin vaxtı çatıb”. Bunu Ermənistan Baş naziri Nikol Paşinyan mətbuata açıqlamasında deyib. Onun sözlərinə görə, hökumətlər arasında qurulan fəal və konstruktiv dialoq Ermənistan və İran arasında qardaşlıq münasibətlərinin davamlı inkişafının təminatlarından biridir. Hökumət başçısı İran Prezidentinin səfərinin Ermənistan və İran arasında dostluq münasibətlərinə yeni təkan və keyfiyyət verəcəyinə əminliyini ifadə edib: “Ermənistan və İran xalqları arasında mövcud güclü və qarşılıqlı faydalı tərəfdaşlıq zamanın sınağından şərəflə çıxmış və müəyyən mənada xalqlarımızın tarixi yolunu birləşdirən sıx dostluğa əsaslanır”.



### Culfa–İrəvan dəmir yolu marşrutu reallaşır

Ermənistan və İran Araz çayı üzərində ikinci körpünün tikintisinə dair razılığa gəliblər. Bu barədə İranın rəsmi nümayəndə heyətinin tərkibində İrəvanda səfərdə olan İranın Yollar və şəhərsalma naziri Fərzanə Sadiq “Tasnim” agentliyinə müsahibəsində bildirib. Bundan əvvəl Ermənistan və İran arasında ikinci körpünün tikintisi üzrə layihələndirmə işlərinin başa çatdırıldığı bildirilib. Sadiqin qeyd etdiyi kimi, Noraduzda ikinci körpünün tikintisi, mövcud körpünün yenidən qurulması, sərhəd terminallarının təkmilləşdirilməsi, eləcə də yük maşınları üçün rüsumlara yenidən baxılması ilkin olaraq razılaşdırılıb. “Bu addımlar yükdaşıyanların işini asanlaşdıracaq və tamhüquqlu tranzit paketi formalaşdıracaq. Paket yaxın aylarda tamamlanacaq”, – iranlı nazir bildirib.

Onun sözlərinə görə, dəmir yolu layihələrinə xüsusi diqqət yetirilir. F.Sadiq Fars körfəzini Qara dənizlə birləşdirən dəmir yolu xəttinin strateji əhəmiyyət daşıdığını vurğulayıb: “İranda yol artıq Culfaya çatır və Culfa–İrəvan marşrutu təsdiqlənib. Bundan əlavə, tərəflər hava daşımaları sahəsində memorandum imzalamağa hazırlaşır. Ermənistanın dənizə çıxışı olmadığı nəzərə alınaraq, liman infrastrukturu sahəsində əməkdaşlıq da gündəliyə daxil edilib. Bu məqsədlə İranın cənubundakı Fars körfəzi və Oman dənizi sahillərindəki limanların logistik potensialından istifadə edilməsi planlaşdırılır. Bu təşəbbüslər İran, Ermənistan, Avropa və Şərqi Asiya arasında tranzitin inkişafı üçün möhkəm zəmin yaradacaq”. Onu da əlavə edək ki, İrəvanda Fars körfəzi–Qara dəniz avtomobil və dəmir yolu dəhlizinin inkişafı haqqında saziş də razılaşdırılıb.

Daha əvvəl Ermənistan Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilirdi ki, İrəvan və Tehran Araz çayı üzərindən ikinci körpünün tikintisinin texniki aspektlərini müzakirə etməkdə davam edir. Xatırladaq ki, Araz üzərində yeni körpünün planlaşdırılması işlərinə 2023-cü ilin sonlarında başlanılıb. İrəvan 1995-ci ildə tikilmiş mövcud körpünün yanında paralel ikincinin inşasını da nəzərdə tutur.

### O, bunları deməyə bilməzdi...

Bu arada İİR Prezidentinin İrəvana ilk səfəri ilə bağlı yerli siyasi icmalçılar, politoloqlar maraqlı açıqlamalarla çıxış edirlər. İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin iranşünaslıq kafedrasının müdiri Vardan Voskanyan Məsud Pezeşkiandan sitat gətirib: “İran tərəfi üçüncü qüvvələrin Ermənistan–İran sərhədində mümkün olması ilə bağlı narahatlığını ifadə etməkdə davam edir”. V.Voskanyan İran Prezidentinin “X” sosial şəbəkəsində paylaşımına əsasən qeyd edir ki, İran tərəfində Ermənistanla onun sərhədində üçüncü qüvvələrin peyda olması ilə bağlı narahatlıq hələ də qalmaqdadır. Bununla bağlı iranşünas alim Məsud Pezeşkianın fars dilində bəyanatından sitat gətirib: “Ermənistanın baş naziri ilə görüşdə İran İslam Respublikasının Ermənistanın suverenliyi və ərazi bütövlüyünü qorumağa, eləcə də ölkələrimiz arasında sıx ikitərəfli münasibətləri davam etdirməyə sadiq olduğunu vurğuladım. Ümumi sərhədlərimizin yaxınlığında üçüncü qüvvələrin olması ilə bağlı narahatlığımız tamamilə aradan qaldırılmalıdır”.

Rəsmi Tehranın, daha doğrusu, İranda hakimi-mütləq Ali rəhbərin mövqeyini bəyan etməyə borclu olan M.Pezeşkian bunun ardınca görüşlərdə Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin əsas müzakirə mövzusu olduğunu, birgə inkişaf üçün yeni imkanlar açdığını, həmçinin regional ticarət əlaqələrinin genişləndirilməsi vasitəsi kimi Şərq–Qərb marşrutundan danışıldığını da diqqətə çatdırıb.

İkitərəfli görüşlərdə Məsud Pezeşkianın, həmçinin ABŞ şirkətlərinin regionda mövcudluğundan narahatlığını bildirməsi, Qərbin bölgədə təxribat fəaliyyətini gizlətdiyi keçmiş halları misal göstərərək, danışıqlar prosesində bu məsələnin ciddi şəkildə müzakirə etməsi hay mediasının yaydığı xəbərlərdə yer alır. Bu da təbiidir. İran Prezidenti bu həssas mövzu ilə bağlı rəsmi Tehranın mövqeyini açıqlamaya bilməzdi. Erməni mediasının bunu “səxavətlə” tirajlaması da başadüşüləndir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Dövlət idarəetməsində sinerji və innovativlik



### III MƏQALƏ

## Praktiki yanaşma

Effektiv dövlət idarəçiliyinin hər bir məqamı nəzəri araşdırılmışdır. Ölkədən asılı olaraq gəlinən qənaətlərin nəticəverici tətbiqi, bizim bu mövzudakı məqalələrdə vurğulandığı kimi, yaradıcı münasibət tələb edir. Problemin ən mühüm tərəfini də həmin xüsusiyyət təşkil edir. Hər bir dövlətin təcrübəsi əsasında səmərəli və sinerji yaradan idarəetmə nümunəsi ola bilər. Onu ümumi səviyyədə dövlət idarəçiliyinə "praktiki yanaşma" adlandıra bilərik. Praktiki yanaşma özündə elə məqamları ehtiva edir ki, nəzərdə tutulan idarəetmə modelini birbaşa tətbiq etməyin aydın yolları göstərilir. Bu mərhələdə artıq konkret ölkə üzrə idarəetmənin nəticə verən modelinin tətbiqi uğurlu olmalıdır. Deməli, məmur təbəqəsi mövcud nəzəri modeli mənimsəməklə yanaşı, onun optimal tətbiqini bacarmalıdır. İdarəetmənin həmin mərhələsində "sinergizm" və "sinerji" anlayışları arasındakı fərqi görmək zərurəti meydana gəlir.

## Sinergizm və sinerji

"Sinergizm" və "sinerji" həm məzmunlarına, həm də funksiyalarına görə fərqlənirlər. Sinergizm konkret fəaliyyətdə bütün aspektlərin harmoniyasının (və ya ahəngdarlığının) təşkil edilməsini ifadə edir. Bu anlamda idarəetmədə sinergizm fəaliyyətin hər bir aspektinin bir-birinə uyğun olmasının, ziddiyyət yaratmamasının təşkil olunmasıdır. Onu nəzəri biliklə praktiki tətbiq üsullarının "kəsişmə sahəsi"ndə etmək mümkündür. Yəni ancaq nəzəri və ya yalnız praktiki tərəfi bilmək yetərli deyildir.

Belə alınır ki, məmur nəzəri olaraq sinergizmin idarəetmədə anlamını tam dərk eləməlidir. Bu, başlanğıc şərtdir. Lakin kifayətedici deyildir. Doğrudur, elmdə "sinergizm" adlanan, idarəetmə terminologiyası ilə fəaliyyətin bütün aspektlərinin harmoniyasını ifadə edən faktor əslində prosesdir. Onun statik, hər yerdə və universal kriteriya əsasında faydalı ola biləcək nümunəsi yoxdur. Bu da o deməkdir ki, sinergizmi nəzəri-elmi dərk etmək idarəetmə metodologiyasından birbaşa asılıdır. Məmur idarəetməyə yanaşmasında kreativ və innovativ olmağı bacarmalıdır. Bu, seçilən kadrın intellektual potensialının yüksək olması tələbini ortaya qoyur.

Bununla sinergizmin idarəetmədə kadrlarda hansı peşə keyfiyyətlərinin mövcudluğunu tələb etməsi şərtlərini müəyyən etmək olar. Onlar idarəetməyə müasir metodoloji yanaşmanı, kadrın sinergizm haqqında bilgiləri, idarəetmədə harmoniya yaratmaq qabiliyyətini (psixoloji və feili olaraq) və alınan nəticəni sinerjilik prizmasında qiymətləndirmək bacarığını ehtiva edirlər. Sonuncu faktorun mənasına aydınlıq gətirmək gərəkdir.

Sinergizm fəaliyyətdə harmoniyanı ifadə edirsə, sinerji onun konkret əyaniləşməsinə verilən qiymətdir. Yəni sinerji sinergizm məntiqi ilə həyata keçirilən təşkilati fəaliyyətin birbaşa idarəetmədə harmonik nəticənin alınmasını ifadə edir. Sinerji real və əyani faktor kimi harmoniyanın təzahür forması, onun predmetləşməsidir. Sinerji nəzəri aspektdə müxtəlif fəaliyyət enerjilərinin vahid istiqamətdə fokuslanmasının real görüntüsü kimi də təsəvvür edilə bilər. O, həmin anlamda müxtəlif pozitiv enerjilərin bir-birini gücləndirməsidir. Elə bir səviyyədə və miqyasda (məkan və zamanca) enerjilər bir-birilərinə "dəstək" olub gücləndirirlər ki, sinergizmin başlıca prinsipi – cəmin onu təşkil edən hissələrin toplanmasından artıq olması şərti ödənir. Bu qənaət mücərrəd və spesifik ixtisasa aid anlamdır və onu bu şəkildə praktiki dərk etmək çox çətindir. Ona görə də sadə izahına ehtiyac vardır.

## Sinerji sistemi özündən böyük edə bilir

İdarəetmə sistemi sinergizmlə təşkil olunursa, alınan sinerji həmin sistemi "özündən böyük edir". O anlamda ki, idarəedilən obyekt (və ya sistem) özünü yaradır, yeni nizamlı səviyyəyə qalxır və özünəyetərli hala gəlir. Bu parametrlər sintez halında idarəetmə obyektinin ümumi maraqlara uyğun daha nizamlı səviyyəyə yüksəlməsinə şərait yaradırlar və həmin anlamda sistemi daim yeniləşməyə transformasiya edirlər. Belə bir dinamikanın başlıca xüsusiyyəti şəxsi maraqlara sistemin xeyli dərəcədə "laqeyd" olmasını meydana gətirməklə bağlıdır. Onun fonunda isə sistem olaraq idarəedilən obyekt şəffaflaşır, fəaliyyətində bütövlükdə cəmiyyəti "görə bilir", dövləti maraqları digər maraqlardan üstün tutmağa "həvəsli" olur. Bu cür mühitdə korrupsiyanın imkanları minimuma enir.

Deməli, sinerji müxtəlif enerjilərin harmoniyasının elə formada təzahürüdür ki, ayrı-ayrı tərkib hissələri bütövlükdə sistemə öz maraqlarını diqtə edə bilmir. Obrazlı desək, sistem özü özünü özündən böyük edə bilir. Ölkə miqyasında bu, idarəetmədə milli maraqlara əsaslanan və daim dinamikada olan mühitin formalaşdırılması deməkdir. Onun isə ictimai inklüzivliyi mütləq lazımdır. Cəmiyyətin əksər hissəsi idarəetmənin ölkəni özünü inkişaf etdirən və onu daha nizamlı fəaliyyət səviyyəsinə yüksəldə bilən mütəşəkkil sistem halına gətirə bildiyini qəbul etməlidir.

Cəmiyyətin idarəetmənin vurğulanan yüksək keyfiyyətdə olmasına inancı isə yalnız praktikada yarana bilər. Yəni idarəetmənin sosial mühitə tətbiqi innovativliyi özündə ehtiva etməlidir. İnnovativlik hər hansı nəzəri nəticənin cəmiyyətə tətbiqinin toplum tərəfindən yeni müsbət hal kimi qəbul etməsi ilə bağlı anlayışdır. İnnovasiya yalnız cəmiyyətə tətbiq edilən hər hansı texnoloji və ya başqa xarakterli yeniliyin bütövlükdə ölkə üçün faydalı olmasının təsbiti və bu anlamda etirafıdır.

Buradan idarəetmədə sinergizmə əsaslanan sinerjinin innovativliklə qarşılıqlı əlaqəsinin ictimai ekspertizası zərurəti meydana çıxır. Yalnız elmin və ya kollektivin qiymətəndirməsi ilə kifayətlənmək olmur. Publik inklüziv qəbullanma önəm kəsb edir.

Əlbəttə, vurğulanan özəlliklər avtomatik olaraq dövlət təşkilatlarının idarəetmədə və icrada sinxron fəaliyyət göstərmələrinin praktiki tərəfinin dərki üçün də əhəmiyyəti olan bir faktorun aydınlaşdırılması ehtiyacını yaradır. O da ictimai ekspertizanın təşkili və həyata keçirilməsidir. Özlüyündə mürəkkəb və xeyli dərəcədə mücərrəd olan bu proses əslində idarəetmədə sinerji effektinə nail olmağın praktiki təsdiqidir. Məsələnin bu tərəfinə baxaq.

## İctimai ekspertizanın təşkili

İndi idarəetmə o dərəcədə "insani", "şəxsi" və "fərdi" ilə "kollektivçiliyin" qarşılıqlı əlaqəsindən ibarətdir ki, elmi ekspertiza yetərli sayılmır. Buna görə də xüsusilə, müasir idarəetmədə geniş ictimai və publik ekspert qiymətləndirməsini təklif edirlər. Onun əsasında adekvat nəticə alına biləcəyinə inanırlar.

Bunlarla yanaşı, idarəetməni həyata keçirən məmurun özü idarəetmədə sinerji effektini qiymətləndirə bilər. Burada üstün cəhət ondan ibarətdir ki, sinerji mücərrəd nəticə deyildir – o¸əsas olaraq idarəetmənin praktiki reallaşmasının birbaşa əyaniləşməsi, predmetləşməsidir. Yəni sinerji effektini ilk olaraq kollektiv özü görə bilər.

Ancaq təcrübə göstərir ki, elmi ekspertiza ilə kollektivin özünün qiymətləndirməsi fərqli ola bilir və bəzən ziddiyyət təşkil edir. Məsələn, elmi ekspertiza sinerji effektinin olmadığı qənaətinə gələ bilirsə, kollektiv, xüsusilə də onun idarəedən kəsimi israrla bunun əksini söyləyir. Burada hər bir situasiyada elmi ekspertizanın haqlı olduğunu demək yanlışlıqdır, çünki elm də səhv edir. Kollektivin rəhbərliyinin də "uğurlu olmaq eqoizmi" başadüşüləndir.

Belə alınır ki, cəmiyyətin nəticəni qiymətləndirməsinin təşkilinin özü xüsusi prosedurdur. Burada əngəl ola biləcək dairələr istisna edilmir. Elə işlək monitorinq mexanizmləri hazırlanmalıdır ki, cəmiyyətin idarəetmədə tətbiq edilən innovasiyanı obyektiv qiymətləndirməsi mümkün olsun. Onun elmi üsullarından biri daimi obyektiv ictimai sorğuların keçirilməsinin təşkili ola bilər. Alınan nəticələrin müasir elmi metodlarla təhlili vacibdir. Müxtəlif sorğuların ümumi nəticəsini də müəyyən etmək olar.

## Süni intellekt Strategiyası

Nümunə kimi süni intellektin idarəetməyə tətbiqinin genişləndirilməsinin strategiyasını göstərə bilərik. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il martın 19-da "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamın Preambulasında yazılmışdır ki, sənəd "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə" hazırlanmışdır.

Burada süni intellektin inkişafı birbaşa idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, infrastrukturun əlçatan olması (yəni şəffaflığın təmini) və uyğun kadrların hazırlanması qarşılıqlı əlaqədə təqdim edilmişdir. Sinerji məsələnin bu cür qoyuluşundan yarana bilər. Bu məqam Sərəncamın 3-cü və 4-cü bəndlərindən aydın görünür. Orada yazılmışdır: "3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət orqanlarında (qurumlarında) süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirsin, o cümlədən dövlət orqanlarında (qurumlarında) süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

4. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin".

Deməli, problemin təhlili ilə monitorinqi və qiymətləndirilməsi vahid fəaliyyət sistemi çərçivəsində, konkret Dövlət Xidməti orqanları vasitəsi ilə həyata keçirilməlidir. Bu şərt idarəetmənin müxtəlif aspektlərinin sinergizminin anatomiyasını təşkil edir. Burada məsələnin təhlili ilə gəlinən qənaətlərin yoxlanması (yəni ekspertizası) qarşılıqlı əlaqədə nəzərə alınmışdır.

Sənədin qısa xülasə hissəsində problemin vurğulanan aspekti geniş şəkildə izah edilir. Strategiyada vurğulanır: "Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" (bundan sonra – Strategiya), ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir".

Bu hissədə idarəetmədə sinerji effektinin yaranması kontekstində çox əhəmiyyətli məqamlar vahid məntiqi bucaq altında təqdim edilmişdir. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

– ölkədə süni intellekt üzrə mövcud vəziyyətin təhlili;

– əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planının hazırlanması;

– həmin plan əsasında strateji məqsədlərə və göstəricilərə nail olmağın hədəfləri;

– süni intellekt ekosisteminin formalaşması və onun inkişafı;

– bu problem üzrə dövlət və özəl sektor arasında əməkdaşlığın təmini;

– həmin istiqamətdə akademik və elmi tədqiqatların gücləndirilməsi;

– startap və innovasiya mühitinin dəstəklənməsi.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Rusiyada xaricilərə taksi sürməyi də etibar etmirlər

## *Miqrantlara qarşı ayrı-seçkilik: qanunvericilikdə "təkmilləşmə", yaxud məqsədli məhdudiyyətlər*

**Rusiya Federasiyasında miqrantlara qarşı həyata keçirilən siyasət və qanunvericilik dəyişiklikləri daha sərt və məhdudlaşdırıcı xarakter alıb. Əvvəllər daha çox fərdi hallarda müşahidə olunan inzibati çətinliklər və sosial təzyiqlər bu gün artıq sistemli və dövlət səviyyəsində tətbiq olunan strategiyaya çevrilib. Əmək bazarında, təhsil sistemində, digər sahələrdə həyata keçirilən tədbirlər milyonlarla miqrantın gündəlik həyatına təsir edib, onların fəaliyyət dairəsini məhdudlaşdırıb.**




Bu məhdudiyyətlərin nəzərəçarpan ilk nümunələrindən biri Sankt-Peterburqda xarici vətəndaşların kuryer kimi fəaliyyətinə qoyulan qadağadır. Bu qərar təkcə yerli səviyyədə alınmış inzibati tədbir deyil, əksinə, ölkə miqyasında formalaşan yeni siyasi kursdur. Daha əvvəl oxşar məhdudiyyətlərin taksi fəaliyyəti sahəsində də tətbiq edilməsi bu tendensiyanın lokal deyil, mərkəzləşdirilmiş şəkildə həyata keçirildiyini göstərir.

Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinin verdiyi məlumata əsasən, artıq ölkənin 32 regionunda patentlə işləyən miqrantların kuryer kimi fəaliyyətinə qadağa tətbiq olunub. Volqoqrad, Voronej, Samara, Saratov, Nijni Novqorod, Amur, Kursk, Lipetsk vilayətləri, habelə Krım Respublikası və Saxa (Yakutiya) bu siyahıya daxildir. Eyni zamanda, regionlara rus dili biliyinin və ictimai davranış normalarının yoxlanması məqsədilə kuryer və taksi sürücüləri üçün məcburi sertifikatlaşdırma səlahiyyəti də verilib. Bu tədbirlər, guya, xidmət keyfiyyətinin artırılması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə əsaslandırılır. Əslində, bu, miqrantlara qarşı sərt və selektiv yanaşmanın hüquqi rıçaqları sayılmalıdır.

Bununla yanaşı, müəyyən cinayət əməllərinə görə məhkum olunmuş şəxslərin bu sahələrdə çalışmasına qoyulan qadağalar, ərzaq çatdırılmasında tibbi arayışsız işləyənlərə qarşı inzibati məsuliyyətin sərtləşdirilməsi də bu yanaşmanın davamıdır. Bütün bu tədbirlər miqrantların əmək bazarından sıxışdırılmasına xidmət edir və onların leqal şəkildə işləmək imkanlarını məhdudlaşdırır.

***

Onu da qeyd edək ki, diskriminativ mühitin formalaşdırılması təkcə miqrantlar üçün deyil, Rusiya cəmiyyəti və iqtisadiyyatı üçün də mənfi nəticələr doğuracaq. Leqal iş imkanları məhdudlaşdırılan insanlar qeyri-rəsmi əmək bazarına yönəlməyə məcbur qalacaq ki, bu da işçi kimi hüquqlarının pozulması, sosial təminatsızlıq və vergi itkiləri ilə nəticələnəcək. Eyni zamanda, müəyyən sahələrdə, xüsusilə xidmət və logistik sektorlarında işçi çatışmazlığı problemi yaranacaq. Bu yanaşmanın davamlı şəkildə tətbiqi həm də cəmiyyət daxilində etnik və mədəni parçalanmanı gücləndirəcək, sosial inteqrasiya prosesini əngəlləyəcək.

Deməli, Sankt-Peterburqda qəbul edilən kuryerlik qadağası təkcə lokal təhlükəsizlik tədbiri deyil, miqrantlara qarşı ölkə üzrə həyata keçirilən genişmiqyaslı hüquqi və siyasi strategiyanın bir hissəsidir. Əgər bu yanaşma dəyişməzsə, Rusiya yaxın illərdə həm iqtisadi, həm də sosial baxımdan dərin struktur problemləri ilə üzləşəcək.

Bu fonda təhsil sahəsində baş verən dəyişikliklər xüsusi narahatlıq doğurur. 2025-ci il aprelin 1-dən qüvvəyə minmiş 544-FZ saylı Federal Qanun miqrantların övladları rus dilini bilmədikdə və ölkədə qanuni yaşayıb-yaşamadıqları yoxlanılmadan məktəbə qəbulunu qadağan edir. Qanunun rəsmi əsaslandırılmasında dil baryeri və sosial adaptasiya çətinlikləri göstərilsə də, əsl məqsəd miqrant uşaqlarının təhsil sistemindən sıxışdırılması və cəmiyyətə inteqrasiyasının əngəllənməsidir.

Yeni qanunun tətbiqi nəticəsində bəzi regionlarda miqrant uşaqlarının məktəbə qəbulunda ciddi azalma müşahidə olunur. Nijni Novqorod vilayətində belə müraciətlərin sayı 10 dəfə, Voronejdə isə 7 dəfə azalıb. Kaluqa vilayətində 91 müraciətdən yalnız 36-sı, Sverdlovskda 66-dan 13-ü, Tula vilayətində isə 62-dən 30-u qəbul edilib. Komi Respublikasında 14 müraciətdən yalnız 3-nə müsbət cavab verilib. Krımda isə 10 müraciətdən cəmi 4-ü keçib.

Bu rəqəmlər, sadəcə, təhsil sahəsində statistik azalma kimi qiymətləndirilə bilməz. Onlar, eyni zamanda, minlərlə miqrant uşağın sosial təcridə, gələcəkdə daha dərin inteqrasiya problemlərinə məruz qalacağını göstərir.

2026-cı ilin əvvəlindən Rusiyada miqrantlara qarşı daha bir addım atılacaq. Təhsil orqanları ilə Daxili İşlər Nazirliyi arasında avtomatik məlumat mübadiləsi sistemi işə düşəcək. Bu sistem miqrant uşaqlar və onların ailələri haqqında məlumatların vahid elektron bazada toplanmasını və nəzarətin gücləndirilməsini nəzərdə tutur. Nəticədə, hər bir əcnəbi ailə üzərində daimi inzibati nəzarət formalaşacaq.

Bununla yanaşı, Rusiya Dövlət Dumasına yeni bir qanun layihəsi təqdim olunub. Layihəyə əsasən, azyaşlı əcnəbilərin Rusiyaya yalnız qanuni nümayəndələri və ya notarial qaydada təsdiqlənmiş etibarnaməsi olan şəxslərin müşayiəti ilə daxil olmasına icazə veriləcək. Əks halda, uşaqların ölkəyə buraxılmaması və ya ölkədən deportasiyası nəzərdə tutulur. Bu, Rusiya sərhədlərinin daha sıx qapanmasına, miqrantların ailə modelini pozmağa yönələn addımdır.

***

Ümumiyyətlə, bu qanun və qaydaların hamısı Rusiyada miqrantlara qarşı həyata keçirilən sistemli diskriminasiyanın və sosial təcridin hüquqi platformada formalaşdığını göstərir.

Bu barədə **İnformasiya və Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, Rusiyanın miqrasiya siyasətində son illər atdığı addımlar formal olaraq "ictimai təhlükəsizliyin təmin olunması", "təhsildə keyfiyyətin artırılması" və ya "xidmət sahəsində peşəkarlığın yüksəldilməsi" kimi əsaslandırılsa da, bu tədbirlərin praktik nəticələri tamamilə fərqli mənzərə yaradır: "Kuryerlik və taksi sürücüsü kimi aşağı ixtisas vərdişləri tələb edən iş sahələrində miqrantların fəaliyyətinə qoyulan qadağalar, uşaqların məktəblərə qəbulunda dil və status testləri, ailələrin hər bir addımının texnoloji nəzarətə alınması miqrantların ölkədə qalmasını hüquqi baxımdan çətinləşdirən və onları sosial sistemdən uzaqlaşdıran təzyiq alətləridir. Bir məsələni də qeyd edim ki, bu gün bir çox miqrantlar hüquqları pozulduqda ədalətə çıxış imkanından məhrum edilirlər. Onlar, sadəcə, hüquqi deyil, həm də sosial baxımdan dərin diskriminasiyaya məruz qalırlar. Gündəlik həyatda miqrantlar ksenofobiya ilə üzləşir, övladları isə "yer çatışmazlığı" bəhanəsi ilə ümumtəhsil müəssisələrinə qəbul olunmurlar".



Ekspertin fikrincə, yetkin miqrantlar iş yerlərində hüquq-mühafizə orqanlarının keçirdiyi məqsədli reydlərin hədəfinə çevrilirlər: "Bəzi hallarda hüquq-mühafizə əməkdaşları miqrantları deportasiya ilə təhdid edərək onlardan rüşvət alırlar. Bu isə təkcə insan hüquqlarının pozulması deyil, həm də hüquqi sistemə inamın ciddi zədələnməsidir. Miqrantların yaşadıqları çətinliklər onların cəmiyyətə inteqrasiyasını əngəlləyir, həm də sosial gərginliyi artırır. Bu səbəbdən məsul qurumların və vətəndaş cəmiyyətinin birgə səyləri ilə miqrantların hüquqi müdafiəsinin gücləndirilməsi, ksenofobiyaya qarşı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və ədalətə bərabər çıxış imkanlarının təmin edilməsi zəruridir. Əgər bu kurs davam edərsə, Rusiyada yaşayan milyonlarla miqrant üçün gələcək qeyri-müəyyən olacaq. Onlar gündən-günə hüquqların məhdudlaşdırıldığı, dövlətin dəstəyi əvəzinə təzyiqlə qarşılandığı, sosial təcridin dərinləşdiyi və ayrı-seçkiliyin qanunvericiliklə legitimləşdirildiyi bir mühitdə yaşamağa məcbur olacaqlar. Bu, təkcə miqrantların deyil, bütövlükdə Rusiya cəmiyyətinin sabitliyi və inkişafı üçün də risklidir. Çünki sosial ədalətə söykənməyən sistemlər uzunmüddətli dövrdə dayanıqlı olmur. Diskriminasiya ilə inteqrasiya mümkün deyil. Əgər məqsəd həqiqətən də cəmiyyətin təhlükəsizliyi və rifahıdırsa, bu zaman miqrantları sıxışdırmaq deyil, onları dəstəkləyən və ədalətli şəkildə inteqrasiya edən siyasətə ehtiyac var. Əks halda, hüquqi mexanizmlərlə gizlədilən diskriminasiya gələcəkdə daha böyük sosial parçalanmalara və qarşıdurmalara zəmin yaradacaq".

Doğrudur, miqrasiya siyasəti hər bir ölkənin daxili işidir və milli maraqlar çərçivəsində formalaşdırıla bilər. Lakin bu siyasət bəşəri dəyərlər, insan hüquqları, bərabərlik prinsipləri və beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilməlidir. Əks halda, qanunvericilik adı altında diskriminasiya və ayrı-seçkilik dərinləşəcək, bu isə cəmiyyətin sabitliyi üçün real təhlükəyə çevriləcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Türk Dövlətləri Təşkilatı – qardaş müttəfiqliyindən strateji tərəfdaşlığa




(əvvəli 1-ci səhifədə)

İlkin mərhələdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın iştirakı ilə təsis edilən TDT sonrakı illərdə daha da böyüyüb. 2019-cu ildə Özbəkistan, 2023-cü ildə isə Türkmənistan müşahidəçi kimi təşkilatda yer tutub. Bu prosesi isə türkdilli dövlətlərin vahid strateji xətt üzrə birləşməkdə maraqlı olmaları şərtləndirib. Əslində, genişlənmə təşkilatın təsir imkanlarını artırmaqla yanaşı, regionda siyasi-iqtisadi tarazlığa da yeni məzmun gətirib. Bütün bunlar TDT-nin səmərəli fəaliyyətinin ifadəsi olan müvafiq göstəricilərdə də öz ifadəsini tapıb.

Bu məqamda Dövlət Gömrük Komitəsinin məlumatına əsaslanaraq qeyd edək ki, cari ilin 7 ayında Azərbaycanın TDT üzv ölkələrlə (Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan) xarici ticarət dövriyyəsi 4 milyard 228 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 8,3 faiz çox) təşkil edib. Hesabat dövründə isə respublikamızın bu dövlətlərlə ticarət dövriyyəsi ölkəmizin ümumi ticarət dövriyyəsinin 14,7 faizi həcmində olub.

Qeyd edək ki, 7 ayda Azərbaycanın ticarət dövriyyəsi Türkiyə ilə 3 milyard 384 milyon dollar, Qazaxıstanla 517 milyon dollar, Özbəkistanla 269 milyon dollar, Qırğızıstanla isə 58 milyon dollar təşkil edib. Respublikamızın ümumi ticarət dövriyyəsində Türkiyə ilə 11,7 faiz, Qazaxıstanla 1,8 faiz, Özbəkistanla 0,9 faiz, Qırğızıstanla isə 14,7 faiz olub. Hesabat dövründə Azərbaycan Türkiyəyə 2 milyard 9 milyon dollar, Qazaxıstana 60 milyon dollar, Özbəkistana 35,4 milyon dollar, Qırğızıstana isə 7,5 milyon dollar dəyərində məhsul göndərib. Ölkənin ümumi ixrac həcminə nisbətdə Türkiyə 13,2 faiz, Qazaxıstan 0,4 faiz, Özbəkistan 0,2 faiz, Qırğızıstan isə 0,05 faiz paya malik olub.

Yanvar–iyul aylarında Azərbaycana Türkiyədən 1 milyard 375 milyon, Qazaxıstandan 457 milyon, Özbəkistandan 234 milyon və Qırğızıstandan 50 milyon dollar dəyərində məhsul idxal edilib. Ölkənin ümumi idxalında Türkiyə 10,1faiz, Qazaxıstan 3,4 faiz, Özbəkistan 1,7 faiz, Qırğızıstan isə 0,4 paya malik olub.

Bütün bu göstəricilər deməyə əsas verir ki, Türk dövlətləri strateji dəhlizlər, yüksək ticarət intensivliyi və investisiya dinamikası ilə iqtisadi dayanıqlılıq, artan inteqrasiya və qlobal dəyər zəncirlərində rolunu getdikcə artırır. "Türk Dünyası 2040 Vizyonu" çərçivəsində region dayanıqlı inkişaf, ticarət əlaqələrinin gücləndirilməsi və Avrasiya üzrə birləşdirici rolu artırmaq istiqamətində sadiqliyini nümayiş etdirir.

Bu qurum, eyni zamanda, üzv dövlətlərin iş adamları arasında körpü rolunu oynayır, ticarət əlaqələrinin genişlənməsinə təkan verir. "Türk Dünyası 2040 Vizyonu"nun fəaliyyəti nəticəsində biznes dairələri arasında qarşılıqlı etimadın güclənməsi və ortaq layihələrin reallaşması da müşahidə olunur.

TDT-nin fəaliyyətindən bəhs edərkən bir məsələni də xatırlatmaq istərdik. Belə ki, hər bir üzv dövlətin 100 milyon ABŞ dolları töhfəsi ilə formalaşan Türk İnvestisiya Fondunun əsas məqsədi regional layihələrə dəstək vermək, biznes mühitini stimullaşdırmaq və ortaq iqtisadi güc yaratmaqdır. Fond, həmçinin kiçik və orta sahibkarlığın inkişafına kredit dəstəyi, yeni investisiya layihələrinin maliyyələşdirilməsi və üzv ölkələrin iqtisadiyyatlarında diversifikasiya proseslərinə töhfə vermək üçün mühüm vasitədir. Bu təşəbbüs, eyni zamanda, üzv dövlətlər arasında malların sərbəst və sürətli hərəkətini gerçəkləşdirmək məqsədi daşıyır. Gömrük prosedurlarının sadələşdirilməsi isə ticarət dövriyyəsini sürətləndirir, logistika xərclərini azaldır və Orta Dəhlizin rəqabət qabiliyyətini artırır.

Azərbaycanın təşəbbüsləri və strateji roluna gəldikdə isə qeyd edək ki, respublikamız TDT-nin iqtisadi inteqrasiyasına mühüm töhfələr verir. Xüsusilə son illərdə ölkəmiz üzv dövlətlər arasında nəqliyyat, enerji və investisiya sahələrində əsas platforma kimi çıxış edir. Məsələn, 2024-cü ildə Şuşa Biznes Forumunda Qarabağın iqtisadi potensialı, işğaldan azad edilən ərazilərin beynəlxalq sərmayədarlar üçün cəlbedici imkanlara malik olması barədə ətraflı məlumat verilməsi bunun bariz ifadəsidir. Bu, təkcə Azərbaycan iqtisadiyyatına deyil, həm də TDT çərçivəsində ortaq iqtisadi gündəliyə yeni impuls verməsi baxımından mühüm önəm daşıyır.

Onu da xatırladaq ki, artıq Bakı– Tbilisi–Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı sayəsində ölkəmiz qlobal logistika xəritəsində strateji həlqəyə çevrilib. Bu imkanlar türk dövlətləri arasında inteqrasiyanı gücləndirməklə yanaşı, Avropa ilə Asiya arasındakı ticarət dövriyyəsinin səmərəliyini daha daha da artırıb.

TDT-yə üzv ölkələr arasında iqtisadi əməkdaşlığın gələcək perspektivlərinə gəldikdə isə demək olar ki, bu təşkilatın əsas hədəfi təkcə ortaq iqtisadi güc yaratmaq deyil, həm də qlobal miqyasda türk dövlətlərinin mövqelərini möhkəmləndirməkdir. Hazırda təşkilatın qarşısında vahid enerji bazarının formalaşdırılması, nəqliyyat və logistika dəhlizlərinin rəqəmsallaşdırılması, elm, təhsil və texnologiya sahələrində ortaq proqramların genişləndirilməsi prioritetləri mühüm vəzifələr kimi durur.

Beləliklə, TDT bu gün regional əməkdaşlıq qurumu olmaqla bərabər, həm də qlobal əhəmiyyətli aktora çevrilmək yolundadır. Azərbaycan isə bu prosesin mərkəzində dayanaraq həm təşəbbüskar, həm də inteqrasiya proseslərinin lokomotivi rolunu oynayır. Tarix, mədəniyyət və ənənələr üzərində qurulan bu birliyin gələcəkdə iqtisadi güc mərkəzinə çevriləcəyi şübhəsizdir.

# Regionların innovasiya proqramı yekunlaşıb

## *4 ildə yüksəksürətli internetə qoşulmaların sayı 13 dəfə artaraq 3 milyona çatıb*




**Dünən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və "SUP VC" şirkətinin təşkilatçılığı ilə Azərbaycanın regionlarında keçirilən "İnnostart" layihəsinin "Grand Final" mərasimi keçirilib.**

Layihə çərçivəsində finala yüksələn 17 startapdan (XYZB) startapları ümumi dəyəri 50 min manat olanlar mükafat fonduna layiq görülüblər. "Grand Final" tədbirində dövlət qurumları və özəl təşkilatların nümayəndələri, innovasiya ekspertləri, eləcə də startap təsisçiləri iştirak ediblər.

Mərasimdə açılış nitqi ilə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov son illər Azərbaycanda rəqəmsal infrastruktur quruculuğu sahəsində həyata keçirilən "Onlayn Azərbaycan" layihəsinin innovasiyalar üçün güclü zəmin yaratdığını bildirib. "İnnostart"-la yanaşı, "ecomX", "4ü1arada" kimi təşəbbüslərin də regionlarda innovativ inkişafa təkan verdiyini vurğulayan nazir müavini son 4 ildə ölkədə sabit genişzolaqlı, yüksəksürətli internetə çıxış imkanı yaradılmış təsərrüfatların sayının 13 dəfə artaraq, təxminən, 3 milyona çatdığını bildirib.

Qeyd olunub ki, ötən müddətdə ölkənin sabit genişzolaqlı internetlə əhatəsinin tam təmin edilməsi texnoparkların fəaliyyət imkanlarını texniki cəhətdən genişləndirib. S.Məmmədovun sözlərinə görə, 2025-ci ilin yanvar-avqust aylarında 2-si xarici olmaqla, ümumilikdə, 26 hüquqi şəxsə texnopark rezidentliyi statusu verilib, 8-i xarici olmaqla, ümumilikdə, 144 hüquqi şəxsə texnoparkdan kənar fəaliyyət üçün rezidentlik statusu təqdim olunub. Ölkənin innovasiya ekosistemində geniş miqyaslı işlər görüldüyünü xatırladan nazir müavini daha sonra deyib ki, son illərdə yaradılmış müxtəlif fondlar vasitəsilə, ümumilikdə, 15 milyon dollardan çox kapital formalaşdırılıb, bu fondlar artıq 2,2 milyon dollardan çox sərmayəni regionda fəaliyyət göstərən startaplara yönəldiblər.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov çıxışında rəhbərlik etdiyi qurumun ekosistem quruculuğuna olan yanaşmasının mərkəzində startapların durduğunu diqqətə çatdırıb. Startapların ölkə iqtisadiyyatı üçün əhəmiyyətinə diqqət çəkən agentlik sədri "İnnostart" çərçivəsində əldə edilən uğurlardan danışıb. O bildirib ki, 2024-2025-ci illərdə layihənin əhatə dairəsinin genişləndirilməsi ilə 4 region, 20 şəhər və rayonda innovasiyayönümlü fəaliyyət həyata keçirilib. Layihə çərçivəsində bu il 32 maarifləndirmə tədbiri, 8 hakaton, 8 inkubasiya proqramı, 4 regional "Demo Day" tədbiri baş tutub. Ümumilikdə, bütün tədbirlərdə 2000-dən çox şəxs iştirak edib.

Layihə çərçivəsində təlimçi və mentor hazırlığı proqramının da həyata keçirildiyini bildirən F.Osmanovun sözlərinə görə, bu proqramda 18 yeni mentor yetişdirilib: "Bundan əlavə, mərkəzi icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, dövlət və özəl təşkilatlar, qeyri-hökumət təşkilatları, ali təhsil müəssisələri, peşə təhsili mərkəzləri ilə əməkdaşlıqlar qurulub və regional nümayəndəliklər formalaşdırılıb".

Daha sonra Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini Samir Hümbətov və "SUP VC" şirkətinin icraçı direktoru Rəşad Eyvazov çıxış ediblər.

Mərasim zamanı layihə haqqında ümumi və statistik məlumatları əks etdirən videoçarx nümayiş etdirilib və təqdimat olub. Sonra isə startapların təqdimatları, mentor hazırlığı proqramının məzunları sertifikatlarla təltif edilib. Yekunda "İnnostart" layihəsinin qalibləri elan olunub.

Qeyd edək ki, "İnnostart" Azərbaycanın regionlarında startap ekosistemini gücləndirmək məqsədilə həyata keçirilən layihədir. Layihənin məqsədi bölgələrdəki tələbələrə, gənclərə və bu sahəyə maraq göstərən hər kəsə innovativ ideyalarını inkişaf etdirmək, startap ekosistemi haqqında məlumat vermək, onları uğurlu startaplara çevirməyə dəstək olmaq və yerli icmaların formalaşmasını təşviq etməkdir.

# Meyvə-tərəvəz ixracı ölkəyə 506 milyon dollar qazandırıb

**2025-ci ilin yanvar-iyul aylarında Azərbaycandan 506,4 milyon ABŞ dolları dəyərində 490,6 min ton meyvə-tərəvəz ixrac edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 32 faiz və ya 122,5 milyon dollar, həcmi isə 33,1 faiz və ya 122 min ton artıb. Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin 7 ayında ölkəmizdən xarici bazarlara 383,9 milyon dollar dəyərində 368,6 min ton meyvə-tərəvəz ixrac edilib.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyul aylarında ixrac olunan əsas meyvə-tərəvəz məhsullarının siyahısında pomidor birinci yerdə qərarlaşıb. Hesabat dövründə xarici bazarlara 156,9 milyon dollar dəyərində 143,6 min ton bu növ məhsul göndərilib. Bununla yanaşı, ilin 7 ayında ölkəmizdən 82,5 milyon dollarlıq 11,4 ton meşə fındığı, 38,3 milyon dollarlıq 54,4 min ton alma, 32,9 milyon dollarlıq 45,8 min ton xurma, 28,1 milyon dollarlıq 70,8 min ton kartof, 4,3 milyon dollarlıq 5 min ton nar və digər meyvə-tərəvəz məhsulları ixrac olunub.

Xatırladaq ki, bu ilin yanvar–iyul aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 3,33 faiz, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 24,25 faiz təşkil edib.

# Orta Dəhlizdə "dar boğazlar" olmayacaq

**Qazaxıstanın nəqliyyat naziri Nurlan Sauranbayev dünən keçirdiyi mətbuat konfransında beynəlxalq ekspertlərin hesablamalarına əsaslanaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) səmərəliyini artırmaq üçün "dar boğazlar"ın aradan qaldırılmasına 18 milyard dollar tələb olunduğunu bildirib.**




Nazir Qazaxıstanın öz ərazisində bununla bağlı bütün məsələlərin həll edilməsinə başlandığını vurğulayıb. O, eyni zamanda, əsas və yardımçı yolların modernləşdirilməsi və tikintisininin ilin sonuna qədər başa çatdırılmasını diqqətə çatdırıb. N.Sauranbayev daha sonra bütün bu layihələrin icrasından sonra məsafənin əhəmiyyətli dərəcədə azalacağını da xatırladıb.

Qeyd edək ki, Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə uzanan beynəlxalq nəqliyyat dəhlizi ilə keçən il yük daşımalarının həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə bu göstəricinin 5,2 milyon tona yüksələcəyi proqnozlaşdırılıb ki, bunun da 4,2 milyon tonu marşrutun iştirakçısı olan ölkələrin ərazisindən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yüklərin (96 min TEU), 1,7 milyon tonu isə neftin payına düşəcək. 2027-ci ilə qədər isə marşrutun buraxılış qabiliyyətinin ildə 10 milyon tona çatacağı gözlənilir.

# 7 ayda dənizdən 1,4 milyon ton yük aşırılıb



**2025-ci ilin yanvar–iyul aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 1,3 milyard ABŞ dolları dəyərində 1,4 milyon ton yük daşınıb.**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə bu nəqliyyat vasitəsilə ölkəmizdən 64 milyon dollar dəyərində 112 min ton yük ixrac edilib ki, bu da illik müqayisədə dəyər baxımından 3,4 milyon dollar və ya 5,1 faiz azalma, həcm ifadəsində isə 65,6 min ton və ya 2,2 dəfə artım deməkdir. Eyni zamanda, ilin 7 ayında dəniz nəqliyyatı vasitəsilə Azərbaycana 1,3 milyard ABŞ dolları dəyərində 1,3 milyon ton yük idxal edilib.

# Dövlət Neft Şirkəti xarici sertifikatlaşdırma qurumu ilə memorandum imzalayıb




**Azərbaycan Dövlət Neft Şirkəti ilə İdarəetmə Mühasibləri üzrə Peşəkar Sertifikatlaşdırma Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**

Qeyd olunub ki, memorandum adı çəkilən təşkilatın Londonda yerləşən baş ofisində Neft Şirkətinin vitse-prezidenti Zaur Qurbanov və sertifikatlaşdırma təşkilatının icraçı direktoru Endryu Hardinq tərəfindən imzalanıb.

Sənəd maliyyə və idarəetmə sahələrində bilik və bacarıqların inkişaf etdirilməsi, beynəlxalq standartlara uyğun korporativ idarəetmə və mühasibatlıq praktikasının təşviq olunması, eləcə də Neft Şirkətinin maliyyə funksiyalarının daha da gücləndirilməsi məqsədi daşıyır. Layihə çərçivəsində gələcəkdə birgə təlim proqramlarının təşkili, sertifikatlaşdırma təşəbbüsləri və müvafiq sahələr üzrə təcrübə mübadilələrinin həyata keçirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, dünyada idarəetmə mühasibatlığı üzrə aparıcı peşəkar qurumlardan biri olan İdarəetmə Mühasibləri üzrə Peşəkar Sertifikatlaşdırma Təşkilatı 1919-cu ildə Böyük Britaniyada təsis edilib. Hazırda dünyanın 170-dən çox ölkəsində fəaliyyət göstərən təşkilat maliyyə rəhbərləri və menecerləri üçün yüksəksəviyyəli təlim və sertifikatlaşdırma xidmətləri təqdim edir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Kürəkçay müqaviləsi – 220*

# Rusiya Qarabağ xanlığını necə işğal etmişdi?

## *İbrahimxəlil xanın ailəsinin qətlə yetirilməsinin faciəli tarixçəsi*

220 il əvvəl – 1805-ci il mayın14-də Qarabağ xanlığının Rusiya imperiyasına hədə-qorxu altında birləşdirilməsi dövlətçilik tariximizdə nə qədər faciəli olmuşdusa, çox keçmədən bu izdivaca razı olmuş İbrahimxəlil xanın ailəsi ilə birlikdə məhv edilməsi də bir o qədər amansız qırğın olmuşdu. Rusiyanın ölkəmizə qarşı son təzyiq, təhdid və məlum təyyarə qəzası kimi cinayətləri, istər-istəməz 220 il əvvəlin zorakı işğalını və siyasi terror aktını yada salır.

***Müsahibimiz "Qarabağ" ensiklopediyasının müəllifi, "Şuşa" qəzetinin redaktoru, qeyd edilən tarixin araşdırıcısı Əməkdar jurnalist Vasif Quliyevdir.***

**– Vasif müəllim, İstanbulu ələ keçirib, Qafqazı zəbt edib, Hindistana çıxmaq kimi işğalçılıq planlarını işə salmış qanlı Rusiya imperiyası necə oldu ki, tarixi Azərbaycanın Qarabağ xanlığı kimi güclü feodal dövlətini asanlıqla, necə deyərlər, bir güllə atmadan tərkibinə qatdı? Son tarixi araşdırmalar göstərirki, "könüllü birləşmə" uydurma və riyakar siyasi tamaşadan başqa bir şey deyilmiş.**



– Bu il qeyd etdiyiniz həmin"birləşmə"-ni rəsmiləşdirmiş Kürəkçay müqaviləsinin imzalanmasının 220 illiyi tamam oldu. Bu utanclı tarix dərin ağrı və həqiqətin öz adı ilə çağırılması ələməti ilə yad edildi. Həmin bədnam müqavilənin hansı şəraitdə bağlandığını, tariximizin bu qara səhifəsinin necə yazıldığını aydınlaşdırmaq üçün müstəqillik illərində o zaman Rusiya və Qacar imperiyaları arsındakı münasibətlər daha dərindən araşdırılmağa başladı.

Əvvəllər də az-çox məlum olan həqiqət artıq qəti surətdə təsdiqlənib: 1805-ci ildə Qarabağ xanlığı zorakı təzyiqlər, çıxılmazlıq şəraitində Rusiyaya ilhaq edilib. Bunun işğaldan başqa adı yoxdur. Kürəkçay müqaviləsi əgər "könüllü birləşmə"ni, Qarabağ xanlığının sonrakı müstəqilliyini nəzərdə tuturdusa, niyə çox keçmədən İbrahimxəlil xan ailəsi ilə birlikdə qətlə yetirildi, xanlıq isə ləğv edildi? Bu sualı cavablandırmaq üçün müqavilənin bağlanmasından əvvəlki dövrə qayıtmaq lazımdır.

XIX əsrin əvvəllərində Zaqafqaziyada hadisələr elə sürətlə cərəyan edirdi ki, onları ardıcıl izləmək o qədər də asan deyildi. Cəmi 2 il ərzində dünyaya od püskürən Rusiya imperiyası Car-Balakən camaatını, osetinləri itaətə gətirmiş, Kartli-Kaxetiyada şahzadələrin qiyamlarını yatırmış, sonra da Gəncəni qanlı döyüşlə işğal etmişdi. Növbə Gəncə xanlığı ilə qonşu olan Qarabağ xanlığının idi. Bu strateji ərazi və onun mərkəzi Şuşa qalası İran və Qafqaza doğru genişlənmiş Rusiyanın arasında yerləşirdi. Şuşa İranın Zaqafqaziya açarı, Rusiyanın isə İrana qapısı timsalına gəlmişdi.

Rus generalı Pavel Sisiyanov Qarabağı özünün möhkəm hərbi bazasına çevirmək fikrində idi. Gəncə kimi bir qalanın ələ keçirilməsi isə rus ordusunun Azərbaycanın içərilərinə doğru irəliləməsini xeyli asanlaşdırmışdı. Bütün bunlar İbrahimxəlil xanı daha ehtiyatlı və ayıq olmağa çağırırdı.

1804-cü ilin ilk günlərində Qarabağın siyasi həyatında böyük çaxnaşmalar başladı. İbrahimxəlil xan yenidən siyasi hadisələrin burulğanına düşdü. Gəncənin işğalından heç bir həftə keçməmiş general Sisiyanov Azərbaycanın şimal hakimlərinə, o cümlədən, Qarabağ xanına hədə-qorxu dolu məktub göndərib, Rusiya hakimiyyətini qəbul etməsini tələb etdi. O, İbrahimxəlil xanı rus komandanlığını Gəncə qələbəsi münasibətilə təbrik etmədiyinə görə təhqiramiz şəkildə qınayırdı.

Sisiyanovun Gəncədən İbrahimxəlil xana göndərdiyi 8 yanvar 1804-cü il tarixli məktubda deyilirdi: "Şöhrətli və yenilməz rus qoşunları ilə bir aydan çoxdur burdayam. Həm də oğlu Hüseynqulu ağa və 1500 adamla birlikdə ölən Gəncəli Cavad xanın tərsliyi və azğınlığı səbəbindən qalanın hücumla alınmasından artıq 6 gün keçir. Çox təəccüblənirəm ki, siz belə yaxın qonşuluqda ola-ola güclü himayə axtarmalı ikən məni təbrik etmirsiniz.

Cavad xanın dikbaşlığı qanla yuyuldu və mənim ona yazığım gəlmir. Allahın özü də dikbaşlara qarşıdır. Lakin onun öz taleyinə şərik etdiyi adamlara heyifsilənirəm. Ümid edirəm ki, zati-aliləri ona oxşamaq istəməyəcək və zəifin güclüyə itaət etməsi və onunla höcətləşməməsi kimi ümumi qaydalara əməl edəcək. Rusiyanın gücü və onun idarəçilik prinsiplərinin müləyimliyi o məmləkətə artıq çoxdan məlumdur. Onsuz da sizə ən yaxşı yolu seçmək qalır...

Elə bilirəm ki, mənim tələblərimi, zati-aliləri, yerinə yetirməyə tələsəcəksiniz və bunlar sizin xoşbəxtliyinizin başlanğıcı olacaq.

Nəhayət, bizim böyük və Allah tərəfindən yüksəldilmiş imperatorumuzun ali himayəsinə doğru sizə yol açaraq, qəbul eləyə biləcəyiniz qərarlar üçün etibarlı adamınızı, ya da övladlarınızın birini gözləyirəm".

**– Bu məktubdan açıq-aydın görünür ki, İbrahimxəlil xan heç də könüllü olaraq Rusiyaya meyillənməyib. Əvvəllər tarixçilərin belə uydurma mülahizələri olmuşdu, ədəbiyyatda da bu yalana bədii don geydirilmişdi...**

– Bunlar xeyli sonralar, xüsusən, sovet dövründə baş verib. O zaman isə İbrahimxəlil xan şəraiti nəzərə alıb, gələcəkdə nələr ola biləcəyini nəzərə alıb, saray əyanı Mirzə Məhəmmədəli bəyi rus generalının yanına göndərdi, amma ona nəyəsə qol çəkmək və möhür vurmaq səlahiyyəti vermədi. Üstəlik, Sisiyanova saymazyana bir cavab göndərdi. İbrahimxəlil xanın bu hərəkətindən bərk narazı qalan knyaz birbaşa hədələrə keçərək sərt cavab məktubu yazdı. O bildirdi ki, yeritdiyi İran siyasətinə görə Cavad xan kimi o da başı ilə cavab verəcək.

Sonra rus generalı sözünə belə davam edirdi: "Mən sizin siyasətinizə inanmıram. Ona görə də yalnız sizdən tələb edirəm. Sizin görüşünüzə isə vaxtı çatanda gözlənilmədən gələcəyəm. İnanın ki, sizi darmadağın etmək üçün Gəncədə olan qoşunlarım da bəs edər. Qalanızı almaq ruslar üçün çox asandır. Heç eşitməmisiniz ki, milçək qartalla danışıq aparsın? Əmr etmək güclüyə xasdır, zəif isə ona görə doğulub ki, güclüyə itaət eləsin... Sizi təbəəliyə yox, mənə bu, lazım deyil, tövbə etməyə çağırıram. Əgər sağ-salamat olmaq və rahat yaşamaq istəyirsinizsə, mənim tələblərimi məktub vasitəsilə bildirin".

Digər tərəfdən, Rusiyanın Qarabağa cidi şəkildə diş qıcadığını görən İran hökmdarı Fətəli şah Arazdan şimalda olan əyalətlərin üzərinə hücuma hazırlıq görməyə başladı. Daha doğrusu, Rusiyaya qarşı çıxmaqda öz yardımını İbrahimxəlil xana təklif elədi. Şah Qarabağı itirməkdən qorxaraq bütün qüvvəsini xanlığı özünə tabe etməyə yönəltdi. Əvvəlcə diplomatiyanı işə saldı, müxtəlif hiylə və qılıqlarla İbrahimxəlil xanı öz tərəfinə çəkməyə çalışdı. O, Qarabağ xanını İrandan birdəfəlik üz çevirməsi və gürcülər kimi hərəkət etməməsi, xanlığın Rusiyaya ilhaq olunmaması üçün öz sərkərdələri Kərim xanı, Abdulla xanı və Rəhim xanın İbrahimxəlil xanın yanına göndərdi.

Elçilər İran şahının qiymətli hədiyyələrini Qarabağ xanına təqdim elədilər. Fətəli şahın İbrahimxəlil xanın bütün "günah"larını bağışladığını bildirdilər. Eyni dindən olduqlarını da xüsusilə vurğuladılar, kafir ruslara qarşı birlikdə mübarizə aparmağı təklif kimi irəli sürdülər. Həm də bəyan elədilər ki, bütün Qarabağ əyaləti İran dövlətinə çatası gəliri ilə birlikdə həmişəlik olaraq İbrahimxəlil xanın ixtiyarında qalacaq. Şah öz övladlarından ikisini Şuşa qalasında – onun yanında əmanət qoyacaq. Üstəlik, iranlı elçilər özlərinin aşağıdakı şərtlərini də bildirdilər:

**– Qarabağı Rusiya təcavüzündən qorumaq üçün Şahbulaq qalasında İran əsgərlərindən qarnizon qoymaq;**

– Nadir şah zamanından dağılıb pərənpərən düşmüş əhalini geri qaytarmaq və İbrahimxəlil xanın nüfuzunu artırmaq üçün şahzadə Abbas Mirzəni böyük qoşunla Qarabağa göndərmək;

– İrandan Qarabağa vurulmuş zərərlərin dəyərini İbrahimxəlil xana qaytarmaq;

– Şuşanı Rusiyadan müdafiə etmək üçün Əsgəran qalalarında İran mühafizə dəstələri qoymaq.

İbrahimxəlil xan yaranmış tarixi şəraiti nəzərə alıb, Fətəli şahın bu təkliflərini rədd eləyib, sözünün ağası olduğunu xüsusilə vurğuladı: "Mən hənuz rus dövlətinə itaət etməmişəm, bir güclü, qüdrətli və mürvətli padşahdır. Onun qoşunu gəlib və sərdarı Tiflis şəhərindədir. Çünki mən burdan sabiq Rusiya dövlətinə, imperatora – Uzma Yekaterina hüzuruna və qraf Qudoviçə və qraf Zubova elçi və adam göndərib, izhari-ixlas etmişəm. Layiq deyil ki, şöylə padşahın sərdarı bu yaxında Tiflisdə ola və mən ona elçi və adam göndərməyəm?"

**– Deməli, olarmı ki, İbrahimxəlil xan aldanıb, Fətəli şah isə vaxtında qətiyyət göstərib, Qarabağda möhkəmlənə bilməyib?**

– Hər ikisi olub. Diplomatiya ilə heç nəyə nail ola bilməyəcəyini anlayan Fətəli şah məsələni zor gücünə həll eləməyi üstün tutdu və Qarabağa yürüşə hazırlaşmağa başladı. Şuşada isə çox çətin və mürəkkəb bir şərait yarandı. Bir tərəfdən ruslara, o biri tərəfdən isə qarabağlılara kəskin və barışmaz nifrət bəsləyən mərkəzi İran hakimiyyətindən təhlükə gözləyən İbrahimxəlil xan odla su arasında qalmışdı. Ona görə də yubanmadan Tiflisə necə ay əvvəl elçi göndərib, onu Rusiyanın təbeçiliyinə dəvət eləyən general Sisiyanovun yanına nümayəndələr göndərdi və bildirdi ki, onların himayəsinə girməyə hazırdır.

Xan generalla görüşməyi də təklif elədi və təbəəliyə hansı şərtlərlə qəbul olunacağını soruşdu. General qarabağlı elçiləri hörmət və ehtiramla yola salıb, İbrahimxəlil xanla gələn ilin yazında görüşmək fikrində olduğunu bildirdi. Rus generalı bağlanılması təklif olunan müqavilənin mətnini şəxsi nümayəndəsi, gürcü əsilli Niniya Caroyevlə İbrahimxəlil xana göndərdi. Onun ardınca isə mayor İvan Lisaneviçi Şuşaya yollayıb, İbrahimxəlil xanı dinc yolla itaətə gətirməyi və xan tərəfindən layihədə heç bir düzəliş edilməmək şərtilə ondan Rusiya himayəsini qəbul etməyə razılıq almasını tapşırdı. Knyaz İbrahimxəlil xan Cavanşir və onun övladları barədə məlumat toplayıb, nəsil şəcərəsini tərtib etmək üçün mayora xüsusi göstəriş də verdi.

Sisiyanov İbrahimxəlil xana göndərdiyi məktubda həm də yazırdı ki, o, müqavilənin layihəsi ilə tanış olandan sonra böyük oğlu Məhəmmədhəsən ağanı müvəqqəti öz yerində qoysun, heç olmasa, ikicə günlüyə nəvəsini də götürüb Gəncəyə gəlsin, müqaviləyə imza atsın və rus qoşunu ilə də geri qayıtsın. Çünki müqavilə xanın və generalın adından yazıldığı üçün o, da qol çəkməlidir. Bir də heç nədən ehtiyat etməsin. Ona görə ki, ruslar heç vaxt yalan danışmırlar.

Lakin dünyagörmüş İbrahimxəlil xan Sisiyanovun bu təklifinə o qədər də əhəmiyyət vermədi və yalnız may ayında görüşəcəklərinə razılıq verdi. 1805-ci il mayın 14-də Sisiyanov və İbrahimxəlil xan arasında himayə müqaviləsi bağlandı. Qarabağ hakimi Şuşa qalasının açarlarını generala təqdim eləyərək sədaqət haqqında andlı öhdəlik götürdü. Tarixə Kürəkçay müqaviləsi adı ilə düşmüş bu əhdnamə 11 maddədən ibarət idi.

– Kürəkçay müqaviləsinin şərtlərinə tərəflər necə əməl etdi? Sonrakı ziddiyyətlər nədən yarandı?

– 1806-cı il fevralın 8-də rus qoşunlarının baş komandanı, general Sisiyanov Bakıda öldürüldükdən sonra Zaqafqaziyada siyasi təbəllüatlar başlandı. İmeretiya çarı Solomon rus qoşunlarının Kutaisdən çıxarılmasını tələb elədi. İrəvan xanı Şuragil vilayətini almağa hazırlaşdı. Şəki hakimi Səlim xan Rusiyadan üz döndərdi və s.

Ümumiyyətlə, Azərbaycan xanları tərəddüd içərisində qalmışdılar. Bir tərəfdən də İran qoşunları Qarabağ sərhədlərinə yenidən yaxınlaşırdılar. Həmin vaxt İbrahimxəlil xanın oğlu Əbülfət xan və qızı Ağabəyim ağa da atalarına İranla dostluq əlaqələrini bərpa etməyi məsləhət görürdülər. İki od arasında qalmış İbrahimxəlil xan qəti fikrə gələndən sonra ruslardan üz çevirməyə, Fətəli şahla münasibətlərini yoluna qoymağa, Abbas Mirzə ilə, Əbülfət xanla, Feyzi bəylə və Mirzəli bəylə yazışmağa başladı. Nümayəndəsi Nurməhəmməd bəyi gizlicə Fətəli şanın yanına göndərib, onun Rusiya təbəəliyinə keçməsini bağışlamağı xahiş elədi. O əgər şah kömək edərsə, rusları Qarabağdan çıxarmağa söz verdi. Abbas Mirzəyə isə xəbər göndərdi ki, Şuşaya hücüm etsə, şəhərin darvazalarını onun üzünə taybatay açacaq.



Həmin vaxt İbrahimxəlil xanın qayını erməni Məlik Cümşüd Şuşada lövbər salmışdı. Onun bu böhranlı günlərdə bura gəlib çıxmasının səbəbi var idi. Ümumiyyətlə, Qarabağda rusların köməyi ilə siyasi hakimiyyəti əllərinə almaq üçün erməni məlikləri fürsətdən lazımınca bəhrələnirdilər. Xüsusilə də, xanlığın Rusiya təbəəliyinə daxil olması prosesində onlar dəridən-qabıqdan çıxır, cinayətkar hərəkətlərini getdikcə genişləndirirdilər.

Həmin vaxt İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın vəfatından, İbrahimxəlil xanın qocalığından və xəstəliyindən istifadə edən Şuşadakı bir-birinə zidd qüvvələr ermənilərin fəallığı ilə Kürəkçay müqaviləsinin maddələrini pozmağa başladılar. Rus qarnizonu Şuşada yerləşdiriləndən sonra öz çirkin niyyətlərini həyata keçirmək üçün ermənilər fəaliyyətlərini daha da gücləndirdilər.

Neçə il idi ki, Gürcüstanda yaşayan Məlik Cümşüd rusların Qarabağ üzrə müşaviri rolunu oynayırdı. Kürəkçay müqaviləsindən sonra o öz təbəələrini də götürüb, yaşadığı Lori qəsəbəsini tərk edərək Qarabağa qayıtmış, Şuşada rusların əsl casusu kimi mayor İvan Lisaneviçin sağ əlinə çevrilmişdi. İbrahimxəlil xanı rusların gözündən salmaq üçün Məlik Cümşüd onu qarabaqara izləyir, danos yazıb yuxarı dairələrə göndərirdi.

Beləliklə, Məlik Cümşüd Qarabağ xanı ilə rus komandanlığının arasını vurur, yuxarıda dediyimiz kimi, onu gözdən salmağa, qaralamağa çalışırdı. Bu casus İbrahimxəlil xanın Fətəli şahla gizli əlaqə saxlamasını və müharibə olarsa, İran tərəfinə keçəcəyini də mayor İvan Lisaneviçə çatdırmışdı və İran qoşunlarının Qarabağ sərhədlərinə çıxdığını demişdi. Xəyanətkar erməni bildirmişdi ki, bu günlərdə ya xan İran tərəfə keçəcək, ya da iranlılar gəlib onunla birləşəcəklər.

Mayor İvan Lisaneviç dərhal İbrahimxəlil xanın imarətinə gəldi. Bildirdi ki, ona 3 saat möhlət verilir. Əgər qalanı tərk etməsə, özündən küssün, bütün əhli-əyalı ilə birlikdə qətlə yetiriləcək. İbrahimxəlil xan Lisaneviçin bu hərəkətindən çox təsirlənərək onu təhqir etdi. Mayor isə bildirdi ki, artıq-əskik danışmaq lazım deyil, vaxt keçir, bir qərara gəl, sonrası pis olar.

Naəlac qalan İbrahimxəlil xan arvaduşağını, nökər-naibini, xidmətçilərini, mühafizə dəstəsini, bir sözlə, yaxın, simsar adamlarını, imkanı qədər zinət əşyalarını, pul, qızıl götürüb qaladan çıxdı. Artıq axşam düşdüyündən qala ilə qabaq-qənşər olan Topxana meşəsinin yaxınlığında çadırlar qurdurdu. O hər ehtimala qarşı, ətrafda səngər qazdırıb səhəri gözləməyə başladı. İbrahimxəlil xan bilirdi ki, İran qoşunu səhərə yaxın gəlib çıxmalıdır

**– Bəs xanın ailəsinin kütləvi surətdə məhv edilməsinə səbəb nə oldu? Bu qırğında erməni əli özünü necə görsətdi?**

– Fürsəti əldən verməyən Məlik Cümşüd özünü mayora çatdırıb "eşitdikləri"ni ona bildirdi. Bu xəbərdən sonra Lisaneviç, nədənsə, İbrahimxəlil xanı geri qaytarmaq fikrinə düşdü. Əvvəlcə bu məqsədlə nəvəsi Cəfərqulu ağanı babasının yanına göndərdi ki, xan ailəsini də götürüb Şuşaya qayıtsın. Lakin o, xanı nə qədər dilə tutsa da, yola gətirə bilmədi. Əksinə, İbrahimxəlil xan Cəfərqulu ağanı danlayıb dedi ki, mayor Lisaneviçi evinə çağırıb həbs etsin və gətirib ona təhvil versin. Gəncədə girov saxlanılan qardaşı Şükrullah ağanı isə ordan qaçırtsın.

Mayor Lisaneviç bu dəfə Mehdiqulu ağanı (Mehdiqulu ağa xəstə olduğu üçün atası ilə gedə bilməmişdi) xanın yanına göndərdi. O, mayorun sözündən çıxa bilməyib, xəstəliyinə baxmayaraq, birtəhər atasının hüzuruna yollandı. Çox çəkmədən qayıdıb mayora bildirdi ki, nə qədər çalışdısa, atasını yola gətirə bilmədi. Beləliklə, İbrahimxəlil xanı yolundan döndərmək üçün artıq heç bir ümidi qalmayan mayor gecə vaxtı hücum edib, onu diri tutmaq qərarına gəldi.

Lisaneviç 100 əsgər və mayor Niniya Caroyevin dəstəsini İbrahimxəlil xanın üstünə göndərdi. Ruslar bir neçə erməninin bələdçiliyi ilə Aşağı bürcün altındakı lağımdan keçərək gizlicə qayaların ətəkləri ilə xanın düşərgə saldığı yerə tərəf hərəkət etdilər. Mayor zabitlərinə və əsgərlərinə əmr etdi ki, atəş açmasınlar və təslim olmağı təklif eləsinlər. Ruslar çadırlara yaxınlaşanda gördülər ki, İbrahimxəlil xan açıq havada əyanlarının əhatəsində oturub, qəlyan çəkə-çəkə söhbət eləyir.

Xanın saray adamı Əmiraslan bəy də (Mir Möhsüm Nəvvab Qarabağinin ana babası) burda idi. Birdən xəbər verdilər ki, ruslar İbrahimxəlil xanın üstünə gəlir. Dərhal xanın adamlarından kimsə güllə atıb rus əsgərinin birini öldürdü. Bu zaman rus əsgərləri də onlara atəş açdılar. Güllələrdən bir neçəsi İbrahimxəlil xana dəydi və o, oturduğu kürsüdən yıxıldı. Atılan güllələrdən bir neçəsi isə xanın ailə üzvlərinə, əyanlara və nökərlərinə dəydi. Qalanlar isə hərə bir şey götürüb müxtəlif səmtlərə üz tutdular. Əmiraslan bəy isə İbrahimxəlil xanın sonbeşik övladı olan Gövhər ağanı və xanın qızıl qəlyanını götürüb dərə aşağı qaçdı.

Atışma və süngü davası 3 saata yaxın davam elədi. Ölən öldü, qalanlar da kolluqlarla, yarğanlarla qaçıb canlarını qurtardılar. Ruslar çoxlu qənimət götürüb qalaya çəkildilər. Xanın bəzi adamları da çəkidən yüngül, vəzndən ağır qiymətli əşyalarını götürüb aradan çıxdılar.

**– Bu misilsiz xəyanət və cinayət tarixə hansı adla yazıldı?**

– 1805-ci il iyunun 14-də baş verən bu qanlı faciədə İbrahimxəlil xanın ailəsindən və yaxın adamlarından 35 nəfər, o cümlədən, arvadı Tubu bəyim, qızı Səltənət bəyim, 12 yaşlı oğlu Abbasqulu ağa, Hacı Hüseynəli bəy Kəbirli, Həsən ağa Gülməli bəy oğlu Sarıcalı, Hümmət bəy Cavanşir, Mirzə Tağı Əfşar, Əlipənah Cavanşir, Mirzə Haqverdi, Mirzə Nağı Kəbirli Əcəmoğlunun oğlu Hacı Həsən, Qaranın iki oğlu, Teymur, iki nəfər şelli və iki nəfər başqa adam öldürüldü.

İbrahimxəlil xanın sağ qalan adamları hadisənin baş verdiyi ərazidən bir az aralıda – "Nabatxan" adlanan yerdə Əbülfət xanın qoşunu ilə qarşılaşdılar. Əbülfət xan atasının başına gələn əhvalatdan xəbərdar olarkən rusların bu vəhşiliyini lənətləyib, hadisə yerinə tələsdi.

Qətlə yetirilənlərin, gülədən və süngüdən deşik-deşik olmuş adamların cəsədlərini yuduzdurdu, kəfənə tutdurub dəfn elətdirdi. Baş verənləri Fətəli şaha çatdırmaq və bundan sonra necə hərəkət etmək barədə əmr almaq üçün təcili İrana döndü.

Bəli bu misilsiz cinayət erməni xəyanətkarlığı nəticəsində törədildi. Qarabağ xanının ailəsi və yaxınları ilə birlikdə amansızlıqla qətlə yetirilməsi dünya tarixinin ən qanlı siyasi cinayətlərdən biri idi. Bu, Rusiya imperiyasının xalqımıza qarşı düşmən münasibətini göstərən təkzibedilməz, bəraət qazandırıla bilməyən vəhşilik aktı idi. Tarix belə cinayəti bağışlamır.

Üstündən 112 il keçmiş Rusiyanın Romanov sülaləli çarlarının sonuncusu II Nikolayın bütün ailəsi ilə birlikdə qətlə yetirilməsi bu xalqın siyasətçilərinin özlərinə qarşı da amansız olduğunu göstərməklə bərabər, sanki, tarixin Rusiyadan İbrahimxəlil xan ailəsinin intiqamını alması olmuşdu.

***Söhbəti apardı: Tahir AYDINOĞLU***
***XQ***

*XQ-nin ictimai müzakirəsi*

**Azərbaycan xalqının sosial-mədəni və ictimai-siyasi fikir tarixində görkəmli şəxsiyyətlər çox olmuşdur. Bu tarixin müxtəlif mərhələlərində onların hamısının özünəməxsus yeri və mövqeyi, silinməz izləri vardır. Ancaq elə şəxsiyyətlər də var ki, onların ömür-gün salnaməsi illərin, ayların çərçivəsinə sığışmır, adları tarixin nəhayətsiz üfüqlərinə həkk olunur. Bu üfüqlərdə onların əzəməti, mənəvi ucalığı və doğmalığı daha aydın və parlaq görünür.**

# Ürəklərdə boy atmış abidə həyatda da ucalacaqmı?



Görkəmli ictimai-siyasi və dövlət xadimi, fədakar səhiyyə qurucusu Əziz Məmmədkərim oğlu Əliyev tarixdə silinməz izini, xalqımızın qəlbində mənəvi heykəlini ucaltmış nadir şəxsiyyətlərdəndir.

Görkəmli şair-publisist, ictimai və dövlət xadimi, Əməkdar mədəniyyət işçisi Hidayətin "Xalq qəzeti"nin 10 aprel 2025-ci il tarixli nömrəsində çap olunmuş "Əziz Əliyevin heykəli hardadır?" adlı məqaləsini dönə-dönə oxuyandan sonra mən də Əziz Əliyevin ürəklərdəki heykəlinin onun xidmətində olduğu torpaqda niyə ucalmamasına təəssüf etdim.




Yüksək mənəvi ucalıqda abidəsi ucalan Əziz Əliyevin Bakının yaraşıqlı meydanlarının birində heykəlinin olmaması məni və mənim kimi minlərlə, on minlərlə insanı bir daha düşünməyə vadar etdi. Axı doğrudan da, xalqımızın taleyüklü məsələlərini çiyinlərində daşıyan, kommunist rejiminin sərt qadağalarına mərdliklə sinə gərib xilaskarlıq missiyasını yerinə yetirən bu görkəmli şəxsiyyətə niyə heykəl qoyulmasın? Niyə gül-çiçək dəstələri Əziz Məmmədkərim oğlu Əliyevin heykəlini bəzəməsin?

Onu da qeyd edim ki, sevimli ədibimiz Hidayətin hələ keçən əsrin 90-cı illərində bu dahi insana həsr etdiyi silsilə məqalələri ("Qurucu Əziz", "Əziz Əliyev Dağıstanda", "Odlar Yurdunun və Dağlar diyarının iftixarı") Azərbaycan və rus dillərində çap olunmuşdur. Qətiyyətlə deyə bilərəm ki, bu məqalələr yalnız Hidayətin Əziz Məmmədkərim oğluna bəslədiyi sevgi və ehtiramın ifadəsi deyil, bu həm də müəllifin yüksək vətəndaşlıq qayəsinin əks-sədasıdır.

"Əziz Əliyevin heykəli hardadır?" sualı ritorik səciyyə daşımır. Bu sual xalqımızın XX əsr ictimai-siyasi tarixində xüsusi rolu olan Əziz Əliyevin fəaliyyətinə bir də nəzər salmağa, dünyanın müxtəlif guşələrinə səpələnmiş milyonlarla soydaşımızı milli dəyərlərimizi qorumağa çağıran tarixi bir sualdır. Görkəmli şəxsiyyətlər öz xalqının milli dəyərləridir, bu dəyərlər uca tutulmalı, ucalıqda qorunub dərk olunmalı və qiymətini almalıdır.

Zamanın özünün səsləndirdiyi sualın təməlində çox mətləblər dayanır. Əziz Əliyevin saflığı və əzəməti, ictimai-siyasi xadim, əsl Azərbaycan övladı kimi ölkə, xalq qarşısındakı əvəzsiz xidmətləri... və bir də milli mentalitetimizdən çıxara bilmədiyimiz biganəliyin, laqeyd münasibətin ifadəsi. Həyatı təlatümlər və keşməkeşli hadisələr içərisində keçən Əziz Əliyev ermənilərin türklərə qarşı yürütdüyü soyqırımı siyasəti nəticəsində doğma yurdu İrəvandan Naxçıvana, oradan da Güney Azərbaycanın Ərəblər kəndinə pənah aparmış, ata-anasını da burada itirmişdi. Lakin çətin sınaqlar, ağır məhrumiyyətlər onun iradəsini sındıra bilməmişdi. Həyatının mənasını doğma xalqına xidmətdə görən Ə.Əliyev Azərbaycan Tibb İnstitutunun rektoru, Azərbaycan Xalq Səhiyyə komissarı, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin katibi və digər yüksək vəzifələrdə çalışarkən öz amalına həmişə sadiq qaldı.

Əziz Əliyev SSRİ Müdafiə Komitəsinin qərarı ilə polkovnik rütbəsində İrandakı 47-ci ordunun Hərbi Şurasının siyasi rəhbəri və üzvü kimi çox səmərəli fəaliyyət göstərmişdir. Yeddi nəfərdən ibarət olan bu qrupun Təbrizdə, Ərdəbildə, Urmiyada, Zəncanda, Mərənddə həyata keçirdiyi milli-ideoloji tədbirlər Güney Azərbaycanda milli azadlıq hərəkatının və milli şüurun yüksəlməsində mühüm rol oynamışdır.

Qeyd edək ki, bu qrupa Əziz Əliyevdən başqa, Ənvər Məmmədxanlı, Osman Sarıvəlli, Süleyman Rüstəm, Qulam Məmmədli, Mehdixan Vəkilov, İsrafil Nəzərov kimi tanınmış şəxsiyyətlər daxil idi. Bu insanların milli-mənəvi potensialından çox məharətlə istifadə edən Əziz Əliyev üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirmişdir. Ümumiyyətlə, II Dünya müharibəsi dövründə faşizmə qarşı mübarizədə xalqların birliyini və qələbəyə inamını təmin etmək istiqamətində Əziz Əliyevin göstərdiyi xidmətlərin sayı-hesabı yoxdur. Xüsusilə, o illərdə Dağıstana rəhbərlik edərkən – Muxtar Respublikada Partiya Komitəsinin birinci katibi olarkən o, yalnız vəzifə borcunu yerinə yetirməmiş, həm də qardaş xalqın xilaskarı olmuşdur.

Hidayət müəllimin qeyd etdiyi kimi, Əziz Əliyev bu dağlar diyarının xalqlarını amansız repressiya maşınının ağzından xilas etmişdir. Dağıstanlılar indi də bunu minnətdarlıqla xatırlayırlar. Çünki Dağıstan xalqlarının sürgün olunması barədə Kremlin məxfi qərarının reallaşması hər an gündəlikdə olan məsələsi idi. Əziz Əliyev Stalinin bu qorxunc və dəhşətli qərarının həyata keçirilməsinin qarşısını müdrikcəsinə yüksək fədakarlıqla almışdır. Hidayət müəllimin təbiri ilə desək, "Göydə Allah idi, Moskvada Stalin, Dağıstanda... Əziz Məmmədkərim oğlu".

Görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 18 noyabr 2016-cı il tarixli sərəncamında deyilir: "Onun İkinci Dünya müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbyacan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə bağlıdır".

Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olmuş, yüksək orden və medallara, bir çox təltiflərə və mükafatlara layiq görülmüşdür. Onun ən böyük mükafatı isə milyonların ürəyində sonsuz məhəbbətlə anılıb özünə ucaltdığı abidədir. Bu mənəvi abidəni əzəmətli və gözəl bir görkəmdə maddi mədəniyyət abidəsinə çevirməyin vaxtı deyilmi?!.

1897-ci il yanvarın 1-də İrəvan qəzasının Hamamlı kəndində dünyaya göz açan – İrəvanda, Naxçıvanda, Güney Azərbaycanda, Sankt-Peterburqda, Dağıstanda ağır və çətin illərin sınaqlarında mətinləşə-mətinləşə qurub-yaradan Əziz Məmmədkərim oğlu Əliyevin Bakıda heykəlinin ucaldılması onun anadan olmasının 130 illiyinə ən böyük töhfə olardı.

***Avtandil AĞBABA,***
***filologiya elmləri doktoru***

*Yusif Məmmədəliyev – 120*

# Dünya şöhrətli kimyacı alim

**Ümummilli lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı qədim Ordubad tarixən elm və təhsilin, mədəni zənginliyin tanınmış bölgələrindən olub. Tarixin müxtəlif dövrlərində bu gözəl diyar xalqımıza böyük şəxsiyyələr bəxş edib. Onlardan biri də Azərbaycanda neft kimyasının əsasını qoymuş akademik Yusif Məmmədəliyevdir.**



Bu il görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 illiyi tamam olur. Prezident İlham Əliyev görkəmli elm xadiminin yubilleyi ilə bağlı imzaladığı 5 iyul 2025-ci il tarixli sərəncamda bildirilir: "Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır".

Sərəncam geniş spektrli fundamental tədqiqat işlərini səmərəli pedaqoji fəaliyyətlə paralel surətdə davam etdirən Yusif Məmmədəliyevin yubileyinin layiqincə qeyd edilməsi üçün ölkəmizdə müxtəlif səpkili tədbirlərin keçirilməsinə, dünya şöhrətli alimin xatirəsinin ehtiramla yad edilməsinə. xidmətlərini qədirbilənliklə yad edilməsinə start vermişdir.

Yusif Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad şəhərində doğulub. 1911-1917-ci illərdə Ordubadda şəxsi məktəbdə təhsil alıb, sonra isə təhsilini yeni tipli məktəbdə davam etdirib. 1918-ci ilin iyun ayında erməni daşnaklarının Ordubada hücumu zamanı atası Hacı Heydər kişi ailəsini çətinliklə Təbrizə aparıb və 2 il burada yaşamalı olublar. Buna görə də balaca Yusif 1918-1920-ci illərdə Təbrizdə ingilisdilli məktəbdə oxuyub. Sonra isə Ordubada qayıdaraq 1921-ci ildə yerli gimnaziyanı "əla" qiymətlərlə bitirib və ibtidai məktəbdə müəllim işləyib.

Gənc Yusif 1926-cı ildə isə Ali Pedaqoji İnstitutun təbiət fakültəsini müvəffəqiyyətlə bitirib. Kimya sahəsinə böyük marağı və bu sahədə biliklərini dərinləşdirmək məqsədi ilə 1929-cu ildə M.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunub. O, burada dünya kimya elminin görkəmli alimlərindən olan akademik Zelinskinin laboratoriyasında elmi-tədqiqat işləri aparıb. 1931-ci ildə onun rəhbərliyi ilə "Etilenin katalitik hidrogenləşməsinin kinetikasının öyrənilməsi" mövzusunda ilk elmi-tədqiqat işini müvəffəqiyyətlə başa çatdırıb.

Yüksək ixtisaslı kimyaçı mütəxəssis 1932-ci ildə Azərbaycana qayıtdıqdan sonra Kənd Təsərrüfatı İnstitutunda üzvi kimya kafedrasının müdiri olub. Bir il burada işlədikdən sonra Bakıdakı Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutunda (indiki AMEA Neft-Kimya Prosesləri İnstitutu) işə başlayıb. Onun əsas elmi fəaliyyəti bu institutla bağlı olub və Y. Məmmədəliyev burada gənc tədqiqatçıdan akademik elmi dərəcəsinədək yüksəlib. Bu elm müəssisəsində Y. Məmmədəliyev kimyaya aid bir çox araşdırmalar aparıb və bununla bağlı elmi məqalələrini çap etdirib.

Böyük alimin ən mühüm işlərindən biri dünyada ilk dəfə olaraq Azərbaycan neftinin və təbii qazlarının tədqiqi ilə bağlı olub. O, neft və təbii qazların hidrogenləşməsi, dehidrogenləşməsi, hidratlaşması sahəsində ilk dəfə yüksək nəticələr əldə edərək, bir sıra gərəkli maddələrin, o cümlədən etil spirtinin, süni kauçukun, süni liflərin yeni alınma üsullarını işləyib hazırlayıb. Bu metodla Azərbaycanda ilk dəfə süni kauçukun istehsalına başlanıb. Alim neft qazlarının müxtəlif üsullarla ayrılması, xlorlaşması, etilen və asetilenə çevrilməsi, doymamış qazların bromlaşması, onların hidratlaşması, hidrogen sulfidlə qarşılıqlı təsiri və alınan halogenli birləşmələrin xalq təsərrüfatında və tibbdə istifadə olunmasına dair uğurlu tədqiqat işləri aparıb.

Yusif Məmmədəliyevin hazırladığı metodlarla Azərbaycanda halogenli karbohidrogenlərin istehsalı üçün böyük halogenləşmə sənaye və yarımsənaye pilot qurğuları və zavodlar tikilib. Bu metod müxtəlif ölkələrdə də tətbiq edilib. Həmin üsulla sənaye miqyasında müxtəlif sahələrdə strateji əhəmiyyətə malik dərman preparatları, həlledicilər, pestisidlər və digər məhsullar alınıb. Bu dərman preparatları minlərlə insanı yoluxucu xəstəliklərdən qoruyub. Digər birləşmələr isə xüsusilə aviasiya sənayesində yüksək səmərəliliyə malik həlledicilər, yanğınsöndürmə əleyhinə maddələr kimi geniş istifadəsini tapıb.

1938-ci ildə Moskva Dövlət Universitetinin elmi şurası azərbaycanlı alimin əsasən neft qazlarının tədqiqi sahəsindəki yüksək əhəmiyyətli işlərini, dərin nəzəri ümumiləşdirmələrini nəzərə alaraq, ona dissertasiya müdafiə etmədən kimya elmləri namizədi alimlik dərəcəsi verib. Yusif Məmmədliyevin 1941–1945-ci illər müharibəsi dövründə göstərdiyi xidmətlər isə onu bütün dünyada tanınıb. Belə ki, alkilləşmə sahəsində misilsiz nailiyyətlər əldə etməsi nəticəsində yüksək çıxımla alınan və strateji əhəmiyyətli məhsullar olan alkilaromatik birləşmələr hərbi məqsədlər üçün geniş istifadə olunub.

Top mərmilərinin və minaların hazırlanmasında ən çox istifadə olunan trinitrotoluol (trotil) partlayıcı maddəsinin əsas komponenti olan toluolun yüksək çıxımla alınması, təyyarələrin yüksək uçuşunu təmin edə bilən yüksək oktanlı və çox aşağı donma temperaturuna malik yanacaqların hazırlanması da onun adı ilə bağlıdır. Məhz alimin elmi ixtiralarına əsasən müharibə dövründə Bakı neftayıranları cəbhəni milyon tonlarla yüksək keyfiyyətli benzinlə təmin ediblər.

Görkəmli akademikin Azərbaycan nefti əsasında hazırladığı, oktan ədədi 120-yə bərabər olan, aşağı donma temperaturuna malik bu qiymətli yanacaq İkinci Dünya müharibəsində aviasiya yanacağı kimi də istifadə olunaraq qələbəyə birbaşa yol açıb. Yusif Məmmədəliyev bu elmi rəşadətinə görə bir çox təltiflərə, o cümlədən Dövlət mükafatına layiq görülüb. O, 1943-cü ildə doktorluq işini müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi və professor elmi adını alıb.

Akademikin bu sahədə kəşfləri kosmosu da fəth etməyə imkan verib. Bu metodla alınan yüksək keyfiyyətli raket yanacaqlarından Yerin ilk süni peykinin buraxılması və raketlərin kosmosa uçuşunda istifadə edilib. Təsadüfi deyil ki, buna görə dahi kimyacı alimi Qələbə paradına və Yuri Qaqarinin kosmosa ilk uçuşu münasibətilə təşkil olunan ali tədbirə dəvət ediblər. Böyük təşkilatçılığı, ictimai bacarığı ilə seçilən Y. Məmmədəliyev həm də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) rektoru, iki dəfə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olub.

Bunu da qeyd edək ki, Yusif Məmmədəliyev təbiətşünaslıq fakültəsində təhsil alsa da, əslində, arzusu filoloq olmaq imiş. Bəlkə, bu da bir zərurət idi ki, kimyaçı professor Sadıq Hüseynzadə ilə qarşılaşması onun arzusunu dəyişə bilmişdi. Nəticədə, kimyaçı olsa da, filoloq olmaq istəyi daim qəlbində bir arzu kimi qalmışdı.

Maraqlı məqamlardan biri də budur ki, Yusif Məmmədəliyevin çoxşaxəli fəaliyyəti təkcə kimya sahəsi ilə bağlı olmamışdır. Onun elmi fəaliyyəti bir sıra sahələrə nüfuz etmişdir. Məsələn, onun təşəbbüsü ilə 1959-cu ildə Şamaxı Astrofizika Rəsədxanası yaradılmışdır. Buna görə, bir çox çətinliklərdən keçərək hətta Almaniyadan diametri 2 metr olan teleskopun gətirilməsinə də nail olmuşdur. Məsələ isə belə olmuşdur ki, onun Şamaxı Astrofizika Rəsədxanasını açmaq ideyası maraqla qarşılansa da, rəsədxananın avadanlığının bir çoxu böyük məbləğdə pulla xaricdən alınmalı idi.

1959-cu ildə Y.Məmmədəliyevin Almaniyaya rəsədxana üçün sifariş etdiyi böyük teleskop əvvəlcə Moskvaya gətirilir. Bundan xəbər tutan Ermənistan EA-nın prezidenti Moskvadakı A.Mikoyanla danışır ki, bu teleskop Ermənistandakı Byurakan Rəsədxanasına, oradakı köhnə teleskop isə Azərbaycana verilsin. Ermənilərin Moskvadakı böyük hamisi Mikoyan belə etməyə çalışır. Bunu bilən SSRİ EA-nın prezidenti A.Nesmeyanov Y.Məmmədəliyevə vəziyyət haqqında teleqram göndərir. Yusif Məmmədəliyev iclas apararkən teleqramı alır. Tez iclası akadmik M.Topçubaşova tapşırıb özü Moskvaya uçur. 3 gün sonra həmin teleskop qatarla Bakıya çatdırılır.

Akademiki yaxından tanıyanların çoxu qeyd edir ki, Yusif Məmmədəliyevin müstəsna dərəcədə hazırcavablığı və hipnozedici qabiliyyəti var idi. Görünür ki, bu keyfiyyətləri olduğu üçün teleskopu ermənilərdən qopara bilmişdir. Sonradan onun böyük uzaqgörənliyi ilə Şamaxı Astrofizika Rəsədxanası (hətta yerini də özü müəyyən etmişdi) elm xəzinəsinə böyük yeniliklər verdi. Və yaxud, onun digər təşəbbüsü ilə Qobustan qayaüstü abidələrinə ekspedisiya təşkil edilərək ilk dəfə araşdırılmasına başlanılmışdır.

Böyük alim ölkəmizdə Əlyazmalar Fondu, Sumqayıt Kimya Elmi Mərkəzi və digər müəssisələrin təşkilində də təşəbbüskarlıq göstərmişdir. Bütün bunlar onu göstərir ki, Yusif Məmmədəliyevin elmi fəaliyyəti çoxşaxəli olmuşdur. Təsadüfi deyil ki, 1945-ci ildə yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının ilk həqiqi üzvlərindən biri olarkən, alimin hələ 40 yaşı tamam olmamışdır.

Bunu da qeyd edək ki, bu gün hərtərəfli fəaliyyət göstərən Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarının böyük əksəriyyəti məhz kimyaçı akademik Yusif Məmmədəliyevin Elmlər Akademiyasının prezidenti kimi çalışdığı vaxtlarda təşkil olunub. Bu da tarixi faktdır ki, o dövrdə neft emalı sənayesinin yenidən qurulmasında Yusif Məmmədəliyevin böyük rolu olub. Hətta 1945-46-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin Elmi Texniki Şurası yaradılanda bu şuraya Yusif Məmmədəliyev rəhbərlik edib.

Dünya kimya elmi və sənayesinə böyük töhfələr vermiş Yusif Məmmədəliyevin elmi və ictimai fəaliyyətini ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirmişdir. Ulu öndər alimin 90 illik yubilleyində demişdir: "Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olub. O öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir".

Təsadüfi deyil ki, məhz Ümummilli liderin təşəbbüsü ilə 1975-ci ildə Ordubadda alimin uşaqlıq və yeniyetməlik illərini keçirdiyi evdə ev-muzeyi yaradılmışdır. 407 eksponatla fəaliyyətə başlayan muzeydə indi 2000-dən çox eksponat saxlanılır. Bu muzeyin sahəsi 190 kvadratmetrdir. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində fond və iş otaqları, ikinci mərtəbəsində isə ekspozisiya zalı yerləşir. Burada akademikin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid sənədlər, çap olunmuş əsərləri, fotoşəkillər, habelə xatirə şəkilləri nümayiş olunur.

Muzeydə akademikin ömür-gün yoldaşı Bilqeyis xanımdan yadigar qalan piano, Elmlər Akademiyasından muzeyə hədiyyə olunmuş iş masası yer alır. Akademikin buradakı iş otağına aid bölmədə alimin müəllifi olduğu və oxuduğu kitablardan ibarət kitab rəfi, iş masasının üzərində mürəkkəb qabı, fil fiqurları, külqabı, barometr və sair əşyalar ilk baxışda tamaşaçıların diqqətini cəlb edir.

Prezident İlham Əliyev 2006-cı ildə muxtar respublikaya səfəri zamanı bu muzeyi də ziyarət etmiş, xatirə kitabına ürək sözlərini yazmışdır. 2014-cü ildə isə Yusif Məmmədəliyevin Ev-muzeyi yenidənqurma işlərindən sonra yenidən tamaşaçıların istifadəsinə verilmişdir.

Ümumiyyətlə, görkəmli akademikin yubileyləri həmişə yüksək səviyyədə qeyd olunmuşdur. Hətta 2005-ci ildə anadan olmasının 100 illiyi ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə UNESCO xətti ilə Parisdə bu qurumun iqamətgahında qeyd edilmişdir.

Bütün bunlar isə bir daha onu göstərir ki, Yusif Məmmədəliyev dühası Azərbaycan elminin sərhədlərini çoxdan aşaraq bu gün də dünya elminə öz töhfələrini verməkdədir və xalqımız haqlı olaraq bu cür şəxsiyyətləri ilə fəxr edir. Ulu öndər Heydər Əliyevindediyi kimi: "Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər".

***Xanım ƏLİYEVA,***
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi***

*Yeni nəşrlər*

# "Qala adam"

## *Rəşad Məcidin yubileyinə kitab töhfəsi*

**Yazıçı, şair, jurnalist, Əməkdar mədəniyyət işçisi, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcidin 60 yaşı münasibətilə onun yazdıqlarından və haqqında yazılanlardan ibarət "Qala adam" adlı kitab çapdan çıxıb.**



Bəri başdan dəqiqləşdirim ki, onun 60 yaşı ötən il avqustun 21-də tamam olub. Sadəcə, işgüzar adamın başı o qədər qarışıb, işi-gücü o qədər çox olub ki, yubileyinə həsr olunan kitabın nəşri 61 yaşına düşüb. Amma bir mahnıda deyildiyi kimi, "yaşın nə fərqi var ki..." Əsas odur ki, yeni kitabla tanışlıqdan sonra oxucuda Rəşad Məcidin yuxarıda sadalanan titullarından əlavə, sadə, səmimi, üzügülər, ünsiyyətcil bir insan olduğu qənaəti daha da güclənir.

"Qala adam" toplusunda onun bədii yaradıcılıq nümunələri, publisistik yazıları, oçerkləri və haqqında yazılanlar ipə-sapa düzülüb. Əslində, tanınmış imzanın burada toplanmış bir çox yazısını mətbuat səhifələrindən, saytlardan və sosial şəbəkə hesablarından oxumuşam. Amma yenə də "Qələmsiz yazılanlar", "Şuşa dəftəri", "60 yaşa yazı hədiyyələri" və "Rəşad Məcidin sözü haqqında" bölmələrində verilən nümunələri yenidən həvəslə oxudum, yenidən duyğulandım. İsa Həbibbəyli, Vilayət Quliyev, Vaqif Bəhmənli, Cahangir Məmmədli, Əflatun Amaşov, Loğman Rəşidzadə, Fəxri Uğurlu, Qismət Rüstəmov, Asif Hacılı, Bəxtiyar Aslan, İmdat Əfşar, Sevinc Mürvətqızı, Şahanə Müşfiq, Türkan Turan, Şəfa Vəli kimi müəlliflərin duyğu və düşüncələri, Rəşad Məcidin bir şəxsiyyət olaraq, görünən və görünməyən tərəfləri ilə bağlı müşahidələri təkrar oxunuşlarda da eyni xoş təəssürat yaratdı.

Rəşad Məcid Laçının Kosalar (Ağoğlan) kəndində anadan olub, uşaqlığı, ilk gəncliyi Ağdamda, Ağcabədidə keçib – bütün varlığı ilə o ulu yerlərə bağlıdır. Mənim də anam laçınlı idi və o yerlərə mən də çox getmişəm, uşaqlıq xatirələrim çoxdur. Bu mənada qələm dostum Nadir Yalçının Rəşad Məcidlə "Qocalığımı Ağoğlanda yaşamaq istəyərəm" adlı söhbəti, Şahanə Müşfiqin "Oğul Rəşad Məcid, nəvə Rəşad Məcid" (şairin anası ilə görüş) oçerkində ürəyimin sarı siminə toxunan məqamlar az olmadı.

Topludakı "Ürəkdən gələn yazılar" silsiləsindən "Zabuxdan keçirdik..." adlı qeydləri də eyni həssaslıqla oxudum:

– Ana, görə bildin?

– Evin üstünü, damını gördüm ancaq. Bəlkə, qayıdanda, geri qalxanda bir az çox görünər...

Laçına, doğulduğum Ağoğlan kəndinə getdiyim maşında yaxından tanıdığım ailənin – ana ilə oğulun dialoquydu bu. Oğul maşını sürürdü. Ana isə qabaq oturacaqdan boylanıb 30 il görmədiyi doğma yerlərə baxırdı. Sülhməramlıların müşayiəti ilə gedirdik deyə, dayanmağa icazə yox idi.

Ana ilə oğulun ilk baxışdan sakit, amma qəhər və həsrət dolu dialoqu hələ maşın Laçının vaxtilə "Poçt" deyilən ərazisinə qalxar-qalxmaz başlamışdı: Ora filankəsin eviydi... burda abidə vardı, dəyişiblər... dayıngilin evi görünür, odey odur..."

Rəşad Məcidin sözüdür: "Elə indi də gözümü yumanda ən çox Laçının Ağoğlan kəndində tut ağaclarının altına sərilmiş xalça-palazın, döşəyin üzərində uzandığım vaxtları xatırlayıram. Fikirləşirəm ki, ömrümün ən xoşbəxtlər anları məhz onda olub. Laçın işğaldan azad edildikdən sonra nənəmin Ağoğlandakı həmin həyətinə getdim. Evin uçuqları, ağaclar qalsa da, o xatirələrə bir də daldım. Uşaqlığım keçən o kənd mənim mənəvi rahatlığımın simvoludur". – Mən də Laçının Mığıdərə və Malxələf kəndlərində dumanlı-çiskinli havada quzu otardığım, ilk dəfə at mindiyim, əlimə tikan bata-bata böyürtkən yığdığım yay günlərini tez-tez xatırlayıram...

Onu da qeyd edim ki, bütün yönləri ilə yaradıcı olan Rəşad Məcid bir çox məmurdan fərqli olaraq, internet resurslarında, sosial şəbəkələrdə fəallıq göstərməyi cəsarətlə özünə rəva bilir. Hətta onun "Qələmsiz yazılanlar"ı məhz bu platformalardakı qeydlərindən, monoloqlarından hasilə gəlib. Akademik İsa Həbibbəyli kitabdakı "Rəşad Məcidin statusları və SMS dünyası, yaxud sosial şəbəkə ədəbiyyatına giriş" adlı məqaləsində bunu gözəl təhlil edib: "Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində Rəşad Məcid tam yeni janrlara imza atmışdır. "Status-esselər" və "SMS-esselər" adlandırdığı sosial şəbəkə yazışmalarından ilk dəfə Rəşad Məcid müstəqil janr kimi söz açmışdır. O, "Qələmsiz yazılanlar" adı ilə "525-ci qəzet"də oxuculara təqdim etdiyi yazılara ön sözündə tərəddüd etmədən "bəlkə də bunlar da bir janrdır" – deyə statusların və SMS-lərin müstəqil janr olma ehtimalını irəli sürmüşdür".

Ürəyi sevgiylə, şeirlə, nəğməylə döyünən Rəşad Məcidin incə lirikasından nümunələr də yeni kitabı bəzəyir. Əməkdar jurnalist Əflatun Amaşov təbrik yazısında bu cəhəti lazımınca qabardıb: "Onu yaxşı tanımayan ilk oxucu mütaliədən sonra elə güman edər ki, müəllifi əsrimizin Məcnunudur, şairin isə eşqdən, məhəbbətdən qeyri mövzusu yoxdur. Belələrinin, heç olmasa, kompüteri açıb məlumat bazasına sənətkarın yalnız adını yazması kifayətdir. Onun 29 yaşından bəri işıq üzü görən kitablarını sıraya düzək: "Hələ ki, vaxt var", "Əlvida və salam", "Dəlicəsinə",




"Çiyələk qadın", "Bir də gəlməyəcək", "Cığıraçan"... bunlarda şeirləri toplanıb. "10 sentyabr"da isə hekayələri. Bu kitablarda məhəbbət və ictimai motivli yazıların nisbəti 60-ın 40-a birincilərin xeyrinədir".

**Bilmədim iblissən, ya mələk, Qadın,**
**Ətri, gözəlliyi çiyələk Qadın.**
**Bir də gəlməyəcək sənintək Qadın**
**Nə mənim dünyama, nə bu dünyaya.**

Bu kimi nümunələr bir daha göstərir ki, Rəşad Məcid hər zaman könlünün həzin sevgi duyğularını yorulmadan, usanmadan bəsləyən, bacarıqla söz notuna və duyğu palitrasına köçürən qabil qələm sahiblərindəndir. Düşünürəm ki, yubiley kitabı yalnız ayrı-ayrı müəlliflərin lap ürəkdən gəlsə də belə, tərənnüm, vəsf, tərif səciyyəli yazılarından ibarət olsaydı, bəlkə də, bu qədər cəlbedici olmazdı. Nə yaxşı ki, tərtibçilər buraya Rəşad Məcidin maraqlı yazılarını, özəl poetik ürək çırpıntılarını, bədii-publisistik qeydlərini də qatıblar. Bu isə onun haqqında deyilənlərin tam həqiqiliyini göstərən dəstəvuz kimi, toplunun daha dolğun təsəvvür aşılamasını təmin edir.

Kitabın mədəniyyət paytaxtımız, söz-sənət mədəbgahımız Şuşa haqqında olan bölmələrindəki qeydlər, şeirlər də böyük maraq kəsb edir. Mən ötən il – özünün 60 illiyi ərəfəsində Rəşad Məcidin Şuşada keçirilən Poeziya Günlərində, dahi Molla Pənah Vaqifin sənət ocağı olan əzəmətli məqbərəsi önündə alovlu çıxışının, axıcı misralar söyləməsinin də canlı şahidiyəm.

**Qoynuna hər gələn yüz xəyal eylər,**
**Uzaqdan baxanlar qeylü-qal eylər.**
**Birini coşdurar, birin lal eylər,**
**Tilsimdir, ovsundur, cadudur Şuşa.**

Özü demişkən, "Şuşa havasının sirri"ni bundan da gözəl və təbii necə təsvir etmək olar?!

Vaqif Bəhmənlinin "Zaman və tale sözçüsü" adlandırdığı Rəşad Məcidin haqqında yazılanların hər biri onun bir portret cizgisidir. Sonuncu səhifəni çevirəndən sonra göz önündə onun bitkin bir portreti canlanır. Bu, zamanın, iş-gücün, qayğıların, şaxəli fəaliyyətin dəyişə bilmədiyi, tutduğu vəzifələrə, xüsusilə də Mətbuat Şurasında sədrliyinə rəğmən, özünü "525-ci qəzet"in baş redaktoru kimi daha rahat hiss etdiyini deyən Rəşad Məcidin işıqlı portretidir. Oxuduqca sanki qulaqlarımızda ürəyəyatımlı musiqi melodoyaları da səslənir. Onun nəğmələşən sözləri qanadlanır. Fidan Hacıyevanın, Ələsgər Əliyevin, Xumar Qədimovanın, Nüşabə Ələsgərlinin, Tünzalə Ağayevanın, Cavan Zeynallının ifalarında dalğalanan, ləpələnən musiqi ovqatı yaranır...

İndi də sual edək: bəs, nədən "Qala adam"? Bu yerdə Rəşad müəllimin müsahibələrindən biri "dadımıza çatır". R.Məcid deyib: "Həyatımda daş adamlar çox görürəm, amma qala adamlarla da rastlaşıram. Fikirləşirəm ki, insanı məhz qoruyan, güclü edən o qala adamlardır və həyatımda o cür qala adamlar olub, var və arzu edirəm ki, həmişə də olsun". Fərəhlidir ki, o özü də həmişə qala adam olmağa çalışıb və buna nail ola bilib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# TÜRKSOY-un Baş katibinə Macarıstan ordeni verilib

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev Macarıstanın Baş naziri Viktor Orbanın təqdimatı və bu ölkənin Prezidenti Tamaş Şulyokun fərmanı ilə "Xidmətlərə görə" ordeninə layiq görülüb.**

Mükafatı Budapeştdəki Viqado sarayında Macarıstanın milli bayramı – Müqəddəs Stefan Gününə həsr olunmuş təntənəli rəsmi mərasim çərçivəsində Macarıstanın mədəniyyət və innovasiyalar naziri Balaş Hanko Sultan Raevə təqdim edib.

Macarıstanın ali dövlət mükafatlarından biri TÜRKSOY-un Baş katibi Sultan Raevə Macarıstan ilə Türk dünyası arasında mədəni əməkdaşlığın inkişafında və dostluq əlaqələrinin möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə verilib.

Təşkilatın Baş katibi Sultan Raev belə yüksək dövlət mükafatına layiq görülməsindən məmnunluğunu ifadə edərək vurğulayıb



ki, Türk dünyası ilə Macarıstan arasında mədəni əlaqələrin və dostluğun möhkəmləndirilməsi istiqamətində bundan sonra da səylərini əsirgəməyəcək.

***XQ***

# Azərbaycanda "Ərəb dili ayı"



**Bakı Dövlət Universitetində Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının təşəbbüsü ilə Azərbaycanda avqust ayının "Ərəb dili ayı" elan olunması münasibətilə təntənəli mərasim keçirildi.**

Tədbirdə Səudiyyə Ərəbistanı Krallığı və digər ərəb ölkələrinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının baş direktoru, professor Abdullah Əl-Vaşmi, ali təhsil müəssisələrinin rektorları, görkəmli ziyalılar, millət vəkilləri, mətbuat nümayəndələri iştirak edirdilər.

Əvvəlcə Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığının Dövlət himnləri səsləndirildi. Bakı Avrasiya Universitetinin Ərəbşünaslıq Mərkəzinin direktoru, dosent Ülviyyə Hüseynova "Ərəb dili ayı"nın məqsədi, əhəmiyyəti barədə məlumat verdi. Sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxış edərək bildirdi ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) altı əsas dillərindən biri olan ərəb dili dünyanın ən qədim və zəngin ünsiyyət vasitəsidir:

– Bu dil kommunikasiya vasitəsi olmaqla yanaşı, mədəniyyətlərarası dialoq, elmi irs və mənəvi tələblərin daşıyıcısı rolunu oynayır. Bəşər sivilizasiyasının inkişafında mühüm yeri olmuş bu dil əsrlər boyu Qərb və Şərq arasında elm, ədəbiyyat və mədəniyyət körpüsü olmuşdur. Əsrlər boyu Azərbaycan alimləri bu dil vasitəsilə böyük İslam mədəniyyətinə qovuşmuş, zəngin biliklərə yiyələnərək elmi irsimizi bütün ərəb dünyasına təqdim etmişlər. Bu missiyanın ən böyük daşıyıcılarından biri isə Bakı Dövlət Universiteti və şərqşünaslıq fakültəsidir.

Bu fakültə universitetin əsası qoyulandan bir neçə il sonra – 1922-ci ildə tarix və filologiya fakültəsinin Şərq bölməsi əsasında yaradılmış, sonrakı dövrlərdə isə müstəqil fəaliyyət göstərməyə başlamışdır. Son illərdə Bakı Dövlət Universiteti ərəb dünyasının bir sıra ölkələri ilə əməkdaşlıq əlaqələrini gücləndirib. Azərbaycanda fəaliyyət göstərən ərəb ölkələrinin səfirliklərinin nümayəndələri ilə də görüşlər keçirilib, yeni layihələr müzakirə olunub.

Bakı Avrasiya Universitetinin rektoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Səyavuş Qasımov məruzəsində bildirdi ki, orta əsrlərdə Azərbaycan alimləri və şairləri ərəb dilində əsərlər yazaraq İslam ədəbiyyatının inkişafına mühüm töhfələr vermişlər:

– Müasir dövrdə bu dilin siyasi və iqtisadi münasibətlər, turizm əlaqələrinin səmərəli inkişafında mühüm rolu var. Xüsusilə, son illər təhsil müəssisələrində bu dilin öyrənilməsinə maraq göstərənlərin sayı artmaqdadır. Onu da vurğulamaq istəyirəm ki, universitetimizin tərkibində yaradılmış Ərəbşünaslıq Mərkəzi ərəb dilinin öyrənilməsində mühüm yer tutur.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cüteyli belə bir möhtəşəm görüşü alqışladı və dedi: – Sevindirici haldır ki, bu gün də Azərbaycanda ərəb dilinin kamil biliciləri var, hətta orta və ali təhsil müəssisələrində ərəb dili tədris olunur.

Daha sonra, Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası haqqında tanıtım videosunun təqdimatı oldu. "Ərəb dili ayı"nın ilk iki həftəsi ərzində tələbələr arasında keçirilən ərəb dili üzrə şeir, qiraət və inşa müsabiqəsinin qaliblərinə pul mükafatları təqdim olundu.

Mərasim Bakı Dövlət Universitetinin Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii proqram ilə başa çatdı.

***Kəmalə ABDİNOVA,***
***Fidan SALMANOVA***
***XQ***

*Rübail – 85*

# Gəncəli şairin söz möhürü

**Ulu Şeyx Nizami yurdu olan qədim Gəncə Azərbaycana dahi sənətkarlar, böyük söz ustaları, əvəzsiz şəxsiyyətlər bəxş edib. Onların sırasında müasirimiz olmuş şair Rübailin adını da çəkə bilərik.**

O sənətkar, söz sahibi xöşbəxtdir ki, özündən sonra unudulmaz bir iz qoyur. Məhz Gəncədə yaşayıb yaradan mərhum Rübail də belə qələm sahiblərindəndir.

**Hər insan özünün öz möhürüdü,**
**Hər baxış gözələ göz möhürüdü.**
**Barmaq möhürüylə seçilir hərə –**
**Rübai seirimin söz möhürüdü.**

Bu il Azərbaycan Yazıçılar Birliyinin üzvü, biologiya elmləri namizədi, professor, Əməkdar müəllim Rübail Nəcəf oğlu Allahverdiyevin 85 yaşı tamam olur. 1940-cı ildə Gəncədə anadan olan Rübail burada orta məktəbi, Aqrar Universiteti bitirib. Aspiranturada təhsilini davam etdirib və namizədlik dissertasiyasını uğurla müdafiə edib. Eyni zamanda, poeziyaya sevgisi onu ömrü boyu müşayiət edib. Bioloq kimi də, filoloq kimi də tanınıb, sevilib.

Çağdaş gəncəli şairlərin ədəbi zövqünün formalaşmasında Rübailin də müəyyən rolu olub. Mirzə Şəfi Vazehə yazdığı şeirini elə onun özünə də aid etmək olar:

**Nəğməsinə göz dikənlər çox olub,**
**Ac gözləri bu dünyada tox olub.**
**Şeirləri əldən çıxıb yox olub –**
**Müəmmalı müəmması hardadı?**

Yaradıcılığa 1961-ci ildə "Kadr uğrunda" qəzetində dərc olunan "Yaylım atəşi" şeiri ilə başlayan şair Rübail sonralar öz şeirləri ilə əsl atəşfəşanlıq yarada bilib. Azərbaycan mətbuatında davamlı olaraq "Sübhə yaxın", "Bir işıqlı yol üstəyəm", "Gecələr yuxusu qaçar qızların", "Getmişdim günəşi yola salmağa", "Ömrün fəsilləri", "İldırımötürən", "Altı məzar, üstü bazar dünyamız", "Zamanla əlbəyaxa", "Dünya dəlilərin şənlik evidi", "Tələsdikcə gecikirəm", "Sahilsiz çaya körpü", "Rübailər" adlı şeir və poema topluları nəşr olunub. "Tələsdikcə gecikirəm" kitabına görə "Beynəxalq Rəsul Rza" mükafatına layiq görülüb.



Onun Vətən, ana, təbiət və sevgi kimi ənənəvi mövzulara müraciəti klassik formanı müasir bir ahəngdə səsləndirmək üsulu kimi diqqət çəkib.Yaradıcılıq üslubunda aşkar duyulan müasirlik ruhu ilə oxucu zövqünü, mənəvi dünyasını daha da zənginləşdirib.

Şair Rübail doğma Gəncəsinə həddən artıq bağlı bir insan idi. Bu şəhərin hər bir küçəsi, xüsusilə də Xan bağı və buradakı ağ çinarlar onun üçün daha əziz idi. Onun hər misrasında Gəncənin havası, təravəti duyulurdu. Gəncə ona Cavad xanın yurdu olmaqla yanaşı, Nizami, Məhsəti yadigarı olaraq doğma idi. Gəncə onun ədəbi taleyinin sirli məkanı idi. O, bütün varlığı ilə bu şəhərin ruhunu, əxlaqını, ədəb-ərkanını varlığına çevirə bilmişdir.

**Əlimdən çıxanda fürsət yad kimi,**
**Yandırır dilimi son fəryad kimi.**
**Yüyəni çeynəyən dəli at kimi,**
**Məni dalğalara atır yelkənim.**

Bu gün şair Rübaili xatırlayarkən filologiya elmləri doktoru, professor Rüstəm Kamal onun haqqında yazır: "Ömür, Rübail poeziyasının baş qəhrəmanıdır və əsas yaşantı hadisəsidir. Ömrü anlamaq zərurəti şairi müdrik edir. O, ömür haqqında bilgilərini və duyğularını dörd misralıq hikmətə sığışdırır".

Bəli Rübail öz şerlərində həqiqətən də ömür haqqında bilgilərini və duyğularını dörd misralıq hikmətə sığdıra bilirdi. Məhz bu misralar Rübail hikmətini və varlığını qoruya bilir. Onun söz xəzinəsi gələcək nəsillər üçün bir məktəb, həqiqətin varlığı, hikmət bulağıdır.

***Anar Ərtoğrul BURCƏLİYEV***

# Gəncənin yaddaş kitabı – Cavadxan küçəsi






**Hər şəhərin öz yaddaşı, hər küçənin öz hekayəsi var. Gəncənin qəlbində elə bir küçə uzanır ki, onun hər addımı tarixlə danışır, hər daşı bir xatirədir. Bu, Gəncənin "şah damarı" adlanan Cavadxan küçəsidir. Adını yalnız bir qəhrəmandan deyil, bütöv bir xalqın iradəsindən, mübarizəsindən alan bu küçə həm Gəncənin, həm də Azərbaycanın qürur yoludur.**

Küçə öz ünvanını 1804-cü ildə rus imperiyasına qarşı qəhrəmancasına döyüşərək şəhid olan sonuncu Gəncə xanı Cavad xanın adından alıb. Bu ad sadəcə bir lövhəyə yazılmayıb – gəncəlilərin yaddaşına, ruhuna həkk olunub. Sovet dövründə küçəyə Sabir küçəsi desələr də, xalq hafizəsi onu heç vaxt başqa cür qəbul etməyib. Çünki tarix rəsmi qərarlarla yox, yaddaşla yazılır.

Cavadxan küçəsinin memarlıq siması da tamam bambaşqadır. Burada qırmızı kərpicdən hörülmüş ikimərtəbəli binalar sıralanır. O evlərin birinci mərtəbəsində mağazalar, dükanlar açılır, üst qatlarda isə ailələrin səsi, uşaq qəhqəhəsi eşidilir. Dalana açılan darvazalardan qədim həyətlərin qoxusu, kərpiclərin sərinliyi yayılır. Bir vaxtlar küçədə Quberniya Bankı, Pitoyev bankir evi, Usubbəyovun kredit bankı kimi nüfuzlu binalar yerləşib. XIX əsrin sonlarında bank kimi tikilən o möhtəşəm tikililər bu gün də öz funksiyasını qoruyur.

Bu küçədə sadəcə banklar, idarələr yox, həm də sənətkarlıq və yaradıcılıq nəfəsi olub. "Rəfiyev qardaşlarının" ticarət evi, Babayev qardaşlarının mağazası, Rudnikin kauçuk dükanı, Hacı Həsənovun mətbəəsi, Zinger qardaşlarının emalatxanası, "Zarya" sinematoqrafı – hamısı Gəncənin canlı iqtisadi və mədəni həyatının şahidləri olub. Burada xalçaçılıq və rəssamlıq dərnəkləri fəaliyyət göstərib, sənətkarların əl izləri sanki küçənin daşlarına hopub.

Cavadxan küçəsinin başqa bir yaddaşı da milli mübarizə ilə bağlıdır. Burada Şeyxzamanovlar nəslinin evi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Xasməmmədov qardaşlarının yaşadığı bina və ilk "Azərbaycan" qəzetinin işıq üzü gördüyü mətbəə yerləşib. Adama elə gəlir ki, istiqlal nəfəsi duyulan bu küçə, sanki milli oyanışın səssiz salnaməsidir.



Bəziləri Cavadxan küçəsini Bakının Nizami, yəni "Torqovı"sına bənzədir. Amma bu tarixi küçə düz və səliqəli paytaxt küçəsi deyil, dönə-dönə irəliləyən, gah qədim məhəllələrə, gah da müasir şəhərə açılan bir yoldur. Sanki onun döngələri Gəncənin tarix boyu yaşadığı dönüşləri əks etdirir.

Bugünkü Cavadxan küçəsi həm keçmişi, həm də gələcəyi daşıyır. Küçə boyu aparılan abadlıq işləri, bərpa olunan tarixi binalar, açılan yeni mədəniyyət və ticarət ocaqları bu yeri daha da canlı edir. Burada məktəbə tələsən uşaq da, skamyada oturan qoca da, əl-ələ tutub gəzən gənclər də bir tarixlə üz-üzədir.

Cavadxan küçəsi – sadəcə yol deyil, bir millətin direniş və qürur tarixidir. Onun daşlarında Cavad xanın ruhu dolaşır, hər addımda qəhrəmanlıq və ləyaqət xatırlanır. Gəncə onu yaşadır. Və hər kəs bu küçədən keçərkən, sanki tarixlə salamlaşır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

*Təbiət və insan*

# Arktika maralı ekoloji təhlükədə



**Siz, yəqin ki, televiziya və kinofilmlərdə Arktikanın buzları üzərində sakitcə yeriyən iribuynuzlu maralları çox görmüsünüz. Minillər boyu Şimal qütbünün kəskin soyuq iqlim şəraitində yaşayıb artan maralların sayı indi kəskin azala bilər. Bu gözəl heyvan Avrasiyada "Şimal maralı", Şimali Amerikada isə "Karibu" kimi tanınır.**

Beynəlxalq tədqiqatçılar qrupu bu günlərdə iqlim dəyişikliyi səbəbindən Arktika maralının sayının 2100-cü ilə qədər 80 faizə qədər azala biləcəyi barədə xəbərdarlıq edib. Bu xəbər, əlbəttə, məyusedici və düşündürücüdür.

Tədqiqatçılar "Rangifer tarandusu"-nun (Araktika maralının elmi adı belədir – müəllif) 21 min illik populyasiya dinamikasını "yenidən qurmaq və deşifrə etmək" üçün bu canlıların qədim DNT və kompüter modellərindən istifadə ediblər.

Kopenhagen (Danimarka) Universitetindən aparıcı əməkdaşı Elisabetta Canteri bildirib ki, Şimal marallarının populyasiyalarının sürətli iqlim istiləşməsi dövrlərində böyük azalmalara məruz qaldığı acı bir reallıqdır. Lakin gələcək iqlim dəyişikliyi səbəbindən qarşıdakı onilliklərdə gözlənilən itkilər, çox güman ki, keçmişdəkindən daha ağır olacaq".

Xanım E.Canteri və digər alimlər vurğulayırlar ki, Arktika maralının populyasiyasında son üç onillikdə təxminən 70-75 faiz azalma müşahidə olunub. Bioloqlar maralların populyasiyasının davamına kömək etmək üçün böyük dövlətlər tərəfindən təbiətin qorunmasına diqqətin artırılmasını vacib hesab edirlər. Onların fikrincə, vəhşi təbiətin idarə edilməsinə investisiyaların artırılması zəruridir. Bu zaman xüsusilə istixana qazlarının emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına böyük ehtiyac yaranıb.

Sözügedən tədqiqatlara töhfə verən Kaliforniya Davis Universitetindən Erik Post həyəcan təbili çalaraq deyib ki, Şimal maralı və karibunun "itməsi" Tundrada bitki müxtəlifliyində azalmaya səbəb olacaq. E.Post həmçinin əmindir ki, maralların mövcudluğuna yaranmış təhdidlərin ağır fəsadları olacaq. Onun sözlərinə görə, bu Arktika torpaqlarında karbon ehtiyatının azalması da daxil olmaqla, bir çox mənfi kaskad təsirlərə malik olacaq.

Amerikalı nüfuzlu bioloq sonra demişdir: "Min illərdir ki, bəşər övladı öz rifahı naminə maral və karibuların sağlam populyasiyalarından bəhrələnir. Ətindən, südündən dərisindən istifadə edir, xizəklərə qoşur. İndi biz onları düşünməli, öz borcumuzu verməliyik. Yəni ana təbiətin bu gözəl məxluqlarının taleyinə biganə qalmamalıyıq. Təbiətin qisası ağır ola bilər!"

***M.HACIXANLI***
***XQ***

*Təbiət ilhama çağırır...*

**Ağlım kəsəndən görmüşəm ki, iki otaqlı daxmadan ibarət ata evimiz zirvəli dağların qucağında qərar tutub. Mən həmin evdə dünyaya göz açmışam. Evimizin arxasında bircə ağac vardı. Nənəm deyirdi ki, orada böyük meyvə bağımız olub. Bir yay günü bağlar, bağçalar, tarlalar, taxil zəmiləri yanıb külə döndü. Uzaqlardan gələn yanğın çölləri, düzləri ağuşuna aldı...**



# Qartal yuvası

Mən dünyaya göz açanda o bağdan əsər-əlamət qalmamışdı. Bağ sahəsinin yerində çoxuşaqlı ailəmizi dolandırmaq üçün bostan və tərəvəz bitkiləri əkirdik. Biz on iki bacı-qardaş idik. Hərəmiz bir işin qulpundan yapışıb valideynlərimizə kömək edirdik. Gün-güzaran çətin olsa da, bəxtəvər böyüyürdük.

Atam İkinci cahan savaşından qazi kimi qayıtmışdı. Anam "Qəhrəman ana" idi. Ailənin kiçik oğlu olduğum üçün, qanlı-qadalı müharibədən qayıdan atam mənə nəcib bir ad verib. Deyib ki, bu ad ömrünə şərəf gətirər.

...Yaxından-uzaqdan baxanda evimizin arxasındakı o tək ağac gözə dəyirdi. O cökə ağacı o qədər gözəl idi ki, elə bil, boy-buxunu, qol-budağı qüdrətdən yaranmışdı. Atam deyirdi ki, o cökəni biz əkməmişik. Hansısa quşun dimdiyində toxum gəlib torpağa düşüb. Meyvə bağımız yanıb külə dönəndən bir müddət sonra, bir yaz günü yaşıl bir pöhrən gözümüzə dəydi. Böyüdükcə cökə ağacı olduğunu bildik.

Cökə ağacları Ağgünlü kəndinin meşələrinin qənirsiz gözəlliyi, bəzəyi, yaraşığıdır. Cökə ağacının havasının, həm də kölgəsinin əvəzi yoxdur. Onun çiçəyindən anam ətirli çay dəmləyirdi. Atamla anam o çökə ağacını bizə o qədər sevdirmişdi ki, meylimiz ona sarıydı. Kölgəsi yaylaq havası kimi sərin olurdu. Anam cökənin kölgəsində kilim sərirdi. Qardaşımla o kilimin üstündə mütəkkəyə dirsəklənib hər gün kitab oxuyurduq, dərslərimizi hazırlayırdıq, nahar edirdik.

Orda oturub dərs oxumaq, çay içmək, nahar etmək özgə bir tamaşa idi. O cökə ağacına elə bağlanmışdıq ki, gecə yarıyadək günümüz o yaşıl ağacın altında keçirdi. Anam bizi səsləyəndə bilirdik ki, artıq yatmaq vaxtıdır.

Evimiz iç-içə ikiotaqlı daxmadan ibarət idi. Yataq otağımız da, qonaq otağımız da, mətbəximiz də o iki otağın içindəydi. Kasıb olsaq da, evimizdə huzur vardı, bin-bərəkət vardı. Uzaqdan qohumlar bizə qonaq gələndə kasıb evimizdən utanırdım. Mənim yatmağa yerim olmurdu. Ailənin kiçik oğlu olduğum üçün mən nənəmin sandığının üstündə yatırdım.

...Qardaşımla həmişəki kimi, cökə ağacının altında oturub dərslərimizi hazırlayırdıq. Cökə yağış suyunda çimib Günəşin altında güzgülənirdi. Elə bil, nazlı qızlar kimi tumarlanır, budaqları qardaşımın əlləri ilə hamarlanırdı. Qardaşımın əlindən hər iş gəlirdi. Uşaq olsa da, rəncbər kişilər kimi əkib becərməkdə, tikib qurmaqda çox pərgar idi.

Cökəmiz gündən–günə boy atdıqca, başı buludlara sarı ucalırdı. Əyilən budaqlarına qardaşım taxtalardan dayaq düzəltdi. Dayaqların dibində güllər əkdik. Çox keçmədi ki, sarmaşıq gülləri cökənin əyilən budaqlarını hər tərəfdən çətir kimi tutdu. O güllərin üstünə kəpənəklər qonmağa, cökənin qarmaşıq budaqlarında quşlar oxumağa başladı.

Qardaşım ağacın altında qarşı-qarşıya taxtadan iki oturacaq düzəltdi. Burada qardaşımın əl işlərinin və mənim kitablarımın sayı gündən–günə artırdı. Yaşadığımız evdə onlara yer yox idi. Qardaşım cökənin altını taxtabənd kimi düzəltmişdi. Bir gün də dedi ki, burada özümüzə taxtadan otaq tikəcəm. Əllərinə sağlıq, dediyi kimi də etdi. Taxta otağımıza kitab rəfləri, iki pəncərə və bir qapı da düzəltdi.

Taxta evimizdə ata-ana əvəzi, cökə ağacı bizə həyan oldu. Anamız kimi sevirdik bizə qoynunda yer verən cökə ağacını. Ağacın sərinliyinə, taxta otağımızın hərarətinə ana nəfəsinə öyrəşən kimi öyrəşmişdik. Kökündən yarpağınadək bizə Vətən idi. Ata-ana nəvazişindən uzaq, cökə bizi qorudu, biz də cökəni. Bizim taxta evimizə, kəndimizdə yeddidən yetmişə - hamı "qartal yuvası" deyirdi. Orada Günəş də başqa səmtdən çıxır, qürub çağı qərib nağıla bənzəyirdi. Hər ötən günümüz fərəhlə keçirdi. Ordan ayrılıb Bakıya gəldiyimiz gün cökə ağacı şehli yarpaqlarını çırpıb, anam kimi arxamızca su çiləyirdi. Yolumuza uğur diləyirdi. O yol arzu yoluydu.

Böyük arzulara "qartal yuvası" dar gəldi. Şirin duyğularla nəfəs alırdıq. O da bir dövrandı, bir də qayıtmaz...



Orta məktəbi bitirənə qədər o cökədən və onun kölgəsinə sığınan taxta evimizdən ayrı bir günümüz olmadı. Qardaşım əsgərliyə getdi. Əsgərlikdən sonra kəndə qayıtmadı, Bakıda məskunlaşdı. Dedi ki, ailəmizin kiçik oğlusan. Yanar çırağımız sənsən. Ata yurdumuzun da, qartal yuvamızın da ümid yeri sənsən. Hara getsən də, dönüb ata yurduna pənah gətirərsən, ata evimizdən taxta evimizə gedən yolda çiçəkli bir cığır bitirərsən...

Mən Bakıya gəlib universitetə qəbul oldum. Məndən sonra o qartal yuvasına gedən cığırı ot basdı. Su öz məcrasından çıxdığı kimi, biz də o qartal yuvasından çıxdıq. İllərin ayrıcından sonra o qartal yuvası mənimçün əlçatmaz oldu. Qərib quşların məskəninə çevrildi. Qışın qarı əridi, yazda sular çağladı, yay ötdü, payız gedənləri soraqladı. Qatarların fit səsi gələndə "cökə anamız" ümidlə yollara baxdı. Uşaqlığımızın ötən səsinə, unudulmaz ünvanımıza şəhərdə yer tapa bilmədik. Qartal olub uçmaq istəsək də, o qartal yuvasına dönə bilmədik. Universitetin bütün imtahanlarından keçsəm də, həyat imtahanından keçə bilmədim. Bizi şəhərlər ac kaha kimi uddu, uzaq şəhərlərdə ünvanlaşdıq. Ömrün hər sınağından keçdik, şehli yamacların, şümşad boylu ağacların qınağından keçə bilmədik.

İndi o qartal yuvası şəhərdə könlümün sorağı ilə gecələr yuxuma girir. Bütün varlığı, yoxluğu ilə ruhuma, canıma köçüb. Dan yeri söküləndə, yuxularımda yarpız ətirli, xallı kəpənəkli taxta evli cökənin həsrətinə qısılıram. Bulağımızın duru gözünə, "cökə anam"ın nurlu üzünə tamarzı qalmışam.

...Hərəmiz bir yolla gəlmişik şəhərə. Ömür yollarında yorulmasaq, gəldiyimiz yolla da bir gün qayıdacağıq. O duyğulara köklənəndə xəyalım əlçatmaz üfüqə dönür. İçimdən bir həzin, kövrək ümid boylanır. Hərdən də düşünürəm, nə vaxtsa uşaqlığım keçən o "qartal yuvası"na "qayıda biləcəyəmmi?! Heç bilmirəm, ömrüm çatacaqmı?!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 175 (30869) 21 avqust 2025-ci il, cümə axşamı

# “Qarabağ” “Ferensvaroş”a təkrar fəlakət yaşatdı



**“Ferensvaroş” 2024/25 mövsümündə ardıcıl yeddinci Macarıstan çempionluğunu qazansa da, öz meydanında hansı klubla qarşılaşdığını yaxşı bilirdi. Rəqibi sıradan bir klub deyil, UEFA Çempionlar Liqasının 2022/23 mövsümünün üçüncü təsnifat mərhələsində qarşılaşdığı və ümumi hesabda 4-2 hesabı ilə məğlub olduğu (səfərdə 1:1, evdə 1:3) Azərbaycan təmsilçisi Ağdamın “Qarabağ” klubu idi. Bu qarşılaşmadan sonra hər iki klubun heyətində kifayət qədər dəyişikliklər olmuşdu. İndi Macarıstan təmsilçilərinə İrlandiya Respublikasının məşhur futbolçusu Robbi Kin başçılıq edirdi. Amma “Qarabağ” komandasının məşqçisi yenə Qurban Qurbanov idi.**

Oyundan əvvəl bəzi araşdırmalar aparıb müəyyən ehtimallar etməli olduq. “Ferensvaroş” Çempionlar Liqasının cari seçmə mərhələsində keçirdiyi 4 matçda məğlub olmamışdı. II təsnifat mərhələsində Ermənistan təmsilçisi “Noah”ı 6:4 (2:1, 4:3), III mərhələdə isə Bolqarıstanın “Ludoqorets” komandasını 3:0 (0:0, 3:0) hesabı ilə məğlub edib. Ümumiyyətlə, Robbi Kinin yetirmələri avrokuboklarda son altı ev oyununun hamısında qalib gəliblər. Komandanın əsas qol silahı olan hücumçu Barnabas Varqa bu mövsüm Çempionlar Liqasında 4 matçda 4 qol vurmağa nail olub.

Azərbaycan təmsilçisi də rəqibindən heç nə ilə geri qalmırdı. “Qarabağ” 2025/26 mövsümündə Çempionlar Liqasının seçmə mərhələsində keçirdiyi dörd oyunun hamısında qalib gəlib, 10 qol vurub və qapısından cəmi 1 qol buraxıb.

Qurban Qurbanovun yetirmələri II təsnifat mərhələsində İrlandiyanın “Şelburn” klubunu 4:0 (3:0, 1:0), üçüncü mərhələdə isə Şimali Makedoniya “Şkendiya”sını 6:1 (1:0 , 5:1). hesabı ilə məğlub edib. Diqqət çəkən məqamlardan biri də bu idi ki, “Qarabağ” bu mövsüm Çempionlar Liqasında keçirdiyi dörd oyunun hamısında ilk yarıda qol vurub.

Bu məlumatlara söykənən “Qarabağ” fanatları və Azərbaycan futbolunun pərəstişkarları bu iki komandanın oyununda fundamental mübarizə gözləyirdilər. Aydın məsələ idi ki, yaşıl qartallar bir dəfə atlara uduzduqları üçün oyuna ehtiyala başladılar. Bəzi ecnəbi şərhçilər qeyd edirdilər ki, məşqçi Qurban Qurbanovun komandasının taktika baxımından böyük problemləri var. Amma onu da etiraf edirdilər ki, qarabağlılar şans yaratmaqda fərqlənirlər, tez-tez əks-hücumlar keçirirlər. Düşünürdük, görəsən bu, yetərli olacaqdımı?

Əvvəlcədən seçim etmək çətin olsa da, redaksiyadakı futbolsevərlər istiyimizdən çıxış edib bu



qarşıdurmada “Qarabağ”ın qalib gələcəyini düşünürdük. Amma nə gizlədim, “Ferensvaroş” müsbət nəticəyə daha çox ümidli görünürdü, çünki doğma meydan və tamaşaçı dəstəyi amili onların tərəfində idi.

Düçünürdük ki, macarlar hər zaman hücum futboluna kökləniblər və çətin, oyun üslublarından kənara çıxsınlar. Oyundan əvvəl ev sahiblərindən mütləq aktiv hərəkətlər gözləsək də, bu, mütləq qələbəyə səbəb olmağa əsas vermirdi.

Məsələ burasındadır ki, “Qarabağ” da yaxşı formadadır, onlar da hazırda iki cəbhəyə səpələnməyiblər - ölkə çempionatı hələ yenicə start götürüb. Çempionlar Liqasının hazırkı seçmə mərhələsində keçirdiyi dörd oyunun hamısında qalib gələn “Qarabağ”ın əvvəllər bu turnirdə belə qələbə seriyası olmayıb. Üstəlik, ağdamlılar bütün turnirlərdə çox effektiv oynayırlar və bu, macarların müdafiəsi üçün əsl başağrısına çevriləcəkdi.

Oyun başladı, ancaq ilk dəqiqələrdən Robbi Kinin yetirmələrinin hücum futbolu oynamayacağı, əslində, oynaya bilməyəcəkləri aydın göründü. Əksinə, “Qarabağ” meydana hücum futbolu nümayiş etdirmək üçün çıxdığını ortaya qoydu. Bundan əvvəlki matçda Makedoniya “Şkendiya”sına bütün xəttlərdə öz dəsti-xəttini nümayiş etdirməyə imkan verməyən “Qarabağ” bu mövsüm Çempionlar Liqasının pley-off mərhələsində çıxış etməyə layiq olduğunu sübut eməkdə idi. Ağdamlılar qonaq komandaya bənzəmir və topa “Ferensvaroş”dan iki dəfə çox nəzarət edirdilər. Matçın əvvəlində Kadi soldan 23 metrdən uzaq küncə əla zərbə endirdi. Qapıçı sıçrayışda əlindəki topa nəzarəti itirsə də, rəqib Leandro Andradenin son zərbəni endirməsinə mane ola bildi. Bundan sonra Stefan Qartenmann sağdan irəli gedərək topu cərimə meydançasına yüksəltdi və Barnabas Varqa sağ dirəyə yaxın topa baş zərbəsi endirdi. Bu cavab hücumu bir nəticə vermədi.

29-cu dəqiqədə sağ cinahdan Sebrails Makrekis cərimə meydançasının xəttindən mərkəzə Varqaya ötürmə etdi. Varqa sağ küncə dəqiq zərbə endirdi. Qapıçımız bu zərbəni dəf etməkdə aciz idi - 1:0. Qarbağlılar bu gözlənilməz qoldan sonra bir anlıq sanki özlərini itirdilər və bir dəqiqə keçməmiş rəqibin oyunçusu Yozef 18 metr məsafədən qonaqların qapısının sağ küncünə əla zərbə endirdi. Qapıçımız əla oynadı və çevik sıçrayışla ikinci qola imkan vermədi. Birinci hissə elə bu hesabla da başa çatdı.

İkinci hissə Robbi Kinin yetirmələri üçün əsl fəlakət oldu. Hakimin fitindən 5 dəqiqə sonra Andrade Marko Yankoviçə əla ötürmə etdi. Buna qədər rəqib oyunçuların ard-arda kobud fəndləri ilə qarşılaşan Yankoviç sanki bunun acığını çıxırmış kimi 22 metrdən qapının sağ küncünə dəqiq güclü zərbə endirdi - 1:1. Qurban Qurbanovun yetirmələrinin əsl oyunu bundan sonra başladı. İkinci hissənin ortalarında Kadi künc bayrağından ötürmə etdi, uzaq dirəyə yüksələn top Kevin Medinaya çatdı. Müdafiəçimiz topu bir toxunuşla dayandırdı, ikincidə isə onu qapı tirinin altından göndərdi - 1:2. Bu da son olmadı. Təşəbbüsə yiyələnən qarbağlılar dayanmaq bilmirdilər. Oyunun sonuna yaxın – 85-ci dəqiqədə yenə Kadi Borjes sürətlə rəqib qapısına şığıyan Musa Qurbanlıya əla ötürmə etdi. Meydana ikinci hissədə çıxan Musa fürsəti əldən vermədi və qapının sol küncünə dəqiq zərbə endirdi - 1:3. Oyun elə bu hesabla da başa çatdı.

Sevincindən ara vermədən hayqıran meydandakı azsaylı soydaşlarımızın səsi indi minlərlə yerli azarkeşin səsini batırmışdı. Əsl qətiyyət və güclü iradə nümayiş etdirən “Qarabağ” turnirin ümumi mərhələsi üçün əla şans əldə etdi.

Cavab oyunu avqustun 27-də Bakıda keçiriləcək. Qarşılaşmanın qalibi Çempionlar Liqasının əsas mərhələsinə, uduzan isə Avropa Liqasına yüksələcək.

Oyundan sonra “Ferensvaroş”un 2 il əvvəl elə bu meydanda, elə 1:3 hesablı məğlubiyyətindən sonra Macarıstan mediasının manşetə çıxardığı qəzəbli sözləri xatırladım. O zaman “Nemzety Sport” idman saytı elə belə də yazmışdı: “Çempionlar Liqası arzusuna son qoyuldu. “Ferensvaroş” evdə “Qarabağ”a uduzdu”. Biz əminik ki, Bakıdakı təkrar görüşdən sonra “Qarabağ” Çempionlar Liqasında öz qalibiyyət yoluna davam edəcək. Çünki bu, həm də bizim, çoxmilyonlu Azərbaycan azarkeşlərinin arzusudur.

*İlqar RÜSTƏMOV*
*XQ*

## İDMAN

### Qadın güləşçimiz Dünya çempionatı finalında

**Azərbaycanın qadın güləşçisi Ruzanna Məmmədova Bolqarıstanın Samokov şəhərində keçirilən U-20 dünya çempionatında finala yüksəlib.**



Yarışda 62 kiloqram çəki dərəcəsində çıxış edən idmançı yarımfinalda türkiyəli Büşra Efeyə tam üstünlüklə qalib gəlib.

R.Məmmədova həlledici qarşılaşmada çinli Yanqjen Yanqjenlə üz-üzə gələcək. Görüş bu gün keçiriləcək.

Qeyd edək ki, Avropa çempionu Günay Qurbanova (59 kiloqram) isə dünən kanadalı rəqibi Ella Findinqə 4:1 hesabı ilə qalib gələrək bürünc medala sahiblənib.

Daha öncə kişilərin yarışında Vasif Bağırov (57 kq) bürünc medal uğrunda qarşılaşmada moldovalı Yon Bulqarunu 8:2 hesabıyla məğlub edib.

### “Kamp Nou” yeni mövsümə hazır deyil




**İspaniyanın “Barselona” klubunun ev oyunlarını keçirdiyi “Kamp Nou” stadionunda təhlükəsizliklə bağlı nöqsanlar aşkarlanıb. Klub rəhbərliyi yenidənqurma işləri tamamlanması üzrə olan arenadan istifadə etmək üçün şəhər hakimiyyətindən icazə ala bilməyib.**

Belə ki, ekspertlər cənub qapısı ətrafındakı ərazilərdə rəsmi matçın keçirilməsinə mane ola biləcək təhlükəsizlik çatışmazlıqlarını diqqətə çatdırıb, eləcə də stadionun digər sahələrinin də təkmilləşdirilməsi üçün xəbərdarlıq ediblər.

Klub nöqsanları aradan qaldırmalı və avqustun 28-dək UEFA-ya “Kamp Nou”da oyunlarını keçirə biləcəyi barədə məlumat verməlidir.

### UEFA-nın yeni reytinqi



**Azərbaycan UEFA reytinqində Ukraynaya yaxınlaşıb. “Qarabağ”ın avqustun 19-da UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyununda Macarıstanda “Ferentsvaroş”a qalib gəlməsi sayəsində mümkün olub.**

Ağdam təmsilçiləri ölkənin aktivinə daha 0,250 əmsal yazdırıb. Azərbaycan (19.500) 28-ci, Ukrayna (19,725) 27-ci pillədə qərarlaşıb. Bolqarıstan (18.375) 29-cu sıradadır.

Qeyd edək ki, UEFA reytinqinə 94.839 əmsalla İngiltərə başçılıq edir. Qonşu Türkiyə (42,100) 9-cu, Gürcüstan isə (6,000) 52-ci pillədə qərarlaşıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

“Azərbaycan Dəmir Yolları”
Qapalı Səhmdar Cəmiyyəti

*“Elektrik kontakt şəbəkədə məftil və trosların bağlanması üçün sıxacların” satın alınması ilə əlaqədar*

**AÇIQ TENDER ELAN EDİR**

“Elektrik kontakt şəbəkədə məftil və trosların bağlanması üçün sıxacların” satın alınması ilə əlaqədar şərtlər toplusunu əldə etmiş və tenderdə iştirak etmək istəyən təchizatçılar, müraciət məktubunu (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədini təqdim etdikdən sonra satınalma predmeti üzrə uyğunluq sənədlərini, tender təklifini və tender təklifinin təminatını təqdim etməlidirlər.

Müsabiqədə iştirak etmək üçün qeyd edilən elektron poçt üzərindən əlaqəli şəxsə müraciət edilməlidir.

İştirak haqqının ödənilməsi üçün :
İştirak haqqı 450 manatdır (ƏDV daxil).
Hesab nömrələri:
AZ57İBAZ38050019449345061205 (AZN)
AZ47İBAZ38150018409345061205 (USD)
AZ27IBAZ38150019789345061205 (EUR)
AZ64İBAZ38150018109345061205 (RUR).
VÖEN- 9900007721
Bank- “Azərbaycan Beynəlxalq Bankı” ASC “Nərimanov” filialı
Kod-805711
VÖEN- 9900001881
M\h- AZ03NABZ01350100000000002944
S.W.I.F.T. Code: İBAZAZ2X

İştirak haqqı müəyyən hallar istisna olmaqla geri qaytarılmır. Təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edildiyi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilmədiyi təqdirdə təchizatçıların müraciətinə əsasən iştirak haqqı geri qaytarılır. Təchizatçıların sayının üçdən az olması və ya satınalmanın maliyyələşdirilməsinin dayandırılması hallarında satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:

– tender təklifi (zərflərin açıldığı gündən etibarən ən azı 40 (qırx) bank günü qüvvədə olmalıdır);

– 12 000 (on iki min) manat məbləğində bank təminatı (bank təminatının qüvvədə olma müddəti təklifin qüvvədə olma müddətindən ən azı 30(otuz) bank günü çox olmalıdır).

– təklif azərbaycan dilində hazırlanmalıdır.

Tender təklifi və tender təklifinin bank təminatı möhürlənmiş zərfdə 10 sentyabr 2025-ci il saat 12.00-a qədər Nəsimi rayonu, Dilarə Əliyeva 230, “Azərbaycan Dəmir Yolları” QSC-nin Təchizat və Təsərrüfat departamentinə (satınalma şöbəsi, 169 nömrəli otaq) təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqələndirici şəxs - Üzeyir Quliyev, Təchizat və Təsərrüfat departamenti satınalma şöbəsinin “mütəxəssisi”.

Telefon nömrəsi- (050) 300-00-70.e-mail: “u.guliyev@ady.az”

Tender təklifləri 10 sentyabr 2025-ci il saat 15.00”-da Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva, 230 nömrəli ünvanında açılacaqdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

“Təklifin qiyməti, çatdırılma müddəti, ödəniş şərtləri, zəmanət müddəti, malların texniki uyğunluğu”.

Tender Müşahidə Şurasının 11 aprel 2025-ci il tarixli 01 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxs və AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş və xidmətlərin) vahid satın alınması Qaydalarına uyğun keçirilir.

Zərflərin açılışında iştirakçıların səlahiyyətli nümayəndələri (notarial qaydasında təsdiqlənmiş sənədlə müvəkkil edilmiş şəxs) iştirak edə bilərlər.

Müraciət məktubu forması və Şərtlər toplusunu ady.az saytında “Satınalmalar” bölməsindən əldə edə bilərsiniz.

*Satınalma komissiyası*

## HAVA

### Dəyişkən buludlu və yağmursuz...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi günün ikinci yarısından arabir güclənəcək. Havanın temperaturu gecə 21-25, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 752 millimetr civə sütunundan 756 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 22-27 dərəcə isti olacağı ehtimal edilir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00